Altıncı çağırış

# AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİ İCLASLARININ

# PROTOKOLLARI VƏ STENOQRAMLARI

On dördüncü sessiya
Payız

59-cu cild

26 – 30 dekabr 2023-cü il

Milli Məclisin nəşri
Bakı – 2023

Milli Məclis Aparatının
Redaksiya və nəşr işləri şöbəsində
hazırlanmışdır

**ALTINCI ÇAĞIRIŞ**
**AZƏRBAYCAN RESPUBLİKASI**
**MİLLİ MƏCLİSİNİN**
**XIV SESSİYASI İCLASININ**

# PROTOKOLU № 156

*Milli Məclisin iclas salonu.*
*26 dekabr 2023-cü il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 108 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
| İştirak edir | 102 |
| Yetərsay | 83 |

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. Arbitraj haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).
2. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).
3. "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).
4. "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" və "Hədəfli maliyyə sanksiyaları haq-

qında” Azərbaycan Respublikası qanunlarının icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

5. “Prokurorluq haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

6. “Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında” Azərbaycan Respublikası Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

7. “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

8. “Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.

9. Azərbaycan Respublikasının Milli Məclisində təmsil olunan Qərbi Azərbaycan İcması nümayəndələrinin Bəyanatı haqqında.

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Məsimli, Etibar Əliyev, Vüqar Bayramov, Tural Gəncəliyev, Hikmət Məmmədov, Sahib Alıyev, Elşad Mirbəşir oğlu, Fatma Yıldırım, Emin Hacıyev, Zahid Oruc, Bəhruz Məhərrəmov, Nizami Səfərov, Fazil Mustafa, Razi Nurullayev,

Sədaqət Vəliyeva, Elman Nəsirov, Sabir Rüstəmxanlı, Tahir Kərimli, İsa Həbibbəyli, Aqil Abbas

**Təklif:** Gündəlik qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.01 dəq.) |
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 102 |

Nəticə: Qəbul edildi

**1. Arbitraj haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Nizami Səfərov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.00 dəq.) |
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |

Nəticə: Qəbul edildi

**2. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Nizami Səfərov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.01 dəq.) |
| Lehinə | 104 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |

Nəticə: Qəbul edildi

**3. "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.02 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |

Nəticə: Qəbul edildi

**4. "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" və "Hədəfli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikası qanunlarının icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli, Tahir Mirkişili, Sahib Alıyev, Adil Əliyev

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.04 dəq.) |
|---|---|
| Lehinə | 103 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |

Nəticə: Qəbul edildi

**5. “Prokurorluq haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əminə Ağazadə

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.05 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 104 |

Nəticə: Qəbul edildi

**6. “Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında” Azərbaycan Respublikası Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.06 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs verMədi | 0 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

**7. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.07 dəq.) |
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

**8. "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.08 dəq.) |
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |

Nəticə: Qəbul edildi

**9. Azərbaycan Respublikasının Milli Məclisində təmsil olunan Qərbi Azərbaycan İcması nümayəndələrinin Bəyanatı haqqında.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əziz Ələkbərov

**Təklif:** Qərar protokol qaydasında qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.15 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 107 |

Nəticə: protokol qaydasında qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*26 dekabr 2023-cü il. Saat 11.*

*Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik edir*

**Sədrlik edən.** Hamınızı xoş gördük, hörmətli deputatlar, hörmətli media nümayəndələri. Hörmətli deputatlar, xahiş edirəm, qeydiyyatdan keçin. Buyurun.

| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
|---|---|
| İştirak edir | 102 |
| Yetərsay | 83 |

Yetərsay var. İclasımıza başlayırıq.

Hörmətli həmkarlar, xahiş edirəm, gündəliyin qəbul olunmasına da münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.01 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, gündəlik qəbul edildi.

Gündəliklə, gündəmdə olan məsələlərlə bağlı çıxış eləmək istəyən, xahiş edirəm, yazılsın. 19 nəfər yazılıb. Bu gün hamı çıxış eləyəcək. Əli Məsimli. Buyurun.

**Ə.Məsimli**. Çox sağ olun, hörmətli sədr. 2023-cü il dekabrın 24-də Prezidentin xüsusi sərəncamı ilə Azərbaycanda 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsini çox yüksək qiymətləndiririk. Bu baxımdan BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29 kimi çox mötəbər bir tədbirin Azərbaycanda keçirilməsi qərarı beynəlxalq ictimaiyyət tərəfindən dövlətimizə böyük etimadın və iqlim dəyişikliklərinin qarşısının alınması işinə ölkəmizin töhfəsinin təqdir olunmasının bariz nümunəsi kimi qiymətləndirilməlidir. Bununla əlaqədar olaraq qarşıdakı ildə ətraf mühitin qorunması istiqamətində işlər xeyli dərəcədə intensivləşəcək.

Hörmətli sədr, çox böyük ehtimalla məsələlər yeni normativ hüquqi aktların meydana gəlməsini və mövcud qanunların təkmilləşdirilməsi istiqamətində addımların atılmasını şərtləndirəcək. Bu nöqteyi-nəzərdən bir məqamı xüsusi qeyd etmək istəyərdim ki, indi Azərbaycan üçün aktual olan məsələlərin içərisində su ehtiyatlarından səmərəli istifadə və ərzaq təhlükəsizliyinin etibarlılığını artırmaqdan ötrü suvarma sisteminin yenidən qurulması məsələsi xüsusi əhəmiyyət kəsb edir. Çünki dəmyə şəraitində, məsələn, Şəki kimi yerdə, digər regionlarda quraqlıq məsələsi təsərrüfatlara çox ciddi ziyan vurur. Bu mənada başqa təbii fəlakətlərlə müqayisədə quraqlıq daha böyük ziyan vurduğuna görə elə hallar olur ki, nəinki həmin təsərrüfatların nümayəndələri gəlir götürmür, hətta torpağa qoyduqları investisiyaları da itirir və müflisolma təhlükəsi

qarşısında qalırlar.

Biz təklif edirik ki, sel, dolu və digər təbii fəlakət hadisələri kimi quraqlıq da təbii fəlakət hadisəsi təsnifatına aid edilsin. Çünki sellə, dolu ilə müqayisədə quraqlıq daha böyük ziyanlar vurur. Bu nöqteyi-nəzərdən qanunvericilikdə müəyyən dəyişikliyin də edilməsinə ehtiyac var. Ona görə də son iki ildə ölkəmizdə aqrar sığorta tərəfindən həyata keçirilən işlər yüksək qiymətləndirilir. Amma bununla yanaşı, “Aqrar sığorta haqqında” Qanuna dəyişiklik edilərək quraqlıq hadisəsinin də sığorta zərfinə əlavə edilməsini təklif edirik. Bu da...

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, biz saat 12-yə qədər bu çıxışları eləyəcəyik. Sonuncu, – mən gördüm, İsa müəllim yazıldı, – İsa Həbibbəylinin çıxışı olacaq. Xahiş edirəm, daha heç kim yazılmasın. Etibar Əliyev.

**E.Əliyev.** Hörmətli xanım sədr, hörmətli deputatlar. Böyük şair İosif Brodski vətənindən qovulanda mükəmməl bir fikir söyləmişdi: “Əlimizdən zamanımızı aldılar, bizə məkanımız qaldı”. Bizlər Qərbi Azərbaycandan vəhşicəsinə qovulduqdan sonra zamanla döyüşdük. Çünki məkanımızı əlimizdən aldılar. Vəhşi ermənilər 20 faiz torpaqlarımızı işğal edəndən sonra bir milyon insanımızı da məkanlarından məhrum etdilər. Qarabağımız haqqında filmlər, əsərlər üçün ən yaxşı mövzulardan biri ev mövzusudur. Erməni barbarlarının dağıtdığı hər bir ev haqqında mükəmməl əsər yaratmaq mümkündür. Ev mövzusu sənət adamlarının müraciət etdikləri motivlərdə süjetin axarında dünya obrazında öz əksini tapmalıdır.

Böyük yazıçıların birinin fikridir: “Çoxmərtəbəli binalarda doğulanlar evdə deyil, mənzildə dünyaya gəlirlər. Evin özülü torpağa dirənməlidir. Uşaq yalnız birbaşa torpaqla təmasda dünyanın əsrarı ilə, mifologiyası ilə əlaqəyə

girir. Çoxmərtəbəli evdə o, yerlə göy arasındadır. Yəni yerin də, göyün də cazibəsindən məhrumdur". Barbarların öz məkanlarından vəhşicəsinə didərgin saldığı insanlar evlərdə doğulmuşdular, mənzillərə köçdülər.

Ev iki nəslin, iki səcərənin görüş yeridir. Biz dünyaya gəlməzdən əvvəl anamız evə köçmüş, bu və ya digər dərəcədə evin içində öz ocağını qurmağa çalışmışdır. Bu iki nəslin nə şəkildə birləşməsi, uyuşması təkcə dünyaya göz açan körpənin taleyini deyil, həm də onun dünyanı dərk etməsini, xarakterini müəyyən edir. Məcburən evlərini tərk edənlər ruhən evlərini tərk etmədilər. Barbarlar evlərimizin daşını daş üstə qoymamışdılar. Biz işğaldan azad olunmuş rayonlarımıza, kəndlərimizə insanların qayıdışını görəndə bunun şahidi oluruq. 30 ildən sonra yenidən evimizə, məkanımıza qayıdırıq.

2023-cü il dekabrın 21-də Xankəndi stadionunda müzəffər Ali Baş Komandan İlham Əliyev çıxışını bu sözlərlə başladı: "Əziz dostlar, Xankəndiyə xoş gəlmisiniz. İlk dəfədir ki, işğaldan azad edilmiş ərazilərdə futbol matçı keçirilir. Bu münasibətlə bütün Azərbaycan xalqını təbrik edirəm". Bizə məkanımızı qaytaran Prezidentimizə əbədi olaraq minnətdar olmalıyıq.

Dövlətimizin başçısı keçən il ad günündə – dekabrın 24-də Qərbi Azərbaycan icmasının inzibati binasında tarixi bir nitq söylədi. Həmin nitqin sonuncu fikri praqmatik çağırışdır. Sitat: "Bir daha onu da bildirməliyəm ki, bu yer icma üçün təsadüfən seçilmədi. Rəmzi mənası var. Bu binada yerləşmiş qarabağlılar artıq Qarabağa ya qayıdıblar, ya da qayıtmağa hazırlaşırlar. Burada yerləşən qərbi azərbaycanlılar da qayıdacaqlar, inşallah". Bəli, İlham Əliyevin "Mən bütün Azərbaycan xalqının, hər bir Azərbaycan vətəndaşının Prezidentiyəm" fikri öz təsdiqini

2024-cü il fevralın 7-də də ən yüksək səviyyədə tapacaq. Bütün Qərb dünyası görəcək ki...

**Sədrlik edən.** Vüqar Bayramov. Buyurun.

**V.Bayramov**. Çox təşəkkür edirəm, xanım sədr. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Azərbaycan Prezidenti cənab İlham Əliyevin sərəncamına əsasən 2024-cü il Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" kimi qeyd olunacaq. Cənab Prezidentin imzaladığı sənəd bir daha təsdiq edir ki, Azərbaycan nəinki daxili məsələlərə, eyni zamanda, regional və qlobal məsələlərə töhfə verən ölkədir. Bu kontekstdə 2024-cü ildə COP29-un Azərbaycanda keçirilməsi, yaşıl enerji zonasının genişləndirilməsi Azərbaycanın qlobal məsələlərə töhfəsini bir daha təsdiq edir. Bu baxımdan 2024-cü il Azərbaycan üçün yadda qalan illərdən biri olacaq. Qarabağda yaşıl enerji zonasının genişləndirilməsi nəzərdə tutulub. Alternativ mənbələrdən əldə edilən enerji hesabına Qarabağın bərpası və yenidən qurulması həyata keçirilir. Eyni zamanda, 2024-cü ildə Azərbaycanda təşkil ediləcək COP29 əslində bu sahədə yalnız aparıcı ölkə rəhbərlərinin deyil, həmçinin beynəlxalq təşkilatların bu sahədə çalışan çox fərqli beyin mərkəzlərinin Azərbaycanın paytaxtına yığışmasına və qlobal məsələlərin Bakıda müzakirə edilməsinə gətirib çıxaracaq.

Azərbaycan bərpa olan enerjidə kifayət qədər potensiala malik olan ölkələrdəndir. İlkin qiymətləndirmələr göstərir ki, Azərbaycanın bərpa olan enerji üzrə potensialı 27 min meqavoltdur və bunun 23 mini məhz günəş enerjisi hesabına yaradılacaq bir potensialdır. Təbii ki, bu, gələcəkdə, xüsusən 2030-cu ilədək olan hədəflər çərçivəsində Azərbaycanda ümumi istehlakda alternativ mənbələrdən əldə edilən enerjinin payının artırılmasına və hədəf

olaraq 30 faizə qədər yüksəlməsinə gətirib çıxara bilər. Eyni zamanda, Azərbaycan üçün məhz yaşıl enerji zonasının genişləndirilməsi yaşıl enerjinin digər ölkələrə, o cümlədən Avropa İttifaqına ixracına imkan yaradacaqdır. Azərbaycan yaşıl enerji potensialından istifadə etməklə regionun enerji təhlükəsizliyinə növbəti illərdə daha yaxından töhfə verə biləcək. Nəzərə alsaq ki, 2026-cı ildən etibarən Azərbaycanda hasil edilən yaşıl enerjinin Avropa İttifaqına və Azərbaycanın tərəfdaşları olan Rumıniya və Macarıstana ixrac edilməsi nəzərdə tutulub, bu da, təbii, regionun enerji təhlükəsizliyinə verilən bir töhfədir. O baxımdan cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət birmənalı şəkildə Azərbaycanın geosiyasi və geoiqtisadi mövqeyini daha da möhkəmləndirir və bu bizim regionun enerji təhlükəsizliyi daxil olmaqla, bütövlükdə, təhlükəsizliyin formalaşmasında rolumuzun artmasına gətirib çıxarıb. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Tural Gəncəliyev. Buyurun.

**T.Gəncəliyev**. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Biz dəfələrlə qeyd etmişik ki, Vətən müharibəsində qalib gəldikdən sonra torpaqlarımız üzərində suverenliyi tam bərpa etməklə, beynəlxalq hüququn norma və prinsiplərini bərpa etməklə təkcə Azərbaycanın deyil, ümumiyyətlə, zülmə məruz qalmış, ədalətsizliyə məruz qalmış ölkələrin xalqlarının da sanki bir tərənnümçüsü olmuşuq. Azərbaycan son zamanlar beynəlxalq platformalarda, beynəlxalq təşkilatlarda apardığı fəaliyyətlə, Qoşulmama Hərəkatına sədrlik etməklə beynəlxalq ictimaiyyətin cəlbedici bir platformasına çevrilmişdir ki, burada mötəbər tədbirlər keçirilir.

Həmkarlarımın qeyd etdiyi kimi, istər COP29 sessiyasının keçirilməsi, istərsə də Qoşulmama Hərəkatına

müvəffəqiyyətli sədrlik bəzi ölkələrdə çox narahatlıq yaratmışdır. Hindistanda, Fransada və digər yerlərdə ksenofobiya, türkofobiya, islamofobiya tendensiyaları üzərində hakimiyyətə gələn bəzi partiyalar Ermənistanı yenidən silahlandırmaq, revanşist qüvvələri alovlandırmaq məqsədlərini güdürlər. Ancaq buna nail ola bilməyəcəklər. Fransa demişkən, bu günlərdə də mətbuatda yayılmış məlumata görə, Evian-le-Ben şəhərində Azərbaycan parkında Xurşidbanu Natəvanın abidəsinə qarşı təhqiramiz hərəkətlərin edildiyi, orada olan yazıların silinməsi ilə bağlı məlumatlar yayılır.

Təəssüf edirik ki, vaxtı ilə Ermənistandan manipulyasiya aləti kimi istifadə eləyən, sonradan xunta rejiminin əli ilə Qarabağda xaos yaratmaq istəyən Fransa indi Azərbaycan mədəniyyətinə qarşı, Qarabağın simvolu olan, mədəniyyətimizin simvolu olan Xurşidbanu Natəvana qarşı belə hərəkətlərə yol verir. İroniya da ondan ibarətdir ki, dünyada mədəni və qeyri-mədəni irsin qorunmasına məsul olan UNESCO təşkilatına ev sahibliyini də məhz Fransa edir. Bu da çox təəssüfedici haldır. Ümumiyyətlə, biz Fransanın bu irticaçı siyasətini ifşa edən və ona qarşı olan vasitələrimizi də işə salmalıyıq. Necə ki biz bunu edirik.

Bildiyiniz kimi, keçən həftə Bakıda Fransanın neokolonializm siyasəti ilə bağlı mötəbər beynəlxalq konfrans keçirildi. Bu konfransda məhz Fransanın neokolonialist siyasəti ifşa edildi. Ümumiyyətlə, Fransa axırıncı ölkədir ki, insan hüquqları ilə bağlı, mədəni irslə bağlı Azərbaycana və dünyanın digər ölkələrinə dərs keçsin. Vaxtı ilə böyük müstəmləkə ölkəsi olmuş, dünyada 13 milyon 500 min kvadrat-kilometrlik ən böyük imperiya qurmuş, minlərcə, milyonlarca insanı qətl etmiş Fransanın belə hərəkətləri yolverilməzdir. Təkcə bu faktı nəzərə çatdırmaq

lazımdır ki, Fransa Polineziyası deyilən məkanda 1960-cı ildən üzü bəri Fransa Fanqataufa adasında və digər yerlərdə nüvə silahının 200-dən çox sınağını keçirmişdir. Bu da qəbuledilməzdir.  Bunu ifşa etməliyik. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Hikmət Məmmədov. Buyurun.

**H.Məmmədov**. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Dünyada çox təzadlı proseslər baş verir. Dünya siyasi turbulentliyə düşdükcə ələnir, çalxalanır və kimin kim olduğu üzə çıxır. Mən elə bu baxımdan hörmətli millət vəkili həmkarım Tural bəyin fikirlərini davam etdirmək istəyirəm. Bu gün Natəvanın heykəlinin Fransada barbarcasına sökülməsi, əslində, kimin kim olduğunu ortaya qoyan faktdır. 44 günlük müharibədə Fransa Azərbaycan əleyhinə bəyanatlar verəndə, Qarabağı Ermənistan kimi tanıyanda heç bir azərbaycanlının ağlına gəlmədi ki, Hüqonun kitablarını yandırsın. Çünki Azərbaycan xalqı mədəni xalqdır. Azərbaycan xalqı bilir ki, Hüqo dəyərlər yaradıbdır və bu dəyərlər ümumbəşəri dəyərlərdir. Amma çox təəssüf ki, Fransada Azərbaycan mədəniyyətinə qarşı, qadınlıq simvoluna qarşı, poeziya simvoluna qarşı, Qarabağın simvoluna qarşı bu cür addımlar atılır. Bu kontekstdə Azərbaycanın yeni dünya nizamı üçün yaratdığı gündəm, çağırışlar bütün digər ölkələrdən fərqlənir.

Azərbaycan Prezidentinin 2024-cü ili “Yaşıl dünya naminə həmrəylik ili” elan etməsi bir daha bu çağırışın əyani göstəricisidir. Mən düşünürəm ki, bu, sadəcə, ekoloji problemlər qarşısında həmrəylik çağırışı deyil, o dövrdə ekosidə məruz qalmış Azərbaycan təbiətinin yenidən bərpa olunması, sağaldılması deyil, bütövlükdə, Azərbaycan xalqının yaralarının sağalmasıdır.

Dekabrın 24-də Azərbaycan Prezidenti və Birinci vitseprezidentimiz Ağdama səfər etdilər, Bərdə–Ağdam yolu-

nun açılışında iştirak etdilər, Baş Qərvənd kəndinin təməlini qoydular, "Xaçıncay" su anbarının bərpa olunmasından sonra açılışında iştirak etdilər və bütün bunlar, əlbəttə ki, Azərbaycanın, xalqımızın yaratdığı mədəni irsin, mənəvi irsin yenidən bərpa olunmasıdır. Bu kontekstdə bu gün Milli Məclisin foyesində təşkil olunmuş Qərbi Azərbaycanda yaradılan mədəni irsimizlə bağlı nümayiş etdirilən fotoşəkillər də, mən düşünürəm ki, birbaşa bu məsələlərlə əlaqədardır.

Hörmətli xanım sədr, biz təşəkkür edirik ki, foyedə belə bir sərgi təşkil olundu. Biz bir daha yaddaşımızı təzələdik ki, əcdadımız dünyanın müxtəlif coğrafiyalarında bizə aid olan vətəndə, sözün əsl mənasında, böyük mədəni irs yarada bilibdir və bu irsin nə qədər möhtəşəm olduğu bugünkü fotoşəkillərdən aydın oldu.

Şübhəsiz ki, bu kontekstdə milli vəzifələrimizdən biri kimi Qərbi Azərbaycana qayıdış məsələsi bir daha aktuallaşır. Bu qayıdış sülh qayıdışıdır. Bu qayıdış etimad qayıdışı olmalıdır. Bu qayıdış beynəlxalq hüquqa əsaslanır və azərbaycanlıların bu gün də nümayiş etdirilən, gördüyümüz o əcdadımızın qoyduğu miras üzərində yenidən yaşamaq hüququnun bərpa olunması və bu mədəniyyəti davam etdirməsi qayıdışı olmalıdır. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Sahib Alıyev. Buyurun.

**S.Alıyev**. Hörmətli xanım sədr, dəyərli həmkarlar. Yəqin, iki gün öncə cənab Prezidentin doğum günündə Ağdam rayonunda etdiyi açılışları və təməlqoymaları izlədiniz. Aparılan quruculuq işləri hələ başlanğıc mərhələsində olsa da, Ağdamın Qərbin öndə gedən dövlətlərindəki əyalət mərkəzlərindən nə gözəllik, nə infrastruktur, nə də funksionallıq baxımından geri qalmayacağı indidən gö-

rünür. Amma qəribədir ki, elə həmin Qərbdə bir çoxları torpaqlarımızın işğaldan qurtarmasını arzulamadıqları kimi, Ermənistanı revanşizmə həvəsləndirməklə Ağdamın da onu "Akna" adlandıranların saldıqları vəziyyətdə, yəni "Qafqazın Xirosiması" olaraq qalmasını istədiklərini gizlətmirlər. Belələrinin ayağında Fransa gəlir. Oradakıların bizə düşmən kəsilməsi bir yana, görün, nə qədər cılızdırlar ki, Evian-le-Ben şəhərindəki Azərbaycan bağının adını ləğv etmələri azmış kimi Xurşidbanu Natəvanın heykəlini hədəfə götürüblər.

Fransa, deyəsən, yenidən öz qaranlıq və sözün hər anlamında, üfunətli keçmişinə dönməklə yanaşı, Xan qızının qəbrini dağıdan hay vandallarıyla eyni dalğada olduğunu, böyük bacılığını bunda da göstərir.

Üfunətli keçmiş deyərkən mənim yadıma XI əsrdə səlibçiliyin təzə baş qaldırdığı dövrdə Fransa kralı birinci Anrinin xanımı Anna Kiyevskayanın atası Yaroslav Mudrıya göndərdiyi məktub düşdü. O məktubda qeyd edilirdi ki, kralın üfunət iyi verən sarayında oxumağa nə bir kitab, nə də musiqi alətlərində ifa edə biləcək adam var. Kral özü isə savadı olmadığından imza əvəzinə, sadəcə, xaç şəkili çəkir.

Düzdür, prezident Makron yazıb-oxumağı bacarır, amma bir sıra hərəkətləri ilə kral Anridən elə də çox fərqlənmədiyini ortaya qoyur. Onun əyləşdiyi Yelisey sarayı isə yenə üfunət iyi verir, oradakı kabinetlərdən ksenofobiya, islamofobiya qoxusu gəlir. Küçələrində siçovullar dolaşan, seqraqasiya prinsipi əsasında kvartallara bölünən Parisdə, bütövlükdə, onun kimi iy-qoxu var.

Yeri gəlmişkən, mən bəzən sosial şəbəkədə gənclərimizin sevgi şəhəri adlandıraraq həmin Parisdən fotolar paylaşdığını görürəm. Ancaq istərdim, bilsinlər ki, Avro-

pada Parisə sevgi şəhəri deyəndə tamam başqa şeylər nəzərdə tutulurdu. Söhbət o Parisdən gedir ki, 1945-ci ildə oradakılar öz qadınlarının başlarını qırxmaqla namuslarını yuduqlarını, Hitler Almaniyasından qisas aldıqlarını deyirdilər. Belə qadınların sayı yüz mini ötürdü.

Əziz gənclər, bilin ki, əsl sevgi şəhəri məhz Şuşadır. Məhz ana adlandırdığımız vətənə böyük sevginin nəticəsi idi ki, ər oğullarımız dünya hərb tarixinə qızıl hərflərlə yazılacaq Şuşa əməliyyatı keçirdilər. Əgər öz xanımlarınıza sevginizin böyüklüyünü göstərmək istəyirsinizsə, onları Parisə deyil, Şuşaya aparın. Natavanın oradakı heykəlinə baş çəkməyi də unutmayın. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Elşad Mirbəşir oğlu. Elşad müəllim, buyurun.

**E.Mirbəşir oğlu**. Təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli həmkarlar, əgər desək ki, hazırkı mərhələdə həlledici məsələlər döyüş meydanında deyil, artıq başqa platformalarda, xüsusilə də informasiya platformasında həll olunur, yeni mövqe bildirmiş olmarıq. Müvafiq olaraq da artıq siyasət və diplomatiya müharibələrin nəticələrini təsbit etmir, əksinə, müharibələr siyasətin və diplomatiyanın nəticələrini təsbit edir.

Bu baxımdan hər bir ölkənin, resursları mövcud olan ölkənin yumşaq güc konsepsiyasının olması çox vacibdir. Müasir mərhələdə Azərbaycan hər zaman təsdiq etdi ki, o, dünya siyasətinə təsir etmək gücündədir. Azərbaycan Prezidenti dünyanın gələcəyini müəyyənləşdirmək imkanına malik olan dünya liderləri ilə bir sırada dayanmaqdadır. Eyni zamanda, nəzərə almaq lazımdır ki, ölkəmizə qarşı davamlı olaraq qərəzli siyasi mövqe formalaşdırmaq cəhdləri də davam etməkdədir və bu, sistemli bir hal almaqdadır.

Azərbaycan dövlətinin dəstəklədiyi dəyərlər ümumbəşəri dəyərlərdir. Yəni dövlətlərin ərazi bütövlüyünə hörmətlə yanaşma, bir-birinin daxili işlərinə müdaxilə etməmə, insan hüquqlarının qorunması və sair. Bu dəyərlər, təbii ki, həm də Azərbaycan xalqının mental göstəricisi rolunda çıxış edə bilər. Ola bilsin, təsəvvürlər ondan ibarətdir ki, kiçik dövlətlərin yumşaq güc siyasəti çox da təsirli olmaz. Amma bir çox təcrübələr mövcuddur ki, ərazicə kiçik olan, amma dünya siyasətinə real təsir etmək gücündə, öz milli maraqlarını qorumaq imkanında olan dövlətlər mövcuddur. Elə bunlardan biri də Azərbaycandır.

Azərbaycan Prezidenti göstərdi ki, o, hətta özünü dünyanın super gücü hesab edən dövlət qarşısında ölkəmizin iradəsini nümayiş etdirə bilər. Bunun özü bir daha əsas verir ki, bizim ölkəmizin də yumşaq güc konsepsiyası olmalıdır. Hesab edirəm ki, bu istiqamətdə ayrıca bir strukturun yaradılması məqbul olardı. Çünki yumşaq gücün magistrallarının müəyyənləşdirilməsi və bu magistrallar üzrə fəaliyyət proqramının formalaşdırılması, prioritetlərin müəyyənləşdirilməsi çox vacibdir. Azərbaycan digər dünya ölkələri kimi çox vacib tarixi mərhələyə qədəm qoymaqdadır və burada da biz, sözün əsl mənasında, mental mübarizə, hətta deyərdim ki, müharibə aparmalı olacağıq. Bu baxımdan, hesab edirəm ki, ölkəmizin milli təhlükəsizlik konsepsiyasında da yumşaq güc elementləri öz ifadəsini tapmalıdır. Çox sağ olun.

**Sədrlik edən.** Fatma Yıldırım. Buyurun.

**F.Yıldırım**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən 2024-cü ilin Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi, düşünürəm ki, mühüm və tarixi bir qərardır. Bu, ölkəmizdə həyata ke-

çirilən uzunmüddətli və məqsədyönlü siyasətin məntiqi nəticəsidir. Dövlət başçısının sərəncamında qeyd olunduğu kimi, Azərbaycan beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə daim öz töhfələrini verir.

Hörmətli həmkarlar, bilirsiniz ki, Prezident İlham Əliyevin məqsədyönlü siyasəti nəticəsində Azərbaycan yüksək sosial-iqtisadi inkişafa və möhkəm ictimai-siyasi sabitliyə nail olub. Vətən müharibəsində qazandığımız şanlı Zəfər ölkəmizi dünyada daha güclü dövlət kimi tanıdıb. Eyni zamanda, dövlət başçısının uğurlu xarici siyasəti nəticəsində ölkəmizin beynəlxalq səviyyədə nüfuzu günbəgün artmaqdadır. Respublikamızın dünyanın ən böyük və mühüm dövlətlərarası tədbirlərindən biri olan COP29-a 2024-cü ildə ev sahibliyi etmək üçün seçilməsi Azərbaycan Prezidentinin növbəti qələbəsi oldu. Dövlətimizin başçısı bu təşəbbüsü ilə Azərbaycanın qüdrətini bir daha dünyaya göstərdi və beynəlxalq aləmdə böyük etimad qazandığını nümayiş etdirdi.

Növbəti il ölkəmiz qlobal problemlərdən biri olan iqlim dəyişmələrinə qarşı səyləri səfərbər etməklə və bu mübarizəyə töhfə verməklə dünyanın xüsusi diqqət mərkəzində olacaq. 2024-cü ilin Azərbaycanda “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi də bu baxımdan müstəsna əhəmiyyət kəsb edir.

Ölkəmizdə yaşıl enerjinin istehsalı sahəsində böyük imkanlar və resurslar var. Bu istiqamətdə xarici şirkətlərlə önəmli müqavilələr bağlanılıb. Bu müqavilələr gələcək hədəflərə hesablanıb. Belə ki, qonşu ölkələrin və Avropa dövlətlərinin yaşıl enerji ilə təmin olunması üçün böyük layihələr işlənilir. İşğaldan azad olunmuş ərazilərimiz Prezident İlham Əliyev tərəfindən “Yaşıl enerji” zonası

elan edilib və bütün infrastruktur layihələri yaşıl enerji meyarı əsasında qurulur ki, sonra bütün ölkə ərazisinə şamil ediləcək. Hesab edirəm ki, COP29 ölkəmizdə yüksək səviyyədə keçiriləcək və "yaşıl enerji" siyasətimiz dünya ictimaiyyətinə təqdimatı baxımından da çox önəmli beynəlxalq platforma olacaq. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Emin Hacıyev. Buyurun.

**E.Hacıyev.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar və media nümayəndələri. Bu gün biz tarixi Zəfərimizin bizə bəxş etdiyi reallıqlarla yaşayırıq. Yeni Azərbaycan Partiyasının genişləndirilmiş iclasında cənab İlham Əliyevin prezidentliyə namizədliyinin irəli sürülməsi Azərbaycan xalqının arzu və istəyinin təcəssümü idi.

Cənab Prezidentin 20 illik fəaliyyət dövrü tariximizin səhifələrinə qızıl hərflərlə həkk olunmuşdur. Vətən müharibəsində əldə etdiyimiz şanlı qələbə və sentyabr ayında keçirilən uğurlu antiterror tədbirləri məhz Ali Baş Komandan cənab İlham Əliyevin titanik əməyinin və dəmir iradəsinin nəticəsi idi.

Bu gün işğaldan azad edilmiş ərazilərimizdə bərpa-quruculuq işləri həyata keçirilir, şəhər və rayonlarımız abadlaşdırılır, vətəndaşlarımızın doğma yurdlarına qayıdışı təmin olunur. Dövlətimizin başçısının bu günlərdə Ağdam rayonuna səfəri zamanı bir sıra vacib təməlqoyma və açılış mərasimləri baş tutmuşdur. Tarix, mədəniyyət abidələrimizin bərpası, yaşayış komplekslərinin və kəndlərin təməlinin qoyulması dövlətimizin qüdrətinin göstəricisidir.

Cənab Prezidentin göstərişi ilə həyata keçirilən yenidənqurma işləri sayəsində işğaldan azad edilmiş ərazilərimiz tez bir zamanda regionumuzun ən inkişaf etmiş böl-

gələrindən birinə çevriləcəkdir. Dövlətimizin başçısının irəli sürdüyü Qərbi Azərbaycana qayıdış konsepsiyası hüquqları pozulan və öz yurdlarından deportasiya olunmuş soydaşlarımızın doğma torpaqlarına dinc və layiqli qayıdışını təmin edəcəkdir. Prezident cənab İlham Əliyevin ötən 20 ildə hər bir vədini reallığa çevirməsi, qətiyyətli və prinsipial mövqeyi haqq, ədalət uğrunda aparılan mübarizənin yeni səhifəsi olan Qərbi Azərbaycana qayıdışımızın heç də uzaqda olmadığının göstəricisidir.

Bu gün Azərbaycan dünyada nüfuzlu dövlətlərdən birinə çevrilmişdir. Ölkəmiz digər ölkələr tərəfindən müxtəlif sahələrdə beynəlxalq əhəmiyyətli mötəbər tədbirlərin yüksək səviyyədə təşkili və keçirilməsi üçün ideal məkan kimi qəbul edilir. Kifayət qədər aktual tədbir olan COP29-un 2024-cü ildə Azərbaycanda keçirilməsi xarici siyasətimizin uğuru və növbəti parlaq qələbəsidir. İqtisadi, siyasi, hərbi, sosial və bütün digər sahələrdə əldə etdiyimiz böyük uğurlar hər bir azərbaycanlının qürur mənbəyidir.

Dekabr ayının 21-də Xankəndi şəhərində xalqımız növbəti tarixi ana şahid oldu. Qədim torpağımızda keçirilən futbol matçı hər birimiz üçün bayram və növbəti uğurdur. Cənab Prezidentin qeyd etdiyi kimi, "qalib Azərbaycan xalqı və Azərbaycan dövlətidir".

İlk dəfə ölkəmizin bütün ərazilərində keçiriləcək növbədənkənar Prezident seçkilərində, əminəm ki, xalqımız hər zaman olduğu kimi, dövlətimizin başçısının ətrafında sıx birləşəcək və cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz yeni, ən qüdrətli dövrünə qədəm qoyacaqdır. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Zahid Oruc. Buyurun.

**Z.Oruc**. Hörmətli sədr, Serbiyada parlament seçkilərindən sonra müxalif qüvvələrin etiraz aksiyaları keçmiş sosialist ölkələrində Qərbin müstəqil, milli və suveren dövlətlərə qarşı "maydan" inqilablarının davamıdır. Prezident Vuçiç haqlı olaraq şəhər meriyasına zorakı hücumu xaricdən idarə olunan, Brüsseldən təyin edilən, Rusiya əleyhinə sanskiyalara və NATO-ya qoşulan hökumət qurmaq planının tərkib hissəsi adlandırıb. Özünü müstəqil sayan, lakin tərəfsizlik prinsipini hər addımda pozan CNN televiziyası müxalifətin əsas tribunasına çevrilib. Amerika və Almaniyanın qeyri-hökumət təşkilatları və siyasi institutları etirazçıları, xüsusilə tələbə-gəncləri fasiləsiz aksiyalara, toqquşma və dövlət çevrilişinə səsləyir. Bir vaxtlar Slobodan Miloşeviçi Haaqa tribunalında mühakimə edənlər Serbiyaya elə bir rəhbər seçmək istəyir ki, xalq Kosovonun müstəqilliyi ilə birdəfəlik barışsın. Bizə tanış mənzərədir, deyilmi?

Siyasi hakimiyyətə dinc yolla gəlməyi 200 ildir təbliğ edən Amerikada 2020-ci ilin Prezident seçkilərinin nəticələrinə etiraz edənlərin 2021-ci il yanvarın 6-da Kapitoliyə hücumunu "dövlət çevrilişinə cəhd", iştirakçıları "daxili terrorçular" adlandıran Federal Məhkəmə Kapitoli üsyanında 60 nəfəri istintaqa çəkdi. Bir çox aksiyaçıya ən yüksək – 7 il həbs cəzası çıxarıldı. Beynəlxalq hesabatlarda ölkələri avtoritar, qeyri-azad və ya demokratiya adası sayanlar Vaşinqtondakı azadlıq mübarizəsinə hər cür ləkə atdılar.

Kapitoli qiyamından sonra demokratiya etalonu olan ölkənin sabiq prezidentinin bütün sosial şəbəkə hesabları donduruldu. İndi isə Kolorado Ali Məhkəməsi hüququ deyil, siyasəti əsas götürərək ştat ərazisində Donald Trampın seçkilərdə iştirakını qadağan edib. Təsəvvürünüzə gətirin ki, Respublikaçılar partiyasının əsas namizədinə qarşı

qanunsuz tədbirlər bizim ölkəmizdə müxalif təmsilçilərə qarşı törədilsəydi, əksər Avropa mediası və parlamentariləri ölkəmizin mühakiməsinə necə qalxardılar. Lakin Tramp Azərbaycan müxalifətinin lideri olmadığı üçün onun hüquqlarının qorunmasına “Human Rights Watch” və digər təşkilatlar qoşulmur.

Narıncı və məxməri inqilablar Qərbin demokratiyanı silaha və işğal alətinə çevirməsinin qan rəngli nümunələridir. 14-18 mayda Türkiyə dövləti Ərdoğanın liderliyi ilə qlobal ssenariləri pozduğu üçün xarici diktə və çevrilişlər dövrünü arxada qoyduqlarını dünyaya nümayiş etdirdi.

Azərbaycan xalqı 44 müqəddəs gündə təkcə işğala son qoymağa deyil, həm də dövlətimizin siyasi gələcəyini müstəqil müyyənləşdirməyə nail oldu. Ölkəmizə qarşı xarici təzyiq və müdaxilələrin əsas hədəfi demokratiya deyil, separatizm və təcavüzün cəngində torpaqlarımızı, sərvətlərimizi ələ keçirməkdir. Ona görə də seçkiləri geosiyasi mübarizə arenasına çevirən Qərb Gürcüstan və Ukraynanı hərbi toqquşma meydanına çevirdi. Keçmiş Yuqoslaviyanın varisi olan Serbiyadan Kosovonu ələ keçirdikləri kimi Qarabağı Azərbaycandan qopara bilməmələri onların ən böyük siyasi məğlubiyyətidir. Vətən müharibəsi məxməri inqilablara da qalib gəldi. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Bəhruz Məhərrəmnov. Buyurun.

**B.Məhərrəmov.** Təşəkkür edirəm. Hörmətli sədr, əziz həmkarlar. Prezident İlham Əliyevin 2024-cü ili “Yaşıl dünya naminə həmrəylik ili” elan etməsi Azərbaycanın beynəlxalq hüquqa sədaqətinin və ölkəmizdə həyata keçirilən məqsədyönlü siyasətin ifadəsidir. Əslində, Azərbaycanın ekoloji məsələlərdən danışmağa hər kəsdən çox haqqı var. Çünki ilk növbədə “Təmiz ətraf mühit və yaşıl

artım ölkəsi" olmaq bizim milli prioritetimizdir.

Digər tərəfdən, 30 il ekosidə məruz qalan, Livan ölçüdə bir ərazidə işğala son qoyaraq böyük ekoloji fəlakətin qarşısının alınması elə BMT-nin Çərçivə Konvensiyasının, Kioto Protokolunun və Paris Razılaşmasının qlobal miqyasda təntənəsi deməkdir. Təsadüfi deyil ki, məhz bu inkaredilməz amillər qarşısında hətta bizə qeyri-dost olan subyektlər belə əks-arqument tapmadı və dünya birliyi böyük hörmət və etimad göstərib COP29-un Azərbaycanda keçirilməsi barədə yekdil qərar verdi.

Görünən odur ki, cənab İlham Əliyev COVID-19-la mübarizədə olduğu kimi, iqlim dəyişikliyi üzrə qlobal səylərin birləşməsində də təşəbbüsləri ələ almaqda və ölkəmizi bu istiqamətdə əsas oyunçulardan birinə çevirməkdədir. Baxın, 30 il əvvələ qədər öz suverenliyini qorumaqda aciz olan bir subyektdən qüdrətli dövlətə, çörək növbəsində duran ac-yalavac toplumdan iqlim dəyişikliyini müzakirə edən cəmiyyətə çevrilmişik.

Bilirsiniz ki, Azərbaycanın çoxəsrlik dövlətçilik tarixi fonunda son 200 ildə məqsədli formada feodal təfəkkürlü və xurafatçı bir "tatar" obrazı meydana çıxarılmışdı. Bu obrazı nə Axundovun timsalında ziyalılar dəyişə bilmədi, nə cümhuriyyətçilər, nə də Heydər Əliyevə qədərki kommunist rəhbərlər. Yalnız Ulu Öndər Azərbaycanda müasir dövlətçilik ənənələrini formalaşdıra bildi.

Cənab İlham Əliyevin sayəsində isə bu gün biz qalib qlobal oyunçuyuq. 3 il əvvələ qədər qələbə barədə ən yaxşı halda düşünə və arzu edə bilərdik. Amma son aylara qədər bizim üçün xəyal olan Xankəndidə, indi şəhid övladlarının başı üzərində müzəffər Ali Baş Komandanın ucaltdığı Azərbaycan bayrağı dalğalanır. Uşaq pulu ritorikası altında gizlənənlərin hakimiyyəti dövründən fərqli olaraq

Əliyev siyasi kursu sayəsində artıq gülədən, qəlpədən uşaqlar ölmür. Xocalıda qadını əsir düşdüyü halda, kişilərin siyasi səhnədə özünə "bəy" dedirtdiyi saxta bəylik dövrlərindən fərqli olaraq İlham Əliyevin rəhbərliyi altında Zəfəri ilə özünə bəy deməyə haqqı çatan nəsillər yetişib.

Bu gün Qərb neoimperializmi Azərbaycan lideri qarşısında aciz qalıb. Qafqazı digər bölgələr kimi qütblərin qarşıdurma bataqlığına çevirə bilmir. Ən azı elə buna görə bu bölgənin digər hər bir sakini, hər bir gürcü, hər bir erməni və Qafqazın hər bir etnosu cənab İlham Əliyevə minnətdar olmalıdır. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Nizami Səfərov. Buyurun.

**N.Səfərov**. Hörmətli xanım sədr, hörmətli deputatlar, Avropa İnsan Hüquqları Məhkəməsi növbəti dəfə hüquqi riyakarlıq nümayiş etdirərək Narayan və başqaları Azərbaycana qarşı işi üzrə cari il dekabrın 16-da qərar çıxararaq "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın 2-ci maddəsi ilə nəzərdə tutulmuş yaşamaq hüququnun "pozuntusunu" müəyyən etmişdir. Təsəvvür edin ki, dövlət sərhədində ermənilərin kəşfiyyat qrupunun təxribatının qarşısını alan zaman pusquya düşüb şəhid olan Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanovun yaşamaq hüququ deyil, təxribat törədənlərin hüquqları qorunur.

30 ilə yaxın bir müddətdə, bütövlükdə, Cənubi Qafqaz regionu üçün ciddi təhdid yaradan silahlı münaqişə tarixə qovuşsa da, çox təəssüf ki, beynəlxalq təsisatlar səviyyəsində başqa üsullar və vasitələrlə Azərbaycana qarşı müharibə davam edir. Belə olan vəziyyətdə ən məntiqli hüquqi addımlardan biri dövlətimizə qarşı açıq düşmənçilik mövqeyi sərgiləyən qurumların qərarlarına münasibətin fundamental şəkildə dəyişməsi olmalıdır. Nəzərə

almaq lazımdır ki, müasir şəraitdə geniş miqyasda Avropa dövlətləri tərəfindən tətbiq edilən əks məhdudiyyətlər və ya kontr-limit doktrinasına görə, konstitusiyaların bünövrəsini təşkil edən prinsiplərə uyğun gəlməyən beynəlxalq məhkəmə orqanlarının qərarları icra edilmir və bu problemlərdən qaynaqlanan hüquqi münaqişələr milli qanunvericiliyin üstünlüyünü təsdiq edir.

Azərbaycan Respublikası Konstitusiyasının əsasında olan prinsiplər, fundamental insan hüquqlarının qorunması prinsipi də daxil olmaqla, milli hüquq sistemi çərçivəsində beynəlxalq hüquq normalarının həyata keçirilməsində normativ süzgəc rolunu oynayır. Referendum yolu ilə qəbul edilmiş prinsiplərə zidd olan heç bir hüquq norması, hər hansı beynəlxalq məhkəmə orqanının qərarları tərəfimizdən icra edilə bilməz. Belə bir yanaşma beynəlxalq miqyasda geniş vüsət almış və son dövrdə Almaniya, İtaliya, Macarıstan və başqa Avropa ölkələrinin konstitusiya məhkəmələrinin qeyd etdiyim əks məhdudiyyətlər doktrinası ilə əsaslandırılan qərarlarında öz əksini tapmışdır. Ölkəmizə qarşı müxtəlif istiqamətlərdən hücumların baş verdiyi dönəmdə konstitusiya hüquq sisteminin qorumasının təmin edilməsi üçün hüquqi immunitetlərin gücləndirilməsinə ciddi ehtiyac var.

**Sədrlik edən.** Adətən hamı deyir, ona görə mənim də qulağım “sağ ol” sözünü eşitməyə hazırlanmışdı. Fazil Mustafa. Buyurun.

**F.Mustafa**. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, 1982-ci ildə Sovet imperiyasının ən ciddi tabularını qıraraq uzaq Sibirdən böyük şair, mütəfəkkir Hüseyn Cavidin nəşini uyuduğu sürgün məzarından Naxçıvana gətirən böyük şəxsiyyət Heydər Əliyevin inanılmaz bir presedenti ortaya qoyduğunu tariximiz təsdiq etdi. Bu gün

buna bənzər bir presedentin təkrarlanmasına ehtiyac var. Hüseyn Cavid miqyasında olan Azərbaycanın digər yazar-mütəfəkkiri Yusif Vəzir Çəmənzəminli, bildiyiniz kimi, Şuşada anadan olub. Şuşanı tanımaq üçün onun "Bir cavanın xatirələri" əsərini oxumağı hər kəsə tövsiyə edirəm. O, Azərbaycan Cümhuriyyətinin Türkiyədə ilk səfiri olub. "Studentlər", "Qan içində", "Qızlar bulağı kimi" möhtəşəm romanların müəllifidir və gözəl esseləri var. Bu adam Parisdən qayıdandan sonra 1938–1942-ci illərdə uzun illər təqib olunub. Hətta Özbəkistana getməyə məcbur olub, orada pedaqoji məktəbdə rus dilində dərs deyib. Görün, o, Sovet hökuməti üçün nə qədər əhəmiyyətli antisovet insanı sayılırdı ki, onu Özbəkistandan gətirib Bakıda 6 ay Keşlədə həbsxanada saxladılar. 1940-cı ildə 8 illik sürgün həyatına məhkum etdilər. 1943-cü il yanvarın 8-də o, sürgündə dünyasını dəyişdi. Bu il onun vəfatından 80 il keçir.

Yusif Vəzir Çəmənzəminlinin həyatı ilə tanış olanlar bilirlər ki, o, Azərbaycan tarixinin yetişdirdiyi ən ciddi şəxsiyyətlərdən biri olub. Tarixi mükəmməl bilən, 1915-ci ildə Kiyev Dövlət Universitetinin Hüquq fakültəsini bitirmiş çox yüksək ziyalımız olubdur. O, Nijni Novqorod yaxınlığında Bezvodnaya adlanan yerdə dəfn olunubdur. Bununla bağlı filosof şair Firuz Mustafa dəfələrlə araşdırma aparıb, bütün həbsxana rəislərinə onun taleyi ilə bağlı məktub yazıb. Onun məzarının yeri təqribən bəllidir. Mən nəyi təklif edirəm? Bizim hökumətimiz bu istiqamətdə mütləq ciddi addım atıb, – indi Rusiya ilə münasibətlərimiz normaldır, müstəqil dövlətik, – onun nəşini gətirib Şuşada dəfn etmək... Biz Qarabağa yalnız insanları deyil, həm də bizim tariximizdə rol alan, müstəqilliyimiz uğrunda savaşmış insanların ruhlarını da qaytarmaq

barədə düşünməliyik. Ona görə mən müvafiq qurumların bu məsələ ilə bağlı ciddi maraqlanmasını və Yusif Vəzir Çəmənzəminli kimi böyük bir şəxsiyyətin Azərbaycana ən azı bu formada qaytarılmasını təmin etməyi xahiş edərdim. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Razi Nurullayev.

**R.Nurullayev.** Hörmətli xanım sədr, hörmətli deputatlar, media nümayəndələri. Gələn il Azərbaycan iqlim dəyişikliyi üzrə COP29-a ev sahibliyi edəcək. Dünən 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı da oldu. Bu iki akta söykənərək bir problemi qabartmaq istəyirəm. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təşkil etdiyi ağacəkmə kampaniyalarında, elə xanım sədr, Siz özünüz də, rəhbərlik də, bütün deputatlar da iştirak edib. Doğrudan da, çox gözəl nəticələr var. Min hektarlarla ərazi yaşıllaşdırılıb və bu, ekoloji tarazlığın qorunmasında mühüm addım olub. Amma elə yerlər var ki, baxırsan, yüzlərcə ağac əkilib, amma yanıb, kül olub. Çünki onlar ancaq şəkil və video çəkmək üçün əkilib. Belə deyək ki, şou yaradılıb. Əgər ağac əkilibsə, deməK, onun sonrakı taleyi ilə də bağlı qərar olmalıdır: kim sulayacaq, kim belləyəcək və kim qulluq edəcək. Bu dediyim narahatedici məqamlar ayrı-ayrı idarə və təşkilatlar tərəfindən həyata keçirilən işlərdir və çox güman ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə razılaşdırılmayıb. Onun üçün də yaşıllaşdırma məsələlərində müəyyən nizam-intizamın olması yaxşı olardı.

Gözümüzün qabağında yüzlərcə ağac susuzluqdan yanır və məhv olur. Elə parklar var ki, əvvəllər idarələr, yaxud digər qurumlar tərəfindən salınıb, başqa balanslara keçirilməyib. İndi də qulluq edilmir. Bütün bunların

nəticəsində ağaclar məhv olur. Ağaclar şəhərimizin, ölkəmizin ağciyəridir və daha məsuliyyətli yanaşmalara, hesab edirəm ki, ehtiyac yaranıb. İstərdim ki, bu məsələ ilə bağlı yaxın zamanda ciddi monitorinq aparılsın və bizə də real vəziyyət haqqında məlumat verilsin. Təşəkkür edirəm, xanım sədr.

**Sədrlik edən.** Sağ olun. Sədaqət Vəliyeva. Buyurun.

**S.Vəliyeva.** Çox sağ olun. Hörmətli Sahibə xanım, söz verdiyiniz üçün təşəkkür edirəm. Qeyd etmək istəyirəm ki, Yeni Azərbaycan Partiyasının geniş tərkibli iclasında yekdilliklə Prezident cənab İlham Əliyevin prezidentliyə namizəd irəli sürülməsi hər bir azərbaycanlının ürəyindən xəbər verir. Bir daha Yeni Azərbaycan Partiyası xalqın partiyası olduğunu sübut edir.

Cənab Prezident İlham Əliyevin 20 illik prezidentlik fəaliyyəti dövrü əsrlərə bərabər bir zaman kimi Azərbaycan tarixinə həkk olundu. Ölkəmiz cənab Prezident İlham Əliyevin rəhbərliyi altında sürətli inkişaf edən, dünya miqyaslı böyük nüfuza malik, tam suveren, qalib dövlətə çevrilmişdir. Ən əsası, müzəffər ordumuz Ali Baş Komandanın rəhbərliyi ilə torpaqlarımızı azad etdi. Həmin torpaqlar bu gün cənnətə çevrilməkdədir.

Hakim partiyanın namizədinin cənab İlham Əliyevin olması bir daha əminlik yaradır ki, qarşıda bizi böyük qələbələr gözləyir. Çünki qələbənin əsasını İlham Əliyev siyasəti təşkil edir. Əlbəttə, bizim bir seçimimiz var. İmzalar içərisində imzası olan, 200 il sonra türk dünyasına qələbə sevinci yaşadan, xalqımızın etimadını bütünlüklə doğruldan, verdiyi bütün vədləri tam yerinə yetirən cənab Prezident İlham Əliyevdir. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Elman Nəsirov. Buyurun.

**E.Nəsirov.** Hörmətli xanım sədr, hörmətli həmkarlar. Fransa başda olmaqla, Qərbin bir sıra dövlətləri, eyni zamanda, bir sıra beynəlxalq siyasi dairələr Azərbaycanı demokratiya ilə bağlı məsələlərdə ittiham edərkən üzümü onlara tutub söyləmək istərdim ki, ümumiyyətlə, demokratiya bir prosesdir, orada son nöqtə yoxdur. Azərbaycan demokratik inkişaf yolunu seçmiş dövlətdir. Elə bu kontekstdə də bəzi fikirlərimi paylaşmaq istərdim.

Əvvəla, Qərb üçün demokratiya bütün təbii sərvətlərdən daha vacibdir. Çünki demokratiya onun üçün total nəzarət mexanizmidir. Demokratiyanın kimdə olduğunu, kimdə isə olmadığını həll etmək hüququnu inhisara almış qüvvənin, Qərbin bu reallıq fonunda neftin, qazın, tranzit yollarının, hərbi bazaların və sairənin öz-özünə ayaqları altına səriləcəyinə tükənməz inamı var. Qərbin müstəmləkəçilik və qeyri-müstəmləkəçilik təcrübəsi bu inamın əsasında dayanan amildir. Eyni zamanda, Qərbdə geniş yayılmış və ilk baxışdan kifayət qədər cəlbedici görünən demokratik ölkələr bir-biri ilə müharibə aparmırlar. Pyesin alt qatında gizlənən mənanı diqqətdən qaçırmaq olmaz. Məna belədir: Qərb ölkələri demokratik ölkələrlə müharibə aparmırlar, çünki həmin ölkələri güc tətbiq etmədən nəzarət altına salmaq imkanına, potensialına malikdirlər.

Kimsə belə bir nümunə gətirə bilərmi ki, Qərb dairələri hansısa ölkənin rəhbərliyini öz əhalisini ac-yalavac saxladığına görə qeyri-legitim hesab etsin? NATO-nun eyni səbəbdən hansısa ölkəni bombaladığının şahidi olmusunuzmu? Qərb dövlətlərinin korrupsiyanın tüğyan etdiyi dövlətlərə qarşı sanksiyalar tətbiq etməsi ilə bağlı hər hansı bir informasiyaya rast gəlmisinizmi? Hansısa ölkədə işsizliyin dözülməz həddə çatmasına görə beynəlxalq birliyin ona qarşı müvafiq cəza mexanizmlərini işə sal-

masına dair fakt diqqətinizi cəlb edibmi? Yəqin ki, cavab birdir: Yox. Bu qənaət həqiqəti ifadə edir.

Digər həqiqət isə ondan ibarətdir ki, çağdaş dövrümüzdə dünya hökmranlığına nail olmağın Qərb modeli "könüllü" məcburi demokratikləşmədən və son variant olaraq hərbi güc tətbiqindən keçir. Müharibələr indiki reallıqda Qərb üçün olduqca bahalı məşğuliyyətə çevrildiyindən daha ucuz, məsrəfli demokratiya ixracı siyasəti optimal yol kimi qəbul olunur. Etiraz edəndə isə qoğalı qamçı ilə əvəz edirlər. Bu da Qərbin demokratik xəbərdarlığıdır. Bu fikirləri söyləməkdə məqsədim odur ki, Azərbaycanla heç kim demokratiya pərdəsi altında təzyiq dili ilə danışmasın. Bizim işimiz haqq işidir. Azərbaycanda səfərbər olmuş cəmiyyət var, xalq–hakimiyyət birliyi var, Azərbaycan öz inkişaf yolu ilə getməkdədir. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Sabir Rüstəmxanlı. Buyurun.

**S.Rüstəmxanlı.** Təşəkkür edirəm, xanım sədr. Hörmətli Məclis, dünyanın siyasi burulğanda və iqtisadi böhranda qarışdığı bir vaxtda Azərbaycan son dərəcə uğurlu bir ili başa vurmaqdadır. Əgər bu ilin əsas uğurlarını ən qısa şəkildə sadalasaq, bizim vaxtımız ona çatmaz. Bu günün baş qəhrəmanı, şübhəsiz, Azərbaycan Prezidentidir. Bunu ürəklə deməliyik və etiraf etməliyik.

İnanırıq ki, qarşıdan gələn ildə bu ilin inkişaf sürəti daha da yüksələcək və Azərbaycan uğurlarını davam etdirəcək. Bundan ötrü, məncə, ilk növbədə Azərbaycanın bölgələrinə, kəndlərə diqqət daha da artırılmalıdır. Torpaqların abadlaşdırılması, ənənəvi olan iqtisadiyyat sahələrinin bərpası və inkişafı, kəndlərdə işsizliyin ləğvi və dağ rayonlarında yeni su anbarlarının tikilməsi, meşəçilik proqramları... Çünki bunlar olmasa, bizim ekologiyanı hansı fəlakətlər gözləyir, biz bunu yaxşı bilirik.

Ərazilərimizin bütövlüyünü bərpa edəndən sonra, şübhəsiz, öz tariximizə və mədəniyyətimizə, bizim üçün uydurulmuş bəzi yalançı konsepsiyalara yenidən baxmalıyıq. Buna görə də Azərbaycan bu məsələləri şifahi şəkildə deməklə kifayətlənməli deyil, bununla bağlı ciddi addımlar atılmalıdır, bədii filmlər, bölgəsəl filmlər çəkilməlidir. Elə erməni zülmü ilə bağlı, 200 il davam edən erməni istilası ilə bağlı... Bayaq həmkarım Fazil bəy adını çəkdi: Yusif Vəzir Çəmənzəminli. Bu cür yazıçılarımızın əsərləri əsasında çoxlu filmlər çəkmək olar. Bizim "Difai" hərəkatı indi məşhurdur, əvvəl heç kim bilmirdi. Bu barədə təxminən 12 il əvvəl Mədəniyyət Nazirliyinə bir ssenari verdim, "Difai" hərəkatı ilə bağlı film çəkilsin. Deyəsən, heç orada başa düşmədilər ki, ümumiyyətlə, "Difai" nədir, fədai nədir və belə bir film kimə lazımdır.

Biz Dünya azərbaycanlılarının həmrəyliyi günü ərəfəsindəyik. Ayın 31-də Dünya azərbaycanlılarının həmrəylik bayramı qeyd olunacaq. Dünya azərbaycanlılarının gücündən, imkanlarından yeni dövrdə yeni şəkildə istifadə olunmalıdır. Bizim qələbələrimizin mənası, yaşadığımız bu ilin bütün rəngləri, bütün qürurlu və uğurlu cəhətləri onlara çatdırılmalıdır. Hansı yolla? Bunu araşdırmaq və daha dəqiq müəyyənləşdirmək lazımdır. Onlar Azərbaycanla, təbii ki, qürur duyurlar. Bu hiss artırılmalıdır. Mən üzümü tutub bütün azərbaycanlılara...

**Sədrlik edən.** Sağ olun. Tahir Kərimli. Buyurun.

**T.Kərimli.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar. Mən də qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibəti ilə təbrik edirəm və yeni il münasibəti ilə bütün xalqımıza uğurlar diləyirəm.

Azərbaycan Respublikası Konstitusiyasına görə, Azər-

baycan prezidentli respublika olduğuna görə dövlət bayrağının zəminində azərbaycançılıq ideologiyası ətrafında və dövlət başçısının ətrafında bütün xalqımızı birləşməyə dəvət edirəm.

Mənim ikinci təklifim onunla bağlıdır ki, vaxtı ilə Azərbaycan Respublikasının Prezidenti dekriminalizasiya prosesinə başladı. Bir sıra maddələrin cinayətin tərkibindən çıxarılması, humanistləşdirilməsi haqqında qərarlar verdi və xeyli işlər görüldü. Mənə elə gəlir ki, bunu davam etdirməyə ehtiyac var. Mən prokuror, polis rəisi, təhlükəsizlik xidməti, müstəntiq, vəkil və vətəndaşlarla bu barədə ciddi söhbətlər aparmışam. Misal üçün, Cinayət Məcəlləsinin 234.1-ci maddəsi var. Yəni satış məqsədi olmadan narkotik vasitələrin və psixotrop maddələrin daşınması, istifadə olunması və sair adlı maddə var. Həbsxanalarımızın az qala 60-70 faizi bu şəxslərlə doludur. Halbuki bu, cəmiyyətdə gizli deyil, həddən çoxdur. Onların həbsə alınması heç bir səmərə vermir. Onların 1 ildən 3 ilə kimi həbs edilməsi... Əlbəttə ki, sanksiyalarda alternativ cəzalar da nəzərdə tutulur. Ancaq onları məcburi müalicəyə yönəltmək lazımdır.

Cinayət Məcəlləsinin bu maddəsini ləğv etmək lazımdır. Çünki müstəntiqlərimiz hədsiz yorucu, lazımsız işlə yüklənirlər, yüzlərcə, minlərcə belə işlə məşğul olurlar. Hədsiz vəsaitlər, həbsxanada dövlət vəsaitləri buna sərf olunur. Bu məsələlər aradan qaldırılmalıdır. Çünki ümumiyyətlə, bir sıra dövlətlərdə bu, cinayət deyil. Bu kimi digər maddələr də var. Deyək ki, 128-ci maddədə "qəsdən sağlamlığa yüngül xəsarət yetirmək". Nəyə lazımdır ki, bu, cinayət olsun?

Cinayət Məcəlləsində bu cür maddələr xeyli var. Hesab edirəm, bunları çıxarmaq lazımdır. Bu insanların şəxsiy-

yətini məhkumluqla ağırlaşdırmaq, onları ictimai proseslərdə qüsurlu insana çevirmək yaxşı hal deyil.

Sonda mən bir daha sözümün üstündə durmaq istəyirəm. Mən Qərbin səlib yürüşlərinə daim yüz illərcə başçılıq edən Fransanın qeyri-dost dövlət olmasını əsaslandırmışdım. Bu gün də hesab edirəm ki, bu dövlət bizdən, Azərbaycandan əl çəkən deyil. Bunu rəsmi şəkildə qeyri-dost dövlət elan etmək lazımdır. Bir sıra dövlətlərin təcrübəsində var. Bunun qarşısını alaq, əks-tədbirlər görək. Təşəkkür edirəm.

**Sədrlik edən.** İsa Həbibbəyli. Buyurun.

**İ.Həbibbəyli.** Hörmətli xanım sədr, hörmətli deputat həmkarlarım. Hesab edirəm ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin xüsusi sərəncamı ilə ölkəmizdə böyük uğurla keçirilən "Heydər Əliyev İli" və bu ildə həyata keçirilən çoxsaylı tədbirlər Ulu Öndərin xatirəsinə, fəaliyyətinə, misilsiz xidmətlərinə xalqımızın və dövlətimizin verdiyi yüksək qiymətlə bərabər, həm də "Heydər Əliyev İli"nin tədbirləri vasitəsi ilə ölkəmizdə azərbaycançılıq ideologiyasının, milli dövlətçilik məfkurəsinin, vətənpərvərlik tərbiyəsinin daha da dərinləşməsinə, sözün əsl mənasında, xidmətini göstərmişdir.

"Heydər Əliyev İli"ndə ölkəmizin müxtəlif qurumlarında, o cümlədən Azərbaycan Milli Elmlər Akademiyasında, universitetlərimizdə çap olunan çoxsaylı nəşrlər, ölkədə və beynəlxalq miqyasda həyata keçirilən tədbirlər, konfranslar, görüşlər, təqdimatlar nəticə etibarı ilə geniş mənada Azərbaycan xalqının çoxəsrlik tarixində xüsusi mərhələ olan Heydər Əliyev, İlham Əliyev epoxasının mahiyyətinin və əhəmiyyətinin dünyaya və Azərbaycan cəmiyyətinə çatdırılmasına, xüsusilə yeni nəsillərə aşılanmasına çox böyük töhfə vermişdir.

Hesab edirəm ki, "Heydər Əliyev İli"nə 2023-cü ildə verilən ən böyük töhfə Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam təsdiq olunmasından ibarətdir. Bu, həm də möhtərəm Prezident İlham Əliyevin siyasi iradəsi ilə məhz "Heydər Əliyev İli"ndə Azərbaycan dövlətçiliyinə göstərilən misilsiz xidmətin çox əyani bir sübutudur. Düşünürəm ki, növbədənkənar Prezident seçkiləri haqqında qərarın qəbul edilməsinin "Heydər Əliyev İli"nə təsadüf etməsi "Heydər Əliyev İli"nin strategiyasına tamamilə uyğundur. Bu o deməkdir ki, son 30 ildə, müstəqillik illərində Azərbaycan xalqı və dövləti qarşısında özünün bütün öhdəliklərini layiqincə yüksək səviyyədə yerinə yetirmiş müstəqil Azərbaycan dövləti...

**Sədrlik edən.** Sağ olun. Aqil müəllim, Siz də yazılmısınız. Vaxt var deyə, Sizə söz verirəm. Buyurun.

**A.Abbas.** Təşəkkür edirəm, Sahibə xanım. Mən hamınızla bir sevincimi bölüşmək istəyirəm. Çünki dekabrın 21-də Qarabağ komandası ilə Şuşaya getmişdim. Məni Qurban Qurbanov dəvət etmişdi. Oradan da Xankəndiyə yola düşdük. Ağdam azad olunandan sonra mən bir şəhəri, bir də həyətimizi görəndə iki dəfə ağlamışdım.. Xankəndiyə də televizorda baxıb hirslənirdim. Elə bilirdim ki, Xankəndini ermənilər tikib. Mən Xankəndini başdan-ayağa gəzdim. Gördüm ki, elə bir tikinti yoxdur. Ağdamdan söküb apardıqları ağ daşlardan Kəlkicahan tərəfdə bir neçə ev tikiblər. Yəni belə bir şey tikməyiblər. Amma möhtərəm Prezident 15 minlik Xankəndi stadionunu təmir edib, dünya səviyyəsində bərpa edib, standartlara uyğun bir stadion tikib. Ay yarım müddətində. Fikir verin, necə sürətlə.

Əslində, futbol deyildi, bu, bir bayram idi, gözəl bir

bayram idi. Adamlar sevincdən bir-birini qucaqlayırdı. "Şəhidlər ölməz, Vətən bölünməz!" adətən 44-cü dəqiqədə deyilir. Bütün futbol zamanı hamı deyirdi. Möhtərəm Prezident də dekabrın 21-də Qarabağ, Xankəndi uğrunda şəhid olanların balaları ilə bir yerdə oturub futbol izləyirdi. Şəhid ailələri ilə, veteranlarla, futbolçularla səmimi görüşlər keçdi. Böyük bir bayram idi.

Düzdür, mən hətta Ağdamda qol açıb oynamışdım, amma orada musiqi olmadı deyə, oynaya bilmədim. Adam sevincindən bilmirdi, nə eləsin. 36 ildən sonra məni və Azərbaycan xalqını ilk dəfə Xankəndiyə aparan möhtərəm Prezidentə eşq olsun! Sağ olun.

**Sədrlik edən.** Sağ olun, Aqil müəllim.

Hörmətli həmkarlar, mən hamıya təşəkkür edirəm. Kim yazılmışdı, hamı danışdı. Biz indi gündəliyin məsələlərinə keçirik.

Bilirsiniz ki, bu gün 9 məsələmiz var. Qeyd edim ki, gündəliyin ilk 7 məsələsi üçüncü oxunuşda olan qanun layihələridir. Beləliklə, 1-ci məsələyə keçirik. Bu, Arbitraj haqqında qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün, Nizami Səfərov, buyurun.

**N.Səfərov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Hörmətli xanım sədr, hörmətli deputatlar. Arbitraj haqqında qanun layihəsi mətndə dəyişiklik edilmədən müzakirəyə təqdim edilmişdir. Üçüncü oxunuşda qəbul edilməsinə səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.00 dəq.) |
| --- | --- |
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin növbəti 2 məsələsi möhtərəm cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub. Bu haqda deyilmişdi, onlar bir-birinə bağlıdır. 2-ci məsələ Mülki Prosessual Məcəllədə dəyişiklik edilməsi haqqında, 3-cü məsələ "Mediasiya haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihələridir. Nizami müəllim, sizin komitənizdə baxılıb. Xahiş edirəm, bununla bağlı məlumat verin. Buyurun.

**N.Səfərov.** Hörmətli xanım sədr, hörmətli deputatlar. Gündəliyin 2-ci və 3-cü məsələləri Arbitraj haqqında qanun layihəsi ilə bağlıdır. Müvafiq mətnlərdə hər hansı bir dəyişiklik edilməmişdir. İkinci oxunuş zamanı yalnız Mediasiya haqqında qanun layihəsi ilə bağlı hörmətli deputat Siyavuş Novruzovun sualı olmuşdur. Həm müzakirələr zamanı, həm də işçi qaydasında məsələyə aydınlıq gətirilmişdir. Üçüncü oxunuşda qəbul edilməsinə səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Mən qanun layihələrini bir-bir səsə qoyacağam. İndi isə 2-ci məsələyə – Mülki Prosessual Məcəllədə dəyişiklik edilməsi haqqında qanun layihəsinə, xahiş edirəm, münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.01 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

İndi isə 3-cü məsələyə münasibət bildirin. "Mediasiya haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.02 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu qanun layihəsi də üçüncü oxunuşda qəbul edildi.

4-cü məsələyə keçirik, hörmətli həmkarlar. Bu məsələ "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" və "Hədəfli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikası qanunlarının icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin sədri,

Milli Məclis sədrinin birinci müavini hörmətli Əli Hüseynliyə söz verirəm. Əli müəllim, buyurun.

**Ə.Hüseynli,** *Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri.*

Çox sağ olun, hörmətli xanım sədr. Sizin adını çəkdiyiniz qanunların icrası ilə bağlı bir sıra qanunlara edilən uyğunlaşdırma xarakterli dəyişikliklər və əlavələrdir. Üçüncü oxunuşda səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, xatırladım ki, qanun layihəsinə daha 3 komitə baxıb. Tahir müəllim, birinci sizin komitədə baxılıb. İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində. Xahiş edirəm, məlumat verin.

**T.Mirkişili,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Çox sağ olun, hörmətli xanım sədr. Qanun layihəsi ilə bağlı bizim komitənin rəyi müsbətdir. Səsə qoymağınızı xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Tahir müəllim. İctimai birliklər və dini qurumlar komitəsində də baxılıb. Mən komitənin rəyini bildirmək üçün, Sahib müəllim, Sizə söz verirəm. Sahib Alıyev. Buyurun.

**S.Alıyev,** *Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsi sədrinin müavini.*

Təşəkkür edirəm. Hörmətli xanım sədr, dəyərli həmkarlar. Komitənin bütün üzvləri birinci və ikinci oxunuşlarda olduğu kimi, üçüncü oxunuşda da lehinə səs veriblər. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Üçüncü komitə Gənclər və idman komitəsidir. Komitənin rəyini bildirmək üçün mən Milli Məclis sədrinin müavini hörmətli Adil Əliyevə söz verirəm. Adil müəllim, buyurun.

**A.Əliyev,** *Milli Məclis sədrinin müavini, Gənclər və idman komitəsinin sədri.*

Təşəkkür edirəm. Gənclər və idman komitəsinin rəyi müsbətdir. Səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, xahiş edirəm, qanun layihəsinə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.04 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

5-ci məsələ "Prokurorluq haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün mən sözü komitənin üzvü hörmətli Əminə xanıma verirəm. Əminə Ağazadə. Buyurun.

**Ə.Ağazadə,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Təşəkkür edirəm, hörmətli xanım sədr. Qanun layihəsində "Prokurorluq haqqında" Qanunun 39-cu maddəsində dəyişikliklər edilməsi nəzərdə tutulmuşdur. Hər hansı təklif daxil olmadığından olduğu kimi səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, qanun layihəsi səsə qoyulur. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.05 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

6-cı məsələyə keçirik. Bu məsələ də “Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılıb. Əli müəllim, yenə də xahiş edirəm, məlumat verin.

**Ə.Hüseynli.** Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Cənab Prezidentin təşəbbüsü ilə qanun layihəsinin bir müddəasının qüvvəyə minməsinin təxirə salınması təklif olunur. Bu məsələni üçüncü oxunuşda dəstəkləməyi xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.06 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

7-ci məsələ "Dövlət rüsumu haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Tahir müəllim, özünüz bildirəcəksiniz?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Buyurun, rəyi bildirin.

**T.Mirkişili.** Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Bildiyiniz kimi, qanun layihəsi elektron məhkəmə informasiya sistemi vasitəsi ilə ilk məhkəmə iddiası zamanı dövlət rüsumunun azaldılmasını özündə ehtiva edir. İkinci oxunuşdan sonra mətn dəyişilməmişdir. Komitə qanun layihəsinin üçüncü oxunuşda qəbul edilməsini məqbul sayır.

**Sədrlik edən.** Çox sağ olun, Tahir müəllim. Hörmətli həmkarlar, qanun layihəsini səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.07 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

8-ci məsələyə keçirik. Bu məsələ "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Onu da deyim ki, qanun layihəsi bir oxunuşda qəbul ediləcək.

Bu layihəyə də İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Tahir müəllim, özünüz məlumat verəcəksiniz. Buyurun.

**T.Mirkişili.** Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli həmkarlar, bildiyiniz kimi, qanun layihəsi möhtərəm cənab Prezidentin təşəbbüsü ilə 2015-ci ildə qəbul olunmuşdur. Qanun layihəsi onun tətbiq dairəsinin müəyyən istisnaları nəzərə almaqla, sahibkarlıq sahəsində bütün yoxlamaların dayandırılmasını özündə ehtiva edir. Bu qanun layihəsinin qüvvədə olma müddəti 2024-cü il yanvarın 1-də başa çatır. İndiki qanun layihəsi bu müddətin daha 1 il uzadılmasını özündə ehtiva edir. Komitə bunu məqbul sayır. Həmkarlardan birinci oxunuşda dəstəkləmələrini xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Çıxış etmək istəyən, görürəm, yoxdur. Ona görə qanun layihəsini səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.08 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi qəbul edildi.

9-cu məsələ Azərbaycan Respublikasının Milli Məclisində təmsil olunan Qərbi Azərbaycan İcması nümayəndələrinin Bəyanatıdır. Hörmətli həmkarlar, bildiyiniz kimi, Milli Məclisin 23 deputatı Qərbi Azərbaycan İcmasının nümayəndələridir. Onlar bəyanat hazırlamışdır. Bu

bəyanatı Milli Məclisdə səsləndirmək xahişi ilə parlamentin sədri kimi mənə müraciət etmişlər. Bəyanatı səsləndirmək üçün mən Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri, həmkarımız hörmətli Əziz Ələkbərova söz verirəm. Əziz müəllim, buyurun.

**Ə.Ələkbərov,** *Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri.*

Təşəkkür edirəm. Hörmətli xanım sədr, öncə icazə verin, bu gün Milli Məclisdə Qərbi Azərbaycana dair təşkil olunmuş sərginin keçirilməsinə yaratdığınız şəraitə görə Sizə, Milli Məclis Aparatının əməkdaşlarına, sərgidə fəal iştirak etdiyinə görə hörmətli millət vəkillərimizə və dəyərli media nümayəndələrinə həm öz adımdan, həm də bütün icmamız adından dərin təşəkkürümüzü bildirim.

Hörmətli xanım sədr, Sizin xüsusi diqqətiniz sayəsində son 1 il ərzində Milli Məclis Qərbi Azərbaycan İcmasının qayıdış konsepsiyasının geniş ictimaiyyətə çatdırılması istiqamətində böyük işlər görmüşdür. Təkcə onu xatırlatmaq kifayətdir ki, bu məsələ ilə bağlı Milli Məclisin müxtəlif komitələri tərəfindən 5 dəfə ictimai dinləmə keçirilmişdir. Buna görə Sizə minnətdarıq və ümid edirik ki, belə dinləmələr gələn il də davam etdiriləcəkdir.

Bundan əlavə, Milli Məclisin parlamentlərarası dostluq qruplarının dəvəti ilə Azərbaycana səfər etmiş müxtəlif ölkələrin parlament üzvlərinin Qərbi Azərbaycan İcmasının rəhbərliyi ilə görüşlərinin təşkili də Qərbi Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında çox böyük rol oynamışdır. Bu məsələni daim diqqətdə saxladığınız üçün də Sizə dərin təşəkkürümü bildirirəm.

Nəhayət, Milli Məclisdə təmsil olunan Qərbi Azərbaycan İcması nümayəndələrinin Qərbi azərbaycanlıların indiki Ermənistan ərazisindəki ata-baba yurdlarına qayıt-

ması hüququnun tanınması ilə bağlı bəyanatının səsləndirilməsinə yaratdığınız imkana görə təşəkkür edirəm. İcazənizlə, həmin bəyanatı diqqətinizə çatdırıram.

Azərbaycan Respublikasının Milli Məclisində təmsil olunan Qərbi Azərbaycan İcması nümayəndələrinin Bəyanatı.

Azərbaycanlılar indiki Ermənistan Respublikası ərazisində əsrlər boyu yaşamışlar. Tarixi sənədlər və xəritələr orada yaşayan əhalinin əksəriyyətinin azərbaycanlılardan ibarət olduğunu, həmin coğrafiyada formalaşmış toponimlərin mütləq çoxluğunun xalqımıza mənsub olduğunu sübut edir.

Təəssüf ki, 200 ilə yaxın dövrdə, xüsusən 1905–1906, 1918–1921, 1948–1953 və 1987–1991-ci illərdə mərhələ-mərhələ həyata keçirilən etnik təmizləmə nəticəsində Ermənistanda bir nəfər də azərbaycanlı qalmamışdır. Ermənistan ərazisinin azərbaycanlılardan təmizlənməsi başa çatdırıldıqdan sonra 1988–1993-cü illərdə Azərbaycan Respublikasının beynəlxalq miqyasda tanınan ərazisinin 20 faizi işğal edilmişdir.

30 ilə yaxın dövrdə beynəlxalq birliyin vasitəçiliyi ilə aparılan sülh danışıqları beynəlxalq hüquq normalarına və prinsiplərinə uyğun olaraq, Azərbaycanın ərazi bütövlüyünün bərpasını təmin etməmişdir. 2020-ci ilin payızında 44 günlük Vətən müharibəsində Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimizin əldə etdiyi Zəfər nəticəsində dövlətimizin ərazi bütövlüyü və tarixi ədalət bərpa olunmuşdur.

İşğalın ağır nəticələrinə baxmayaraq, məhz Azərbaycan Respublikası Cənubi Qafqaz bölgəsində uzunmüddətli sülh və sabitliyin bərqərar olması, beynəlxalq hüququn beş prinsipi, o cümlədən dövlətlərin ərazi bütövlüyünün və

suverenliyinin tanınması əsasında Ermənistanla münasibətlərin normallaşdırılması təşəbbüsü ilə çıxış etmişdir. Təəssüf ki, Ermənistanın son 3 il ərzində törətdiyi hərbi-siyasi təxribatlar sülh danışıqlarına mane olmuş və bu ilin sentyabr ayında lokal xarakterli antiterror tədbirlərini qaçılmaz etmişdir.

Azərbaycan Respublikasının suverenliyi onun bütün ərazisində bərqərar edildikdən sonra Ermənistanla sülh sazişinin bağlanması üçün artıq heç bir maneə qalmamışdır. Bu il dekabrın 7-də Azərbaycan Respublikası Prezidenti Administrasiyasının və Ermənistan Respublikası Baş naziri Aparatının qəbul etdikləri Birgə Bəyanat iki dövlət arasında etimad yaradılması yolunda mühüm irəliləyiş olmuşdur.

Azərbaycan Respublikasının Milli Məclisində təmsil olunan Qərbi Azərbaycan İcmasının nümayəndələri Azərbaycan Respublikası Prezidentinin regionda möhkəm sülh və sabitlik yaradılması və əməkdaşlıq əlaqələrinin qurulması istiqamətində təşəbbüs və səylərini qətiyyətlə dəstəkləyirlər. İcma nümayəndələri hesab edirlər ki, Qərbi azərbaycanlıların indiki Ermənistan ərazisindəki ata-baba yurdlarına qayıtması hüququnun tanınması Azərbaycanla Ermənistan arasında etimad quruculuğunun mühüm vasitələrindən biridir. Bu, iki dövlət arasında real barışığın əldə edilməsinə və regionda birgə yaşayış mühitinin yaradılmasına yönələn önəmli addım olacaqdır.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, xahiş edirəm, məsələnin nəzərə alınmasına münasibət bildirək. Qeyd edim ki, qərar protokol qaydasında qəbul olunacaq. Buyurun.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.15 dəq.) |
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Hörmətli həmkarlar, bununla da iclasımız başa çatdı. Hamıya təşəkkür edirəm. Növbəti iclasımız ayın 30-da olacaq. Sağ olun.

## ALTINCI ÇAĞIRIŞ
## AZƏRBAYCAN RESPUBLİKASI
## MİLLİ MƏCLİSİNİN
## XIV SESSİYASI İCLASININ

## PROTOKOLU № 157

*Milli Məclisin iclas salonu.*
*30 dekabr 2023-cü il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 108 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
| İştirak edir | 102 |
| Yetərsay | 83 |

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. "Avropa Şurasının "Terrorçuluğun qarşısının alınması haqqında" Konvensiyasına Əlavə Protokol"un təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası qanununun layihəsi.

2. "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.

3. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Azərbaycan Respublikası Silahlı Qüvvələri Daxili xidmət nizamnaməsinin təsdiq edilməsi haqqında" və "İnformasiya, informasiyalaşdırma və informasiyanın mü-

hafizəsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

4. Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

5. "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

6. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Vəkillər və vəkillik fəaliyyəti haqqında" və "Təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

7. Dünya azərbaycanlılarının həmrəyliyi günü münasibəti ilə Azərbaycan Respublikası Milli Məclisinin Müraciətinin təsdiq edilməsi haqqında.

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Etibar Əliyev, Elman Nəsirov, Bəhruz Məhərrəmov, Musa Qasımlı, Sahib Alıyev, Fazil Mustafa, Sədaqət Vəliyeva, Jalə Əhmədova, Pərvin Kərimzadə, Razi Nurullayev

**Təklif:** Gündəlik qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.01 dəq.) |
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

**1. "Avropa Şurasının "Terrorçuluğun qarşısının alınması haqqında" Konvensiyasına Əlavə Protokol"un təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Ziyafət Əsgərov, Səməd Seyidov, Fəzail Ağamalı, Siyavuş Novruzov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.48 dəq.) |
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

**2. "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Sadiq Qurbanov, Vüqar Bayramov, Sabir Rüstəmxanlı

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.59 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 106 |

Nəticə: Qəbul edildi

**3. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, “Azərbaycan Respublikası Silahlı Qüvvələri Daxili xidmət nizamnaməsinin təsdiq edilməsi haqqında” və “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Kamal Cəfərov, Ziyafət Əsgərov, Bəhruz Məhərrəmov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.00 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |

Nəticə: Qəbul edildi

**4. Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Hərbi xidmətkeçmə haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Ziyafət Əsgərov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.01 dəq.) |
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 103 |

Nəticə: Qəbul edildi

**5. "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Hicran Hüseynova, Bəhruz Məhərrəmov, Nigar Arpadarai

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.25 dəq.) |
| Lehinə | 83 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 83 |

Nəticə: Qəbul edildi

**6. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Vəkillər və vəkillik fəaliyyəti haqqında" və "Təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli, Bəxtiyar Əliyev, Fazil Mustafa

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.26 dəq.) |
|---|---|
| Lehinə | 84 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 85 |

Nəticə: Qəbul edildi

**7. Dünya azərbaycanlılarının həmrəyliyi günü münasibəti ilə Azərbaycan Respublikası Milli Məclisinin Müraciətinin təsdiq edilməsi haqqında.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Nurlan Həsənov

**Təklif:** Qərar qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.31 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*30 dekabr 2023-cü il. Saat 11.*

*Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik edir*

**Sədrlik edən.** Hörmətli deputatlar, hörmətli media nümayəndələri, hamınızı xoş gördük.

Hörmətli həmkarlar, xahiş edirəm, qeydiyyatdan keçək. Buyurun.

| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
|---|---|
| İştirak edir | 102 |
| Yetərsay | 83 |

Çox sağ olun, yetərsay var.

İndi isə xahiş edirəm, gündəliyə də münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.01 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

İştirak edir 105
Nəticə: Qəbul edildi

Gündəlik qəbul edildi.

Hörmətli həmkarlar, kim çıxış eləmək istəyir, 30 dəqiqəmiz var. Buyurun, yazılın. Bu gün 30 dəqiqəlikdə Razi müəllimin çıxışı axırıncı çıxış olacaq. İndi isə Etibar Əliyev. Buyurun.

**E.Əliyev.** Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. XX əsr Fransanın böyük yazıçısı və mütəfəkkiri Pol Valeri 1927-ci ildə “Fransanın obrazı” essesində yazır: “Fransız xalqı qədər ziddiyyətli və əsəbi xalq yoxdur. Fransa yeganə ölkədir ki, ironiya öz tarixi rolunu qədərincə oynayıb. İroniya bir neçə rejimin süqutuna gətirib çıxarıb”.

“İroniya” yunan sözüdür. Mənası yalan və hiylədir. Makronun ironiyası da başına bəla olub. Adətən, hansısa siyasi xadimin bioqrafiyası ilə maraqlananda deyirlər ki, onun müəllimi kim olub? Emmanuel Makron XX əsrin nəhəng filosoflarından biri, Sarbonna Universitetinin professoru Pol Rikörün 1999–2001-ci illərdə köməkçisi olmuşdur. Makron, sözün əsl mənasında, böyük filosofdan yaxşı heç nə öyrənməyib. Pol Rikör müsahibələrinin birində deyir: “Filosoflar siyasətin dilini təkmilləşdirməlidirlər və insanların bir-birilərini aydın başa düşmələrinə kömək etməlidirlər”. Siyasətçilər həqiqətin carçısı olmalıdırlar. Makron isə şərin carçısına çevrilib.

Nikola Sarkozinin etirafı da çox yaxşıdır. Görünür ki, Russonu oxumuşdur. O, müəllifi olduğu “Mənim nöqteyinəzərim” kitabında yazır: “Fransa dəyişib, Fransa özünüdərk böhranını yaşayır. Sosial model özünü iflasa uğratdı. Bizim daxili birliyimiz artıq laxlayır. Mən dəyişmişəm,

məni həyat dəyişib. 50 yaşım tamam olub, mənim həyata baxışım 30-40 yaşlarımda olduğum dövrdən tam fərqlidir. Mən sakit və müdrik olmuşam. Mən perspektivləri görməyə başlamışam. Artıq qələbə çalmağa cəhd etmirəm, inandırmağa cəhd edirəm. Məni də dəyişdirən hakimiyyət oldu".

Makron da dəyişib. Amma yaxşılığa doğru yox. Onun 50 yaşının tamam olmasına da 4 il qalıb.

Fransanın böyük dövlət adamlarından biri, üç dəfə baş nazir olan, üç dəfə parlamentin sədri seçilən, Beynəlxalq Sülh Mükafatına layiq görülən Eduard Erio 1933-cü ildə Ankaraya səfərindən sonra Fransa mətbuatına belə bir açıqlama vermişdir: "Çəkinmədən deyə bilərəm ki, Mustafa Kamalın köməkçisi olmaq istəyərdim. Hər axşam onun süfrəsində oturmaq, fikir və düşüncələrindən qidalanmaq üçün katib olmaq istəyərdim. Mustafa Kamalın süfrəsində yenidən universitet bitirərdim".

Öyrənmək istəməyən Makronu isə dəyərli Rəcəb Tayyib Ərdoğan  belə tənbeh etmişdir: "Makron, sən get hələ "sarı jiletlilər" məsələsini həll elə, hazırda bütün "sarı jiletlilər" küçələrdədir. Sən hələ bunu həll elə, mənim ölkəmdə indi elə bir problem yoxdur. Biz əmin-amanlıq içərisindəyik, rahatıq".

Amma onlar bizim də sakitliyimizi pozmaq istəyirlər. Bizim ölkəmizdə də əmin-amanlıqdır və bizim də sakitliyimizi poza bilməzlər. Ermənistana nə qədər silah versələr də, qatar artıq çoxdan gedib. Fransa...

**Sədrlik edən.** Sağ olun. Elman Nəsirov. Buyurun.

**E.Nəsirov**. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı il yekunlaşmaqdadır. Bu il, 2023-cü il Azərbaycan üçün olduqca uğurlu bir il kimi tarixə düşdü. Məhz bu ildə ərazi bütövlüyümüz və suverenliyimiz tam, qəti və əbədi şəkildə təmin edildi.

Çox böyük ümidlər var idi ki, elə 2023-cü ildə, nəhayət, Ermənistanla Azərbaycan arasında sülh müqaviləsi imzalanacaq. Amma təəssüf, bu, hələ ki baş verməyib. Amma 2024-cü ilə nikbin baxmaq üçün də ciddi əsaslar var.

Bu il, yəni 2023-cü ildə Azərbaycan və Ermənistan siyasi liderlərinin düz beş dəfə görüşü keçirildi və artıq Sankt-Peterburqda son təmasdan sonra belə ümidlər daha da artıb ki, tərəflər 2024-cü ildə sülh müqaviləsi imzalamaq üçün daha böyük qətiyyət nümayiş etdirəcəklər. Azərbaycanın prinsipial mövqeyi bəllidir, Azərbaycan son rəyini, son mövqeyini artıq ifadə eləyib. İndi qarşı tərəfdən cavab gözlənilir.

Sülh prosesi ilə bağlı yeni yanaşmalar da diqqətdən yayınmır. Yeni yanaşma ondan ibarətdir ki, ayrı-ayrı detallarla bağlı sülh prosesini, daha doğrusu, sülh müqaviləsinin imzalanmasını yubatmaq olmaz. Məsələn, delimitasiya məsələsi çox ciddi, ağır, həllini gözləyən məsələdir və sərhədlərin müəyyən edilməsi ilə bağlı xeyli vaxt sərf edib və bu səbəbdən də sülh müqaviləsini imzalamamaq, hesab edirəm ki, səmərəsiz görünür. İndi yeni yanaşma ondan ibarətdir ki, delimitasiya ilə bağlı məsələni bir qədər sonraya da saxlamaq olar. Amma əsas məsələ odur ki, sülh müqaviləsinin imzalanması ilə bağlı digər fundamental məsələlərdə orta mövqe hasil olsun, sülh müqaviləsi prinsip etibarilə imzalansın. Amma delimitasiya və digər məsələləri isə sonradan da müzakirə eləyib, ortaq məxrəcə gəlmək mümkündür.

Beləliklə, hesab edirəm ki, bəli, bu gün Azərbaycan dövləti, onun ali siyasi rəhbərliyi son onilliklərin heç bir dövlətinin əldə etmədiyi uğura, nailiyyətə imza atıb. Son onilliklərin heç bir dövləti ərazi bütövlüyü ilə bağlı problemi həll etmək bacarığı və potensialı nümayiş etdir-

məyib. Bu baxımdan, hesab edirəm ki, 2023-cü ildə, əslində, Azərbaycan dünya dövləti, xalqımız dünya xalqı kimi və dövlət başçımız da dünya lideri kimi qəbul edilməyə layiqdir. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Bəhruz Məhərrəmov. Buyurun.

**B.Məhərrəmov**. Hörmətli sədr, əziz həmkarlar. Azərbaycan xalqı Konstitusiyanı qəbul edərkən hər kəsin firavanlığının təmin olunmasını, ədalətin, azadlığın və təhlükəsizliyin bərqərar edilməsini arzulayıb. Müstəqillik tariximizi təhlil etsək, səmimi şəkildə deyə bilərik ki, 2023-cü ildə, nəhayət, biz bütün prinsipial, konstitusion niyyətlərin realizəsini başa çatdıra bilmişik. Apreldə sərhəd tamlığı, sentyabrda isə bütün ərazilərimizdə Konstitusiya quruluşunun bərqərar edilməsi ilə dövlətin müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü qətiyyətlə təmin olunub. Bütün yad meyillər zərərsizləşdirilərək, iri güclərin agentura şəbəkəsi çökdürülərək, xalqın iradə ifadəsi kimi qanunların aliliyinin  təmin edildiyi qüdrətli dövlət qurulub. Azərbaycan xalqının layiqli rifahı önündə əsas əngəl olan işğala birdəfəlik son qoyularaq, azad olunmuş ərazilərə Böyük Qayıdışın əsas mərhələsinə start verilərək, hamının layiqli həyat səviyyəsinin təmin edilməsi istiqamətində həlledici addımlar atılıb. Siyasi islahatların dərinləşməsi ilə demokratik quruluşa və vətəndaş cəmiyyətinin bərqərar edilməsinə təminat verilib. Bir sözlə, “Heydər Əliyev İli”ndə Ulu Öndərin bütün konstitusion hədəfləri reallaşıb.

Bu mənada, gələn il, 7 fevral növbədənkənar Prezident seçkiləri, əslində, həm də dövlətçilik tariximizin yeni inkişaf mərhələsinə keçid olacaq. İndi növbə vətəndaşındır, seçkidə aktivlik göstərməklə yeni quruculuq prosesinə töhfə hər bir azərbaycanlının vəfa borcudur. Əlbəttə, hər

kəs seçimində sərbəstdir,  burada heç bir çağırış etmək niyyətində deyilik. Amma artıq Qorbaçovun xeyir-duası ilə formalaşan "cəbhə təfəkkürü"ndən qurtulmaq vaxtıdır. Hakimiyyətə münasibətdə ucuz tənqid, yaxud sosial mediada xoruzlanmaq müstəqilliyin göstəricisi ola bilməz.  Hər bir cəmiyyətdə ən müstəqil şəxslər elə dövlətə arxalanan adamlardır. Ona görə də artıq Azərbaycan vətəndaşı "dövlətin adamıyam" deməkdən nəinki çəkinməməli, Heydər Əliyev dövlətinin adamı olmaqdan qürur duymalıdır. Ən azı ötən 3 illik dövr göstərdi ki, Azərbaycanda dövlət, hakimiyyət və vətəndaş ayrı cəbhələrdə deyil. Buna tənə etmək istəyənlərin, əslində, özlərinin kimin adamı olduğunu hamımız görürük. Bu gün ya Avropada kiminsə qucağında oturub, ya da Bakıda çiynində çantası səfirliklərin ətrafında veyillənərək özünü xarici ölkələrə satır.

İndi 2024-cü il  yeni başlanğıcdır.  Bizim üçün təməlində böyük uğurların, zəfərlərimizin dayandığı milad ilidir, arınmaq ilidir. Şansdır: bu çirkabdan arınsınlar, təmizlənsinlər və qalibiyyətin çətiri altına yığışsınlar. Qalib ölkənin vətəndaşına həmrəylik yaraşır. Qarşıdan da həmrəylik günü və yeni il gəlir.

Əziz həmkarlar, bu bayramlar münasibəti ilə başda müzəffər Ali Baş Komandan və ailəsi olmaqla, Milli Məclisin bütün heyətini, şəhid ailələri və müharibə iştirakçıları başda olmaqla, xalqımızı,ələlxüsus təmsil etdiyim Biləsuvar sakinlərini təbrik edir və 2024-də hər bir azərbaycanlıya məhz dövlətin adamı olmağı arzulayıram. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Musa Qasımlı. Buyurun.

**M.Qasımlı**. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Bayramlarınızı təbrik edir, uzun ömür, möhkəm can sağlığı arzulayıram.

Yola saldığımız 2023-cü il millətimizin və dövlətimizin tarixində misli görünməmiş əhəmiyyətli hadisələrlə zəngin oldu. Dövlətimizin beynəlxalq mövqeləri gücləndi, bir sıra məsələlərin həllində rolu artdı. 1991-ci ildə "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı qəbul edilsə də, əslində, 1988-ci ildən bəri heç bir zaman bütün ərazilərimizdə qanunlarımız işləməyib, milli valyutamız işləməyib, dövlət suverenliyimiz mövcud olmayıb. Sentyabrın 19–20-də keçirilən lokal antiterror tədbirləri nəticəsində dövlət bayrağımızın bütün ərazilərimizdə dalğalanması ilə millətimizin arzuları həyata keçirildi. 2023-cü ilin ən böyük hadisəsi müasir Azərbaycan dövlətinin qurucusu, Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyində dövlət suverenliyimizin təmin edilməsi bütün millətimizi və dövlətimizi bütövləşdirdi. Bütövlüyümüzün, birliyimizin, dövlət suverenliyimizin təmin edilməsinin rəmzi cənab Prezidentimiz İlham Əliyevdir.

Noyabrın 8-də Xankəndidə keçirilən hərbi parad ilin böyük tarixi əhəmiyyətli hadisələrindən biri oldu. 2023-cü il müstəqillik tariximizin ən uğurlu ilidir. Bütün bunlar, sadəcə, ərazilərin azad edilməsi, dövlət suverenliyinin təmin edilməsi məsələsi olmayıb, Azərbaycan xalqının həyatında yeni keyfiyyət mərhələsi açan hadisələrdir. Yeni keyfiyyət mərhələsinin möhkəm təməli millətimizin iradəsi ilə 2024-cü il fevralın 7-də qoyulacaqdır. Millətin iradəsi hər bir şeydən üstündür.

Sonda, hörmətli Sahibə xanım, seçicilərimin bir xahişini də səsləndirməyi özümə borc bilirəm. Onlar Yardımlı rayonunda yolların təmirindən ötrü vəsait ayırdığına, gələn il rayonun bir neçə kəndinin təbii qazla təmin ediləcəyinə görə cənab Prezidentimizə minnətdarlıqlarını

bildirməyimizi, uzun ömür, möhkəm can sağlığı, millət və dövlət yolundakı fəaliyyətlərində uğurlar arzulamağımızı xahiş ediblər. Onu səsləndirməyi özümə borc bildim. Diqqətinizə görə sağ olun. Bir daha bayramlarınızı təbrik edirəm.

**Sədrlik edən.** Sağ olun. Sahib Alıyev. Buyurun.

**S.Alıyev**. Hörmətli xanım sədr, dəyərli həmkarlar. Cari məsələlər üçün ayrılan qısa vaxt çərçivəsində yola saldığımız ili dolğun qiymətləndirmək mümkün olmasa da, böyük uğurlarımız var ki, o haqda danışacam. Bu uğurlar ilk növbədə Heydər Əliyevin adı ilə bağlıdır. Ona görə də, əgər Ulu Öndərin yüzillik yubileyi olmasa idi belə, məncə, 2023-cü il "Heydər Əliyev İli" adlandırılacaqdı. Çünki 2023-cü ildə və ümumiyyətlə, son 20 ildə baş verənlər məhz onun əsasını qoyduğu, ancaq axıra çatdıra bilmədiyi planlar idi ki, onları öz sözləri ilə desək, "özü qədər inandığı" davamçısı reallaşdırdı. Cənab İlham Əliyev "Azərbaycanda bütün işlərin təməlində Heydər Əliyev amili, Heydər Əliyev siyasəti dayanır və biz bu siyasətə sadiqik" fikrini elə-belə səsləndirmir ki!

Dörd il öncə, Soçidəki "Valday" Beynəlxalq Diskussiya Klubunda onun işlətdiyi, reaksiyalarından da göründüyü kimi, oradakı bəzilərinin heç də ürəyindən olmayan "Qarabağ Azərbaycandır!" cümləsi də Heydər Əliyev siyasətinə sadiqliyin, onunla eyni genin, eyni qətiyyətin daşıyıcılığının sərgilənməsi deyildimi? Bir il sonra həmin forumdakılara da, digərlərinə də göstərilmədimi ki, bəli, Qarabağ, doğrudan da, Azərbaycandır! Nida isə, bax, məhz bu il qoyuldu. Qarabağ tam azərbaycanlaşdırıldı. 2023-cü ildə 44 günlük savaş zamanı olduğu kimi, yenə də biz presedent yaratdıq. Hibrid savaş dönəmində Azərbaycan ilk ölkə oldu ki, öz ərazi bütövlüyünü və torpaqları

üzərində tam suverenliyini “ağıllı güc”, yəni “yumşaq güc”lə “sərt güc”ün sinxronlaşdırılaraq tətbiqi nəticəsində əldə etdi. Vətəndaş cəmiyyəti təmsilçilərinin Laçın yolundakı aksiyasını xatırlayın, nə idi bu aksiya? Bu, dünya tarixində ilk dəfə “yumşaq güc” tətbiqi ilə öz sərhədləri üzərində tam nəzarətin, yəni ərazi bütövlüyünün təmini idi.

Hörmətli həmkarlar, biz dərindən diqqət yetirsək, görərik ki, “ağıllı güc” tətbiq etməklə Azərbaycanın son 3 ildə atdığı bütün addımlar mahiyyətcə məhz sülhə məcburetmədir. Özü də bu sülhə məcburetmənin hədəfi təkcə Ermənistan deyil, həm də regionda qarşıdurmanın qalmasına çalışan yırtıcılardır. Ermənistanın hətta digər dövlətləri də COP29-un Bakıda keçirilməsi təşəbbüsünü dəstəkləməyə çağırması, məncə, cənab İlham Əliyevin son 3 ildə diplomatik müstəvidə həmin yırtıcılara qarşı yeritdiyi o sülhə məcburetmə siyasətinin təntənəsi idi. Baxın, biz torpaqlarımız üzərində suverenliyimizi tam təmin edəndən sonra haylara Azərbaycanı təkləyərək Serbiyaya, uydurma “Artsax”ı isə Kosovoya çevirəcəklərini bildirənlər həmin Ermənistanın əli ilə necə ustalıqla fakt qarşısında qoyuldular. Neft ölkəsi olan Azərbaycanda “Heydər Əliyev İli” “Yaşıl dünya naminə həmrəylik ili” ilə əvəzlənir. Necədir? Əminəm ki...

**Sədrlik edən.** Sağ olun. Fazil Mustafa. Buyurun.

**F.Mustafa**. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Bildiyimiz kimi, bu il ölkə Prezidentinin sərəncamı ilə “Yaşıl dünya naminə həmrəylik ili” elan olunubdur və bu, qlobal bir çağırışdır, çox müsbət bir addımdır. Hesab edirəm ki, biz lokal bir çağırışa da diqqət etməliyik. Azərbaycanda sağlam insan naminə səfərbərlik ili elan etməliyik. Bu, nə ilə bağlıdır?

Ölkədə narkomaniyanın yayılma səviyyəsi böyük sü-

rətlə artır. Bunu statistika ilə, başqa məsələlərlə öyrənmək mümkün deyil. Bu özünü bölgələrdən alınan məlumatlarda, insanlarla görüşlərdə, boşanmaların səviyyəsində açıq-aydın göstərir. Demək, biz narkomaniyaya qarşı mübarizə metodlarını konkret istiqamətlərdə dəyişməliyik. Azərbaycan Respublikası Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyası fəaliyyət göstərir. Bunun adını biz mübarizə qoymuşuq. Amma həmin komissiyanı lazımi resurslarla təmin etməmişik. Bunun "802 xidməti" var. Zəng edilir, bu xidmət o narkomana heç bir kömək etmir. Komissiyanın işi tövsiyələr, məsləhətlər vermək, yaxud hər hansı bir narkodispanserə yönəltməkdir. Komissiya hər adama o şəraiti yarada bilmədiyindən, hamını reabilitasiya mərkəzinə yönləndirə bilməz. Çünki bunun üçün resursu, maliyyəsi yoxdur. Buna görə komissiya narkotik aludəçisini narkodispanserə yönəldir. Narkodispanserdəki detoksdan sonra narkoaludəçiyə mütləq şəkildə psixoloji reabilitasiya lazımdır. Bu da komissiyanın imkanları daxilində deyil və detoksdan çıxanların, demək olar ki, 70 faizi yenidən narkotiklərə qayıdır. Yəni həmin "802 xidməti"nin hər dəfə deyil, imkan daxilində yönəldə biləcəyi narkodispanserlərə gedənlərin 70 faizi orada 10-15 dəfə müalicə alıb, yenidən başlayan narkomanlardır.

Həmin komissiyaya reabilitasiya mərkəzləri üçün büdcə ayrılmayıb. Büdcə onların əmək haqqı və müəyyən işlərin görülməsi üçün ayrılıb. Bu işdə çalışanların əmək haqqı qaldırılmalıdır. Heç olmasa, 3-4 min manat səviyyəsində olmalıdır ki, onlar bu işdə daha böyük məsuliyyət hiss eləsinlər və daha çox can yandırsınlar. Komissiyanın işinin qənaətbəxş olması üçün onların özlərinin reabilitasiya mərkəzlərinin yaranmasına imkan yaratmaq

lazımdır. Bu reabilitasiya mərkəzlərinin Azərbaycanda indi altısı, xüsusi ilə narkodispanserlər fəaliyyət göstərir. Yenisini tikmək də böyük vəsait tələb edir. Bu baxımdan, hesab edirəm, bu istiqamətdə bütün imkanları səfərbər etməliyik ki, narkomaniyanın qarşısını alaq. Xarici ölkələrdən də bu istiqamətdə Azərbaycana məqsədyönlü şəkildə narkotiklərin buraxılması bir faktdır və bunun qarşısını indi almasaq, biz bir neçə ildən sonra bunun nə qədər böyük faciə yaratdığını daha dərindən görəcəyik. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Sədaqət Vəliyeva. Buyurun.

**S.Vəliyeva.** Xanım sədr, söz verdiyiniz üçün çox təşəkkür edirəm. Bu gün Milli Məclisimizin payız sessiyasının son iclasıdır. Xüsusi qürur hissi ilə qeyd etmək istərdim ki, 2023-cü il böyük qələbələrimiz və zəfərlərimiz ilə tarixə həkk olundu. Ümummilli Liderimiz Heydər Əliyevin şah əsəri olan müstəqil Azərbaycan Ulu Öndər "Heydər Əliyev İli"ndə heç zaman olmadığı qədər...

**Sədrlik edən.** Sədaqət xanım, bir az bərkdən danışın, çünki eşidilmir. Xahiş edirəm, qulaq asın.

**S.Vəliyeva**. Ümummilli Liderimiz Heydər Əliyevin şah əsəri olan müstəqil Azərbaycan Ulu Öndər "Heydər Əliyev İli"ndə heç zaman olmadığı qədər qüdrətli, güclü və nüfuzlu olmuşdur.

Cari ildə ölkəmizdə bütün sahələrdə inkişaf və tərəqqi hökm sürmüşdür. Azərbaycan öz iqtisadi inkişaf tempini qoruyub saxlamaqla yanaşı, bir sıra iqtisadi uğurlara da imza atmışdır. Dünyada özünü sosial dövlət kimi təsdiq etmiş Azərbaycanda cari ildə bir sıra sosial layihələr də həyata keçirilmişdir. Xüsusi ilə də şəhid ailələrinin, qazilərin sosial müdafiəsi istiqamətində davamlı tədbirlər həyata keçirilmişdir. 2023-cü ildə işğaldan azad olunmuş

ərazilərimizdə sürətli bərpa-quruculuq işlərinin və Böyük Qayıdış proqramının uğurlu icrası davam etmişdir. Erməni qəsbkarlarının viran qoyduğu, cəhənnəmə çevirdiyi torpaqlarımız humanist və sülhsevər Azərbaycan dövləti tərəfindən cənnətə çevrilməkdədir.

Ordu quruculuğu sahəsi də 2023-cü ildə dövlətimizin xüsusi diqqət mərkəzində olmuşdur. Cari ildə ordumuzun daha da qüdrətlənməsi istiqamətində ardıcıl və sistemli tədbirlər həyata keçirilmişdir. Dünyanın ən güclü orduları sırasında yer alan ordumuz 2023-cü ildə uğurlu antiterror əməliyyatı həyata keçirmişdir.

2023-cü ildə xarici siyasətimizlə də bağlı çox uğurlu işlərimiz olmuşdur. Dünya dövlətləri ilə mövcud əlaqələr daha da genişlənməklə yanaşı, yeni-yeni əməkdaşlıq sahələri də yaranmışdır. Eyni zamanda, nəzərə almaq lazımdır ki, Azərbaycan bütün bu uğurlara postmüharibə və postpandemiya dövründə nail olmağı bacarmışdır. Dünyada ikinci belə bir nümunəyə rast gəlmək mümkün deyil. Bütün bunlar möhtərəm Prezidentimiz cənab İlham Əliyevin həyata keçirdiyi uğurlu inkişaf siyasətinin nəticəsidir.

Xüsusi ilə vurğulamaq istərdim ki, bu il Milli Məclis də öz səmərəli və məhsuldar fəaliyyəti ilə seçilmişdir. Buna görə də hörmətli xanım sədr, başda Siz olmaqla, bütün həmkarlarıma öz təşəkkürümü bildirmək istəyirəm. Qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və yeni il münasibəti ilə başda Ali Baş Komandanımız olmaqla, xanım sədr, Sizi, əziz həmkarlarımızı, bütün Azərbaycan xalqını təbrik etmək istəyirəm. Hamıya can sağlığı, uğurlar arzu edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Sədaqət xanım. Niyə tələsirdiniz? Hələ vaxtınıza var idi. Jalə Əhmədova. Buyurun.

**J.Əhmədova.** Təşəkkür edirəm, xanım sədr. Mən də, icazənizlə, öz seçicilərimin adından, onların xahişi ilə cənab Prezidentimizi, Mehriban xanımı ürəkdən təbrik edirəm. Mən bir millət vəkili kimi çox şadam ki, hər zaman görüşlərdə bizim vətəndaşlarımız öz hörmətini, ehtiramını ifadə edir və bunu bu mötəbər kürsüdən səsləndirməyimizi xahiş edirlər.

Bu il, həqiqətən də, hər birimiz üçün çox mötəbər bir il oldu, çox möhtəşəm bir il oldu. Həm Heydər Əliyevin 100 illiyi ilə bağlı, həm də suverenliyimizin bütün torpaqlarımızda bərqərar olması ilə bağlı. Mən həm öz adımdan, həm də bütün seçicilərimizin adından arzu edirəm, Allah cənab Prezidentə möhkəm can sağlığı versin ki, gələcəkdə də millətimizin, xalqımızın rifahı naminə görmək istədiyi bütün işləri uğurla həyata keçirsin. Eyni zamanda, şəhidlərimizin ailələrini, qazilərimizi, bütün Azərbaycan xalqını, Sahibə xanım, Siz başda olmaqla, bütün həmkarlarımı və Milli Məclisin bütün kollektivini, hər birinizi qarşıdan gələn bayramlar münasibəti ilə təbrik edirəm, can sağlığı və xoşbəxt il olmasını arzulayıram. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Pərvin Kərimzadə. Buyurun.

**P.Kərimzadə**. Hörmətli həmkarlar, dəvət olunanlar, dəyərli media nümayəndələri. İlk öncə Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və yeni ilin gəlişi münasibəti ilə dövlət başçımız başda olmaqla, bütün xalqımızı, hörmətli Sahibə xanım, Sizi, dəyərli həmkarlarımızı, Aparat əməkdaşlarını, dünya azərbaycanlılarını, müzəffər ordumuzun əsgərlərini təbrik edirik. Eyni zamanda, şəhidlərimizin xatirəsini hər zaman ehtiramla yad edirik.

Artıq 2023-cü ili başa vururuq. Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinin qeyd edildiyi 2023-cü il Prezidentin sərəncamına uyğun olaraq, "Heydər Əliyev

İli” elan edilmişdir.  Bu il çərçivəsində ölkəmizdə və onun hüdudlarından kənarda silsilə tədbirlər keçirilərək Ümummilli Liderin dövlətimiz, xalqımız qarşısında misilsiz xidmətləri geniş təhlil edilmiş, indiki və gələcək nəsillərə çatdırmaq yolunda mühüm addımlar atılmışdır. 2023-cü il Azərbaycanın çoxəsrlik tarixinə növbəti zəfər səhifələrinin yazılması ilə yadda qaldı. Artıq həmkarlarım qeyd etdilər, bu il aprel ayının 23-də Laçında sərhəd-keçid məntəqəsinin yaradılması nəticəsində Azərbaycanın sərhədlərinin bütövlüyü tam bərpa olundu. Sentyabrın 19-20-də cəmi 24 saatdan da az bir müddətdə Azərbaycan lokal antiterror tədbirləri keçirdi ki, bunun da nəticəsində Ermənistanın ərazilərimizdəki qeyri-qanuni hərbi birləşmələrinin mövcudluğuna birdəfəlik son qoyuldu. Azərbaycanın suverenliyi bərpa olundu, eyni zamanda, bölgəmizdə sülh və təhlükəsizlik tam bərqərar oldu. Məhz bu antiterror tədbirləri nəticəsində biz bir daha hərbçilərimizin böyük qəhrəmanlığının və şücaətinin şahidi olduq.

15 oktyabr tarixi Azərbaycan tarixinə növbəti möhtəşəm bir gün kimi yazıldı. Çünki həmin gün Xankəndi şəhərinin mərkəzi meydanında Azərbaycan Bayrağı ucaldıldı, eyni zamanda, Xocalıda, Xocavənddə, Ağdərədə, Əskəran qəsəbəsində artıq əbədi olaraq üçrəngli bayrağımız dalğalanmağa başladı. Bundan başqa Zəfərimizin 3-cü ildönümündə yenə də Xankəndi şəhərində Zəfər paradı keçirildi. Bütün bu hadisələr, əlbəttə ki, tariximizin şanlı səhifəsini təşkil etməklə yanaşı, Azərbaycanın çoxəsrlik tarixində bu gün nə qədər güclü bir dövlət olduğunu bütün dünyaya nümayiş etdirdi. Bütün bunlar ölkədə uğurlu, rasional, milli maraqlara əsaslanan və müasir qlobal çağırışlara cavab verən strateji kursun həyata keçirilməsi sayəsində mümkün oldu. Azərbaycanın hərbi gücünün,

iqtisadi potensialının, qlobal arenada siyasi nüfuzunun və çəkisinin artması, beynəlxalq mövqeyinin möhkəmlənməsi, milli həmrəyliyin, xalq–lider birliyinin təmin olunması ərazi bütövlüyümüzün bərpasında, tarixi qələbəmizin qazanılmasında həlledici amil oldu.

Hörmətli xanım sədr, dəyərli həmkarlar, əlbəttə ki, biz 2024-cü ilə böyük inamla daxil oluruq. Çünki Azərbaycan bu gün güclü bir dövlətdir. Biz əminik ki, bundan sonra da milli birliyimiz davam edəcək, Ulu Öndər ideyalarının təntənəsinin biz növbəti ildə də bir daha şahidi olacağıq. Azərbaycan...

**Sədrlik edən.** Çox sağ olun, Pərvin xanım. Razi Nurullayev. Buyurun.

**R.Nurullayev**. Hörmətli xanım sədr, hörmətli deputatlar, media nümayəndələri. Bazarlarda və marketlərdə olan bahaçılığa diqqət çəkmək istəyirəm. Bahaçılığın yaratdığı çətinlik xüsusən də işsiz və aztəminatlı təbəqə üçün acınacaqlıdır. Özüm bazarlarda və marketlərdə tez-tez oluram. Mənə edilən müraciətlər əsasında bayram öncəsi market və bazarlarda oldum. Bəzi məhsulların üzərində yeni il öncəsi "50 faiz güzəşt" yazılıb. "50 faiz güzəşt"li məhsulun qiyməti bir il yarım, iki il öncəki qiymətdən daha yüksəkdir. Qiymətlər, demək olar ki, od tutub yanır. Gəlin, əhalinin qazanc səviyyəsinə baxaq.

Ən acınacaqlı təbəqə işsizlərdir ki, qazancı yoxdur. İşsiz adam, təbii ki, necə dolana, ailəsini saxlaya, uşağını dolandıra bilər? Kiçik bir araşdırma apardım və gördüm ki, boşanmaların sayının artmasında da işsizlik və eyni zamanda, pulsuzluq böyük rol oynayır. Düzdür, hökumət tərəfindən addımlar atılır, büdcə artır. Amma boynumuza alaq ki, əhaliyə sosial qayğı və əmək haqqının artım tempi bahaçılıqla müqayisədə geridədir. Hər şey bahalaşır:

məhsulun, xidmətin, materialın qiyməti durmadan artır. Qazanc isə zəif, rəqabətli iş yerləri də azdır. Normal əmək haqqı təklif edən idarə və müəssisələr də həmçinin.

Bir neçə araşdırma da apardım və gördüm ki, özəl sektor və xüsusən də qida, mühafizə, kənd təsərrüfatı sahələrində, rayon müəssisələrində çalışanlar üçün əmək haqqı artımları çox cüzidir. Adam 3-4 il bundan öncə 500-600 manat alırdı, yenə də o qədər alır. Hesab edək ki, o, indiki bahalaşma dövründə əvvəlki illərlə müqayisədə cəmi 200 manat qazanc əldə edir. Bu şəxs necə normal yaşaya və ailə saxlaya bilər. Bahaçılığı idarə etmək, bu sahədə ciddi monitorinq aparmaq və əhalinin yükünü azaltmaq üçün dövlət səviyyəsində müvəqqəti yardım proqramlarının hazırlanması vacibdir. Ən vacibi isə uzunmüddətli həll üçün iş yerlərinin açılması mexanizminin yüngülləşdirilməsidir. Ən kütləvi iş yerləri yaradan və inkişafa aparan tikinti sektorunu irəlilətmək də vacibdir. Tikinti ilə bağlı prosedurların sadələşdirilməsi, sahibkarların müraciəti ilə real işə başlamaq arasında olan dövrü 2-3 dəfə azaltmağa ehtiyac var. Hörmətli xanım sədr, istərdim ki, bu sahə və ona bitişik sahələrlə bağlı xüsusi bir dinləmə də keçirilsin, rəhbər şəxslər dəvət olunsun və mən də iştirak etmək istəyirəm. Çünki xeyli suallarım var.

Xanım sədr, mən Sizə təşəkkür edirəm ki, hər zaman belə şərait yaratmısınız və yaratmaqda davam edirsiniz. Eyni zamanda, bayram münasibəti ilə də hər birinizi bir daha təbrik edirəm və 2024-cü ildə xoş arzularımı bildirirəm. Təşəkkür edirəm, xanım sədr.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, mən hamıya təşəkkür edirəm. Biz gündəliyin məsələlərinə keçirik. Bildiyiniz kimi, bu gün bizim gündəliyimizdə 7 məsələ var. Gündəliyin 1-ci məsələsi “Avropa Şurasının

"Terrorçuluğun qarşısının alınması haqqında" Konvensi-yasına Əlavə Protokol"un təsdiq edilməsi haqqında" qanun layihəsidir. Qeyd edim ki, beynəlxalq sənədlə bağlı olduğuna görə qanun layihəsi "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun tələbinə əsasən bir oxunuşda qəbul ediləcək. Bu layihəyə Müdafiə, təhlükə-sizlik və korrupsiya ilə mübarizə komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin sədri hörmətli Ziyafət Əsgərova söz verirəm. Ziyafət müəllim, buyurun.

**Z.Əsgərov,** *Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli deputatlar. Mən də sizin hamınızı qarşıdan gələn bayramlar münasi-bəti ilə ürəkdən təbrik edirəm və hamımıza, xalqımıza can sağlığı arzulayıram.

Hörmətli həmkarlar, müzakirəyə təqdim olunan qanun layihəsinin detallarına varmazdan əvvəl bir neçə vacib məsələni qeyd etmək istəyirəm. Bilirsiniz ki, Azərbaycan uzun illər terrorizmdən əziyyət çəkən bir dövlət olmuşdur. Son 30 ildə Ermənistan tərəfindən xalqımıza qarşı sistemli şəkildə aparılan terror siyasəti terrorun, demək olar ki, bütün istiqamətlərini əhatə etmişdir. Həm əvvəlki illərdə bizə qarşı yönəldilmiş müharibə cinayətləri, soyqırımı, etnik təmizləmə, həm də mənəvi terror, Vətən müharibəsi zamanı isə mülki əhalimizə qarşı törədilən digər kate-qoriya cinayətlər ən yaxın tarixi dövrləri əhatə edir.

Torpaqlarımızın 20 faizinin işğal altında olduğu zamanlarda törədilən ekosid, xüsusi ilə son dövrlərdə Oxçu çayına axıdılan zərərli tullantılar, 30 il ərzində nəzarətimizdən kənarda qalmış ərazilərimizdə terror qruplarının yetişdirilməsi, onlara təlimlərin keçirilməsi,

hələ də əziyyətini çəkdiyimiz mina terroru bu bəlanın miqyasının hansı səviyyədə olduğunun aydın təzahürüdür. Təkcə 2020-ci il noyabr ayının 10-dan indiyədək yüzlərcə insan mina terroru nəticəsində həlak olub və ya müxtəlif dərəcəli xəsarət alıb. Məhz ölkəmizə qarşı davamlı törədilən mina terroru və digər terror təxribatları 2023-cü ilin sentyabr ayında lokal antiterror tədbirlərinin keçirilməsini zərurətə çevirmiş, möhtərəm cənab Prezidentin qətiyyəti və siyasi iradəsi nəticəsində uzun illər ölkəmizin suverenliyi və təhlükəsizliyi üçün təhdidə çevrilmiş terror və separatizm yuvası heç bir mülki obyektə ziyan vurmadan zərərsizləşdirilmiş, ölkəmiz yeni inkişaf yoluna qədəm qoymuşdur.

Hörmətli həmkarlar, müzakirəyə təqdim olunan "Avropa Şurasının "Terrorçuluğun qarşısının alınması haqqında" Konvensiyasına Əlavə Protokol terrorçuluqla mübarizə sahəsində ölkəmizin indiyə qədər ratifikasiya etdiyi beynəlxalq müqavilələr sırasında çox mühüm sənədlərdən biridir. Məsələ ilə bağlı ilk olaraq qeyd etmək istəyirəm ki, 2005-ci il mayın 16-da Varşava şəhərində imzalanmış "Terrorçuluğun qarşısının alınması haqqında" Avropa Konvensiyası Azərbaycan Respublikasının Bəyanatı ilə 2014-cü il fevralın 3-də Milli Məclis tərəfindən ratifikasiya olunmuşdur. Ölkəmiz tərəfindən bu sahədə qəbul edilmiş hüquqi aktlar təkcə adıçəkilən sənədlə məhdudlaşmır. Azərbaycan Respublikası MDB, GUAM, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı kimi beynəlxalq təşkilatlar, həmçinin Birləşmiş Millətlər Təşkilatı və Avropa Şurası çərçivəsində terrorizmlə mübarizəyə dair bir sıra çoxtərəfli beynəlxalq müqavilələr, Rumıniya, Belarus, Latviya, Türkiyə, Gürcüstan, Qazaxıstan, Pakistan və sair ölkələrlə isə ikitərəfli qaydada müqavilələr im-

zalamış, həmin müqavilələr də Milli Məclis tərəfindən ratifikasiya edilmişdir. Həmçinin 1999-cu ildə Milli Məclis tərəfindən "Terrorçuluğa qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir.

Bütün bu qeyd olunanların fonunda müzakirəyə təqdim olunan əlavə protokolun da bu qəbildən olan aktların davamı kimi təsdiq edilməsinə, hesab edirəm ki, ehtiyac vardır. Nəzərinizə çatdırmaq istəyirəm ki, sözügedən əlavə protokolu imzalayan ölkələr qeyd edilən konvensiyaya bəzi əlavələrin edilməsini zəruri hesab etmişlər. Protokolun mətnindən də göründüyü kimi, əsas məqsəd 2-ci, 3-cü, 4-cü, 5-ci və 6-cı maddələrdə təsbit olunan əməllərə görə cinayət məsuliyyəti müəyyənləşdirmək, bununla da terrorçuluğun və onun mənfi təsirlərinin qarşısının alınmasına yönəlik səyləri artırmaqdır. Əlavə protokolun digər müddəalarında terrorçuluq məqsədi ilə birlik və qrupda iştirak etmənin, terrorla bağlı təlimlər aparılmasının, terrorçuluq məqsədi ilə ölkə xaricinə səfər etmənin, bu qəbildən olan səfərlərin maliyyələşdirilməsinin, bu səfərlərin təşkilinin izahı verilir. Tərəflərin bu məsələlərlə bağlı zəruri tədbirlər görmək öhdəliyi müəyyən edilir. Sənədin digər müddəaları bu vacib sahə üzrə məlumatların mübadiləsindən irəli gələn məsələləri, imzalama və qüvvəyə minmə, qoşulma, protokolun denonsasiyası və digər zəruri hüquqi məsələləri tənzimləyir. Onu da qeyd edim ki, Azərbaycan Respublikası əlavə protokolu müvafiq bəyanatlarla təsdiq edir ki, həmin bəyanatların mətni sənədə əlavə olunmuşdur. İcazənizlə, mən həmin bəyanatları bir daha sizin nəzərinizə çatdırmaq istəyirəm.

1. Azərbaycan Respublikası əlavə protokolun 7-ci maddəsinə müvafiq olaraq, terrorçuluq məqsədi ilə ölkə

xaricinə səfər edən şəxslər haqqında məlumatların mübadiləsi üçün sutkada 24 saat, həftədə 7 gün ərzində fəaliyyət göstərən əlaqə məntəqəsi qismində Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətini təyin edir.

2. Bu əlavə protokolun müddəaları münaqişənin nəticələri tamamilə aradan qaldırılana və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında münasibətlərin normallaşmasına qədər Azərbaycan Respublikası tərəfindən Ermənistan Respublikasına münasibətdə tətbiq edilməyəcəkdir.

Hörmətli xanım sədr, hörmətli deputat həmkarlarım, istəyirəm bir arayışı da sizin nəzərinizə çatdırım. Deməli, "Terrorçuluğun qarşısının alınması haqqında" Avropa Konvensiyası, mən artıq qeyd etdim, 2005-ci il mayın 16-da Varşavada qəbul olunub. Bu günə qədər həmin konvensiyaya 43 dövlət və bir beynəlxalq təşkilat, yəni Avropa İttifaqı qoşulub. Əlavə protokola isə 31 dövlət və 1 beynəlxalq təşkilat, Avropa İttifaqı qoşulub. Azərbaycan protokolu 2023-cü il mart ayının 20-də imzalayıb.

Hörmətli xanım sədr, hörmətli deputat həmkarlarım, hesab edirəm ki, əlavə protokol Azərbaycanın milli və dövlət maraqlarına tamamilə uyğundur və mən sizin hamınızı bu sənədə səs verməyə dəvət edirəm. Diqqətinizə görə minnətdaram, çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Ziyafət müəllim. Hörmətli həmkarlar, qanun layihəsinə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsində də baxılıb. Buna görə də mən komitənin sədri hörmətli Səməd Seyidova söz vermək istəyirəm. Buyurun, Səməd müəllim.

**S.Seyidov**, *Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri.*

Çox hörmətli xanım sədr, mən hörmətli Ziyafət müəllimə təşəkkürümü bildirmək istəyirəm. Çox ətraflı, müfəssəl, qanun layihəsinin mahiyyətini əks etdirən və bu konvensiyanın, bu qanun layihəsinin bu gün qəbul olunmasından sonra Azərbaycan milli maraqlarının nə dərəcədə yüksək səviyyədə qorunması ilə bağlı fikirlərini bizə təqdim etdi. Bu, doğrudan da, həddindən artıq vacib bir qanun layihəsidir. Biz Azərbaycan olaraq belə konvensiyalara qoşularaq, beynəlxalq səviyyədə öhdəliklərimizi ən yüksək səviyyədə həyata keçirməklə dünyaya bir nümunə göstəririk.

Hörmətli xanım sədr, burada bir neçə vacib məqam var. Birincisi ondan ibarətdir ki, Azərbaycan beynəlxalq təşkilatların daxilində gedən prosesləri, beynəlxalq təşkilatların içərisində bəzən Azərbaycana qarşı olan məsələləri bir kənara qoyaraq milli maraqlarına uyğun olan məsələləri ən yüksək səviyyədə müzakirə edir, qəbul edir və bu istiqamətdə məntiqli iş aparır. Bu nöqteyi-nəzərdən bu konvensiya Azərbaycanın milli maraqlarına tam şəkildə uyğundur. Özü də bir neçə müddət bundan öncə Azərbaycan İnsan Hüquqları üzrə Avropa Konvensiyasının ölüm cəzasının bütün hallarda ləğvinə dair 13 nömrəli Protokolunu imzalamışdır. Bu o deməkdir ki, Azərbaycanda ölüm hökmü tam şəkildə qadağan olunmuşdur.

Ondan başqa 17 nömrəli Protokol da imzalanmışdır. Bu gün biz beynəlxalq təşkilatlarla əməkdaşlığı ən yüksək səviyyədə həyata keçirməyə hazırıq, bir şərtlə ki, Azərbaycanın milli maraqlarına uyğun olan siyasətin onlar tərəfindən də həyata keçirilməsinin şahidi olaq. Ona görə bu nöqteyi-nəzərdən bu protokolun qəbul olunması məqsədəmüvafiqdir və Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi onun qəbul olunmasını tövsiyə edir. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Səməd müəllim. Qanun layihəsi barədə çıxış etmək istəyənlər var. Fəzail Ağamalı. Buyurun.

**F.Ağamalı**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, media təmsilçiləri. Mən də dəyərli həmkarlarımın fikirlərinə qoşularaq, Sahibə xanım, Sizi və bütün millət vəkillərini, xalqımızı, şəhid ailələrini, dəyərli qazilərimizi, Silahlı Qüvvələrimizi, Azərbaycan dövlətçiliyinin inkişafında yeri olan hər kəsi – möhtərəm cənab Prezidenti, onunla hər zaman bir yerdə olan, Azərbaycan dövlətinə ciddi töhfələr verən Mehriban xanım Əliyevanı yeni il və Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibəti ilə təbrik edirəm və hər birinizə can sağlığı və uğurlar diləyirəm.

Azərbaycan ciddi və məsuliyyəti bir dövlət kimi beynəlxalq münasibətlər sistemində öz üzərinə düşən vəzifəni hər zaman böyük məsuliyyətlə, böyük diqqətlə yerinə yetirməkdədir. Hörmətli həmkarlarımız protokol haqqında kifayət qədər məlumat verdilər və həm də Avropa Şurasının "Terrorçuluğun qarşısının alınması haqqında" Konvensiyasının Azərbaycan tərəfindən qəbul edilməsinin zəruriliyini və protokolun da ratifikasiya olunmasının vacibliyini önə çəkdilər. Təbii ki, mən bu fikirlərlə tamamilə şərikəm və konvensiyaya əlavə protokola səs verəcəyəm. Lakin təəssüf edirəm ki, Avropa Şurası və digər beynəlxalq təşkilatlar qəbul etmiş olduqları bu və buna bənzər ciddi sənədlərin reallaşmasında ikili standartlara yol verir, ikiüzlü münasibətlərini ortaya qoyur və Azərbaycana qarşı haqsız hücumlara, yeri gələndə Azərbaycana qarşı ayrı-ayrı təhdid xarakterli sənədlərin qəbul olunmasına belə rəvac verirlər.

Azərbaycan məsuliyyətli dövlət kimi terrorizmə qarşı

mübarizəni hər zaman önə çəkmiş, təkcə sənədlərində deyil, eyni zamanda, atmış olduğu əməli addımlarda da bunu dəfələrcə sübut etmişdir. Təkcə onu demək kifayətdir ki, 2001-ci ildə Amerika Birləşmiş Ştatlarında baş vermiş olan terrora qarşı mübarizədə ilk sözünü deyənlərdən biri Azərbaycan dövləti oldu və Əfqanıstanda terrorizmə qarşı mübarizə üçün bütün imkanlarını səfərbərliyə aldı. Lakin Avropa Şurası bu cür konvensiyaları qəbul edərkən Ermənistanın Azərbaycana qarşı törətmiş olduğu terroru, soyqırımı zərrə qədər nəzərə almamış, onu tənbeh edən, ona bu və ya digər şəkildə məhdudiyyətlər qoyan sanksiyalar tətbiq etmək haqqında belə, düşünməmişdir. Xatirimə gəlir ki, vaxtilə Sarkisyan Avropa Şurasında çıxış edərkən dəyərli həmkarımız Səməd Seyidovun ona ünvanlanmış sualına cavab verərək söyləyirdi ki, əgər siz başqa cür hərəkət etsəniz, siz daha 20-25 faiz torpağınızı itirəcəksiniz. Bunun müqabilində Avropa Şurası Serj Sarkisyana hər hansı bir irad da bildirmədi, ona qarşı hər hansı bir tədbir də görülmədi və ötüb keçən zaman kəsiyində Ermənistanın Azərbaycana qarşı törətmiş olduğu terroru, soyqırımı bir dəfə də olsun, kifayət qədər ciddi şəkildə müzakirə edib, onu beynəlxalq səviyyədə tənbeh etmək səviyyəsinə, sanksiyalar qaldırmaq səviyyəsinə qədər getmədi. Bax, bu cür ikiüzlülük, bu cür ikili standartlar, – əlbəttə, bu cür konvensiyaların Azərbaycan tərəfindən qəbul edilməsinə baxmayaraq, – həmin beynəlxalq təşkilatlara olan inamı, etimadı kifayət qədər zədələyir. Ona inamı və etimadı zəiflədir. Biz çox arzu edərdik ki, Azərbaycan tərəfindən ratifikasiya edilmiş bu və buna bənzər sənədləri təqdim edən, onu qəbul edib, beynəlxalq səviyyəyə qaldıran və ayrı-ayrı dövlətlər tərəfindən ratifikasiya edilməsini arzu edən Avropa Şurası

və onun kimi ölkələr, nəhayət, ikili standartlara son qoysunlar, fəaliyyətlərini ədalətə və haqqa söykənərək qursunlar. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Fəzail müəllim. Siyavuş Novruzov. Buyurun.

**S.Novruzov**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar. Mən də həmkarlarımın dediyi fikirlərə qoşularaq, xanım sədr, Siz başda olmaqla hamını təbrik edirəm.

Hörmətli Ziyafət müəllim, hörmətli Səməd müəllim, hörmətli Fəzail müəllim geniş şəkildə bu protokol haqqında çıxış etdilər, bunun mahiyyəti barəsində fikirlər yürütdülər. Mən də bir neçə fikrimi bildirmək istəyirəm. Birinci ondan ibarətdir ki, dəfələrcə Azərbaycana qarşı terror olubdur və bu terror aktları ilə əlaqədar faktiki olaraq, o adamların özləri çıxış ediblər, boyunlarına alıblar. Məsələn, Xocalı soyqırımı ilə əlaqədar Balayan özü deyir ki, uşaqları necə yandırıblar, necə onları borulara doldurub, qaynaq eləyirdilər ki, içəridə qalıb ölsünlər. O, bunların hamısını öz kitabında yazıb, kitabında bunların hamısını təsvir eləyib. Biz də bunları Avropa məhkəmələrinə, başqa-başqa məhkəmələrə təqdim eləməliyik ki, azərbaycanlılara qarşı elədikləri cinayətləri bunlar özləri etiraf eləyirlər. Bunu tək biz demirik, özləri etiraf eləyirlər ki, türkə qarşı mənim belə bir nifrətim var. Etnik və milli təmizləmə sahəsində dünyada ən böyük cinayəti törədiblər. Bu məsələləri biz qaldırmalıyıq.

İkinci bir məsələ. Ümumi terrordan başqa, onun ən ağır növlərindən biri mənəvi terrordur. Bu gün Avropa Şurasında mənəvi terrorla məşğul olurlar. Avropa Şurasında da, Avropa Parlamentində də. Çağırırlar bəzi adamları, gəlib orada çıxış edirlər, Azərbaycan əleyhinə fikir söylə-

yirlər. Azərbaycanda maşın yuyan, maşın satan, tərbiyəsi olmayan, ailə tərbiyəsi görməyən, məişəti tamamilə ziddiyyətli olan insanları gətirib Avropa Şurasında çıxış elətdirirlər. Bizim oraya gedən deputatlara hücum çəkirlər ki, buna nə cavab verəcəksən, buna nə cavab verəcəksən? Bu mənəvi terrorun da qarşısı alınmalıdır. Bu, insanlara qarşı yönəldilən mənəvi terrordur: söyüş söyürlər, insanların ailəsini, valideynlərini təhqir eləyirlər, Milli Məclisin bütün deputatlarını təhqir eləyirlər. Biz indi protokolu təsdiq edirik, amma protokolu təsdiq edəndə gərək qarşılığında da bir vəsatət qaldıraq ki, bunlar da buna ekvivalent cavab versinlər.

Azərbaycanda Milli Məclisin deputatları və yaxud kimsə hansısa dövlətin, hansısa xalqın, hansısa millətin məsələlərinə qarışıb? Yox. Biz heç kəsin daxili işlərinə qarışmırıq. Ona görə də deyirik ki, siz də bizim daxili işlərimizə qarışmayın. Hörmətli xanım sədr, o baxımdan da, hesab edirəm, biz bu məsələlərdə, bundan sonra bu protokollarda öz tələblərimizi ciddi şəkildə qoymalıyıq və qeyd eləməliyik ki, bizə qarşı olan ədalətsiz hücumların, mənəviyyatsız münasibətin qarşısı alınmalıdır. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Siyavuş müəllim. Bəli, hörmətli həmkarlar, mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.48 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 107 |

Nəticə: Qəbul edildi

Çox sağ olun, qanun layihəsi qəbul edildi.

2-ci məsələyə keçirik. “Elektroenergetika haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Qeyd edim ki, bu qanun layihəsi də bir oxunuşda qəbul ediləcək. Layihəyə Təbii ehtiyatlar, energetika və ekologiya komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin sədri hörmətli Sadiq Qurbanova söz verirəm. Sadiq müəllim, buyurun.

**S.Qurbanov**, *Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri.*

Çox sağ olun, dəyərli Sahibə xanım. Əziz həmkarlar, icazə verin, bu yeni ildə başda cənab Prezidentimiz İlham Əliyev və Birinci vitse-prezidentimiz Mehriban xanım olmaqla, sizin hər birinizi qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü, eyni zamanda, “Yaşıl dünya naminə həmrəylik ili” münasibəti ilə səmimi qəlbdən təbrik edim və yeni təqvim ilində hər bir azərbaycanlı ailəsinə gözəl və sevincli günlər arzulayım. İnanıram ki, 2024-cü ildə də Azərbaycan xalqının böyük oğlu, dünyada separatizmin kökünü kəsən dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə keçiriləcək beynəlxalq tədbirlərdə bütün planetimizdə yaşayan insanlar üçün, onların rifahı, rahat və sağlam ətraf mühitdə yaşamaları üçün mühüm qərarlar qəbul ediləcəkdir.

Bu gün müzakirəyə çıxarılan “Elektroenergetika haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi də ölkəmizdə biznes mühitinin yaxşılaşdırılmasına, sahibkarlığın inkişafına xidmət edir. Belə ki, adıçəkilən qanun layihəsinin 8.1.4-cü maddəsində “150 kilovat”

sözləri “200 kilovat” sözləri ilə əvəz olunur. Belə ki, bu qanunda tələb olunan güc, bayaq dediyim kimi, əvvəllər 150 kilovatadək idi, ondan yuxarı keçdikdə icazə sənədi tələb olunurdu. Artıq 200 kilovat olduqda tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulma işləri başa çatdıqdan sonra elektrik qurğularının istismarına icazə alınması tələb olunmur. Bu da sahibkarlığın inkişafına xüsusi bir töhfədir. Həmkarlarımı dəstəkləməyə dəvət edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Sadiq müəllim. Çıxış etmək istəyən var. Vüqar Bayramov. Buyurun.

**V.Bayramov**. Çox təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Mən çox qısa olaraq, qanun layihəsi ilə bağlı bir təklifimi təqdim etmək istərdim. Əvvəla, qanun layihəsi elektroenergetika sektorunun liberallaşdırılması baxımından çox vacib bir dəyişiklikdir. O baxımdan mən də dəyişikliyi dəstəkləyirəm, hörmətli millət vəkillərimizi dəyişikliyə səs verməyə dəvət edirəm.

Amma bununla belə, təklif edilən dəyişikliyə əsasən, qurğuların istismarı ilə bağlı məhz güc ilə əlaqədar rəqəmdə dəyişiklik var. 150 kilovatdan 200 kilovatadək artırılır, 8.1.4-cü maddə. Amma 8.1.1-ci maddədə istismarla bağlı gücdə dəyişiklik yoxdur. Yəni söhbət digər hallarda 150 kilovatdan yuxarı elektrik enerjisinin istehsalına tələb edilən icazədən gedir. Yəni bu hallarda 150 kilovatdan artıq elektrik enerjisinin istehsalı zamanı icazə tələbi qalıb. Burada 150 kilovat dəyişmir. Amma istismarda həmin rəqəm 200 kilovatadək artırılıb. Ona görə təklif etmək istəyərdim ki, 8.1.1-ci maddədə də istehsalla bağlı 150 kilovata baxılıb onun 200 kilovata çatdırılması müzakirə olunsun. Çünki bu məsələ, Elektroenergetika haqqında qanun layihəsi bir müddət öncə Milli Məclisdə müzakirə edi-

lən zaman da təqdim olunan məsələlərdən biri idi. O baxımdan, 8.1.1-ci maddədə də 150 kilovatın 200 kilovatadək artırılmasını təklif edərdim. Düşünürəm ki, bu, bütövlükdə, bu sektorun liberallaşması baxımından vacib addım olardı. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Sadiq müəllim, mən indi Sabir müəllimə söz verəcəyəm. Ancaq xahiş edirəm, sonra Siz münasibət bildirin. Bu, bir oxunuşda qəbul ediləcək. Sabir müəllim, Siz yazılmışdınız. Çıxış eləmək istəyirsiniz?

**Yerdən.** *(Eşidilmir.)*

**S.Rüstəmxanlı**. Çıxış eləyib bütün həmkarlarımı və millətimizi yeni il və Dünya azərbaycanlılarının həmrəyliyi günü münasibəti ilə təbrik edirəm.

Mən, sadəcə, bir fikrimi bildirmək istəyirdim. İndi biz ilboyu çox dəyişikliklər eləmişik. Mən hələ bilmirəm, bu qanunların ilkin variantı ilə dəyişikliklərdən sonrakı variantının həcmi arasında nə boyda fərq var. İlkin variant, bəlkə, 100 səhifə idi. Dəyişikliklərdən sonra bütün qanunlarımız şişir. Bu prosesin qarşısı hansı bir şəkildəsə alınmalıdır. Qanun elə qəbul olunsun ki, ilboyu buna yamaq vurulmasın. Bu yamaqlar çox vaxt o işlə məşğul olan nazirliklərin, təşkilatların tələbi ilə, deyək, millətin yox, təəssüf ki, onların istəyinə uyğun olaraq dəyişdirilir. Bu, pis bir təcrübədir və bunun qarşısı hökmən alınmalıdır. Bu, bir tədqiqat istəyir. Mən bu tədqiqatın kim tərəfindən aparılacağını indi deyə bilmərəm.

Elektriklə bağlı, təbii ki, mütəxəssislər danışmalıdırlar. Amma deyək ki, bu, 150 kilovatdan 200 kilovata qaldırılır, bu, artıq o elektrik enerjisini tikintilərə verənin deyil, tikinti ilə məşğul olan müəssisələrin işini çətinləşdirən bir məsələdir. Onsuz da burada böyük problemlər var. Deyək ki, sonunda buna da icazə istənilməyəcək, əlavə kağız tə-

ləb olunmayacaq deyə, bəri başdan sən 200 kilovatlıq müqavilə bağla, öz işini buna uyğun təşkil elə, oradakı avadanlıqları qur, bu özü bu işlərlə məşğul olan adamlar üçün haradasa yeni bir bürokratik əngəl yaradır. Ona görə də bunu mütəxəssislər dəqiq hesablamalıdırlar. Bu tikinti üçün 150 kilovat bəs eləyirsə, bunu bəri başdan niyə artırmalıdır? Bu tikinti prosesi 1 il, 2 il, 3 il gedəcək. Bu işi görər, qurtarar, ondan sonra lazım olarsa, artırar. Yəni burada bu məsələlərə bir az diqqətlə yanaşılmalıdır. Biz bu işlə, tikinti ilə məşğul olan müəssisələrin, deyək, ehtiyacını daha çox düşünməliyik, nəinki orada, bu işdə öz mənafeyini güdən, işıq verən, elektrik verən müəssisələri. Yenə deyirəm, dəfələrlə demişik, bu işıq məsələsi, qaz məsələsi çox ciddi məsələlərdir. Hələ deyək ki, bu məsələni qoyuram bir kənara. Bilirsiniz, bu işığın və qazın limit məsələsi camaatı boğaza yığıb. Qaz üçün 100 manat pul köçürürsən, avtomatik yazılır 50 manat. Sən mənim 50 manatımı niyə oğurlamalısan? Bu, nə deməkdir? Yəni gözümüz görə-görə bu məsələdə özümüz şərait yaratmışıq ki, bəri başdan limit adına camaatın cibinə girsinlər. Qayda qoyulsun, qiyməti neçədir, ona uyğun pul verilsin də. Bu limit məsələsi nə vaxtdan çıxıb və nəyə görə olmalıdır? Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Sabir müəllim, Sizin birinci sualınız ki, dəyişikliklər, qanunda olan bütün dəyişikliklərin hamısını, bax, burada, bu zalda biz özümüz qəbul edirik. O ki qaldı o qanunların həcmi, yəni böyük olmağı və sair, o, ayrı bir məsələdir. Sizin verdiyiniz bəzi suallar var. Mən düşünürəm ki, Sadiq müəllim cavab verəcək. Ayrı çıxış eləyən yoxdur. Sadiq müəllim, buyurun. Burada təkliflər səsləndi. Buyurun.

**S.Qurbanov**. Çox sağ olun, dəyərli Sahibə xanım. Mən

bu məsələnin bir daha geniş izahatını verməyə çalışacağam. Ümumiyyətlə, “Elektroenergetika haqqında” Qanunda nəzərdə tutulan 150 kilovat saat, yəni dünyada bir neçə il ərzində bir neçə dəfə rəqəmlər dəyişmişdir. Dünya Bankının “B-Ready” hesabatına dair metodologiyası var. Bu hesabatın kommunal xidmətlər indikatoru üzrə bölməsində bu güc həddi 180 kilovat saatdır. Yəni Azərbaycanda bu həddi 200 kilovat saata çatdırırıq.

İkinci, burada Vüqar müəllimin dediyi 8.1.1-ci maddədə su elektrik stansiyaları və biokütlədən alınan qaz və ya digər yanacaq vasitəsi ilə enerji istehsal edən elektrik stansiyalarında enerji istehsalı üzrə 500 kilovatdan, digər hallar üzrə isə 150 kilovatdan yuxarı elektrik enerjisinin istehsalına şamil olunur. Mən sizə deyim ki, bu mütərəqqi qanundan sonra Nazirlər Kabineti qərar qəbul edir. Yəni Nazirlər Kabinetinin 2023-cü il 3 noyabr tarixli 399 nömrəli Qərarı ilə təsdiq edilmiş “Tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulması və ya əlavə enerji (güc) alması Qaydası”nda da bu qanundan sonra dəyişiklik ediləcəkdir.

Sabir müəllim qeyd elədi ki, bu, vəziyyəti çətinləşdirir. Heç də belə deyil. Yəni söhbət burada ondan gedir ki, tikinti obyektlərində tələb olunan elektrik enerjisi gücünü 150 kilovatdan 200 kilovatadək qaldırmaq üçün onlardan icazə tələb olunurdu. Əlavə prosedur gedirdi, əlavə ödənişlər olurdu və sair. Bu prosedur aradan qaldırılır. Əksinə, vətəndaşların, eyni zamanda, sahibkarların vəziyyətini yüngülləşdirməklə bərabər, sahibkarlığın inkişafına xüsusi bir töhfə verir.

İkinci, o limitlərlə bağlı məsələ isə, Sahibə xanım, bizim qanun layihəsinə aid deyil. Onu gələcəkdə müzakirə eləmək olar. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Mən qanun layihəsini səsə qoyuram. Hörmətli həmkarlar, buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.59 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin növbəti iki məsələsi üçüncü oxunuşda olan qanun layihələridir. 3-cü məsələ Cinayət Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində və iki qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin üzvü hörmətli Kamal Cəfərova söz verirəm. Kamal müəllim, buyurun.

**K.Cəfərov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Çox sağ olun, hörmətli xanım sədr. Hər hansı təklif olmadığı üçün səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, qanun layihəsinə iki komitədə də baxılmışdır. Ziyafət müəllim, birinci, sizin komitənizdə baxılmışdır. Xahiş edirəm, Siz öz komitənizin rəyini bildirin. Buyurun.

**Z.Əsgərov**. Çox sağ olun, hörmətli xanım sədr. Komitənin rəyi müsbətdir və səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. İkinci komitənin – İnsan hüquqları komitəsinin rəyini bu gün Bəhruz Məhərrəmov

təqdim edəcək. Buyurun.

**B.Məhərrəmov**, *Milli Məclisin İnsan hüquqları komitəsinin üzvü.*

Hörmətli sədr, komitə lehinədir, səsə qoyulmasını xahiş edirik.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, mən qanun layihəsini səsə qoyuram. Buyurun, üçüncü oxunuşda qəbul edilməsinə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.00 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Növbəti məsələyə keçirik. "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində baxılıb. Yenə də Ziyafət müəllim, mən komitənin sədri kimi Sizə söz verirəm. Buyurun.

**Z.Əsgərov.** Minnətdaram, hörmətli xanım sədr. Hörmətli həmkarlar, qanun layihəsi birinci və ikinci oxunuşlarda çox geniş müzakirə olundu. Heç bir təklif, irad olmadığına görə səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Mən qanun layihəsini üçüncü oxunuşda səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.01 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin növbəti iki məsələsi birinci oxunuşda olan qanun layihələridir və mən güman edirəm ki, birinci oxunuşun tələbləri hamının yadındadır. Hörmətli həmkarlar, onu da qeyd edim ki, bu məsələlər möhtərəm cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub. Məzmun və mahiyyətcə də onlar bir-birinə yaxındırlar. Gündəliyin 5-ci məsələsi "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanunda dəyişiklik edilməsi barədə, gündəliyin 6-cı məsələsi isə  Mülki Prosessual Məcəllədə, digər iki məcəllədə və iki qanunda dəyişiklik edilməsi barədə qanun layihələridir. Odur ki, təklif edirəm, həmişə olduğu kimi, biz təqdimatları ayrılıqda etsək də, ancaq müzakirəni birgə aparaq. Bilirsiniz ki, biz səsverməni həmişə ayrı-ayrı aparırıq. 5-ci məsələyə Ailə, qadın və uşaq məsələləri komitəsində baxılmışdır və bu qanun layihəsinə dair məlumat vermək üçün mən komitənin sədri hörmətli Hicran xanım Hüseynovaya söz verirəm. Hicran xanım, buyurun.

**H.Hüseynova**, *Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli həmkarlar, media nümayəndələri. Hörmətli Sahibə xanım, icazə verin, mən də bütün təbriklərə qoşularaq, ilk öncə ölkə rəhbərliyimizi, Sahibə xanım, Sizi, Siz başda olmaqla bütün deputat həmkarlarımı, Milli Məclis Aparatının əmək-

daşlarını, media nümayəndələrini, bütövlükdə, xalqımızı Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və yeni il münasibəti ilə təbrik edim. Hamıya sağlamlıq, xoşbəxtlik, firavanlıq arzulayıram.

Bildiyiniz kimi, 13 il əvvəl "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir və bu həmin dövr üçün olduqca çox mühüm addım idi. Bu qanun ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva vaxtı ilə millət vəkili olarkən onun təşəbbüsü və dəstəyi ilə qəbul olunmuşdur. Bu gün də baxdıqda bu hadisə həmin dövr üçün rezonans idi. Qanun qəbul olunduqdan sonra müəyyən dövrlərdə qanuna müvafiq olaraq, digər normativ hüquqi aktlar, qaydalar təsdiqləndi. Ancaq zamanın tələbi və qanunların praktik tətbiqi qanunvericiliyin təkmilləşdirilməsini zəruri edir və qanunvericiliyin təkmilləşdirilməsi, sadəcə, yeni qanunların qəbul olunması demək deyil. Bu, konstitusional hakimiyyətlə cəmiyyətin əməkdaşlığı kimi mürəkkəb bir prosesin formalaşdırılmasıdır. Qanunvericiliyin təkmilləşdirilməsi ölkədə hüquq sahəsinin analizi, mövcud qanunvericiliyin qiymətləndirilməsi və eləcə də qəbul olunacaq qərarların nəticələrinin proqnozlaşdırılmasıdır. Bu baxımdan, ilk növbədə qeyd etməliyəm ki, təqdim olunan layihə çox aktualdır.

Sənəddə məişət zorakılığının bu və digər formasından zərər çəkmiş şəxsin hüquqlarının müdafiəsinin gücləndirilməsi, eyni zamanda, zərər törədən şəxsin məsuliyyətinin artırılması nəzərdə tutulur. Qeyd edim ki, preambula və 20 maddədən ibarət olan qanunun preambula hissəsində və 11 maddəsində əlavə və dəyişiklik edilib. Xüsusi ilə vurğulamaq istəyirəm ki, təklif olunan əlavə və dəyişikliklər heç bir halda ailə dəyərlərinə və milli-mənəvi

dəyərlərə mənfi təsir göstərmir. Əksinə, ailə institutunun möhkəmləndirilməsi, ailədaxili münasibətlərin daha yaxşı tənzimlənməsi və vətəndaşın konstitusion hüquqlarının müdafiəsinə xidmət edir. Sənəddə məişət zorakılığının bu və digər formasından zərər çəkmiş şəxsin hüquqlarının müdafiəsinin gücləndirilməsi, zərər törədən şəxsin, eyni zamanda, bu kimi halların qarşısının alınmasına cavabdeh olan vəzifəli şəxsin məsuliyyətinin artırılması, zərər törədən şəxsin hərəkətlərinə dair sanksiyaların nisbətən sərtləşdirilməsi, məişət zorakılığından zərər çəkmiş şəxslər üçün qurumlararası əlaqələndirmə mexanizminin yaradılması, qabaqlayıcı və profilaktik tədbirlərin keçirilməsi, zorakılıq hallarının şahidi və qurbanı olmuş uşaqların hüquqlarının müdafiəsi və digər məsələlər öz əksini tapıb.

Məişət zorakılığına məruz qalmış şəxslərin müdafiəsinin gücləndirilməsi üçün qanunun preambula hissəsindən və bir neçə maddəsindən "yaxın" sözünün çıxarılması təklif edilir. Bu, nə üçün lazımdır? Burada əsas məqsəd təkcə yaxın qohum tərəfindən deyil, ümumiyyətlə, qohumluq münasibətlərindən istifadə etməklə hər hansı şəxsə qarşı törədilmiş məişət zorakılığı halının qarşısını almaqdır. Həmin şəxslər qanunun yaratdığı məsuliyyətdən kənarda qalmayacaqlar. Mən xüsusi ilə vurğulamaq istəyirəm ki, burada bir insanın digər insana qarşı zorakı davranması, onu mənəvi-psixoloji, iqtisadi xarakterli təzyiqə, fiziki zorakılığa məruz qoyması əsas götürülür. Zərər çəkmiş şəxs qadın, kişi, uşaq, qoca ola bilər. Ona görə də qohumluq dərəcəsindən asılı olmayaraq, zərər törətmiş şəxs öz hərəkətlərinə görə məsuliyyət daşımalıdır. Təcrübədə bu kimi hallar latent qaldığı üçün daha ağır fəsadlar da baş verir.

Qanunun 2-ci maddəsindən "və ailə münasibətlərinin

bərpa olunmasına” sözlərinin çıxarılması təklif olunur. Məlumdur ki, dövlət orqanları hər zaman çalışır ki, tərəflər arasında münasibətlər normallaşsın. Lakin yenə də təcrübədə görürük ki, bəzən barışdırıcı mövqe ailədə zorakı davranışı, təzyiqi, münaqişəli vəziyyəti daha da dərinləşdirir. Bu isə ağır nəticələrə səbəb olur. İnsan özü seçim etməlidir və qarşı tərəf də bu qərara hörmətlə yanaşmalıdır. Buna görə də bu dəyişiklik məqsədəmüvafiqdir.

Dəyişikliklərdən biri də zərurət olduqda zərər çəkmiş şəxsin tələbi ilə dövlət vəsaiti hesabına hüquqi yardımla təmin edilməsi məsələsidir. Təcrübədə görürük ki, həmin şəxslərin xüsusi ilə hüquqi yardıma ehtiyacı olur. Bir çox hallarda həmin insanın maddi imkanları yetərli olmadığı üçün belə bir yardımdan kənarda qalır. Lakin təqdim olunan yeni layihədə bu amil nəzərə alınmışdır.

Təqdim olunan layihədə qısamüddətli mühafizə orderinin müddətinin beynəlxalq təcrübəyə əsaslanaraq 30 gündən 60 günədək, uzunmüddətli orderin müddətinin isə 60 gündən 180 günədək artırılması təklif olunur. Mövcud qanuna görə zərər çəkmiş şəxsə qısamüddətli və ya uzunmüddətli mühafizə orderi verilə bilər. Yəni belə bir qərarın verilməsi müvafiq dövlət orqanının mülahizəsinə buraxılır. Bir çox hallarda bu orderlər tətbiq olunmur. Nəticədə isə zorakılıq halları davam edir. Lakin təklif olunan yeni layihədə bu maddə imperativ xarakter daşıyır. Qanunda uşaq hüquqlarının daha effektiv qorunması üçün əlavə və dəyişikliklər də təklif edilir.

Digər vacib məsələ, qabaqlayıcı və profilaktik tədbirlərin həyata keçirilməsi, insanların daha erkən vaxtda bu məsələlər haqqında maarifləndirilməsidir. Belə ki, təhsilin müxtəlif pillələrində tədris olunan müvafiq fənn və dərsdənkənar məşğələlərin məzmununa qarşılıqlı hörmət,

qarşılıqlı yardım, gender bərabərliyi və şəxsiyyətlərarası münasibətlərə dair mövzular daxil edilir. Bu zaman şagird və tələbələrin yaş xüsusiyyətləri nəzərə alınmalıdır. Məişət zorakılığının qarşısının alınması və ümumiyyətlə, zorakılığa, zorakı davranışa yol verilməməsi üçün qabaqlayıcı, maarifləndirici tədbirlərin böyük əhəmiyyəti var. Bu, təcrübədə də təsdiq edilir. İnsanın bu məsələyə yanaşması, onun dünyagörüşünün, təfəkkürünün dəyişməsi ilə belə halların qarşısını almaq mümkündür.

Bildiyiniz kimi, bütün icra hakimiyyətləri yanında Gender zorakılığı və uşaqlara qarşı zorakılıq üzrə monitorinq qrupu yaradılmışdır. Lakin onun fəaliyyətini tənzimləyən vahid hüquq normaları mövcud deyil. Məişət zorakılığından zərər çəkmiş şəxslər üçün qurumlararası əlaqələndirmə mexanizminin yaradılması məqsədi ilə mövcud qanunda yeni maddənin əlavə edilməsi təklif olunur.

Bundan əlavə, layihədə mövcud qanunun bir sıra maddələrində dəqiqləşdirmə və uyğunlaşdırma xarakterli əlavə və dəyişikliklər edilməsi də nəzərdə tutulur. Qeyd etməliyəm ki, bütövlükdə, təqdim olunan qanun layihəsi məişət zorakılığı hallarının qarşısının alınması sahəsində çox ciddi və əhəmiyyətli sənəddir. Eyni zamanda, məişət zorakılığının qarşısının alınması sahəsində qanunvericiliyin təkmilləşdirilməsi və məişət zorakılığından zərər çəkmiş şəxslərin hüquqlarının daha da səmərəli təmin edilməsi məqsədi ilə Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Cinayət-Prosessual Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində, "Vəkillər və vəkillik fəaliyyəti haqqında" və "Təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi təqdim edilmişdir. Burada

“Məişət zorakılığının qarşısının alınması haqqında” Azərbaycan Respublikası Qanununun yeni layihəsindən irəli gələn yeni əlavə və dəyişikliklər öz əksini tapmışdır.

Hörmətli xanım sədr, cari ilin dekabrın 21-də bizim komitəmizin iclasında “Məişət zorakılığının qarşısının alınması haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət xanım Qəhrəmanova, komitənin Hüquqi təminat şöbəsinin müdiri Taliyə xanım İbrahimova və Milli Məclis Aparatının müvafiq şöbələrinin məsul şəxslərinin çox fəal iştirakı ilə ətraflı müzakirə olunmuşdur və birinci oxunuşda baxılması üçün Milli Məclisin müzakirəsinə tövsiyə edilmişdir. Məlumatı nəzərə almağınızı xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, hörmətli Hicran xanım.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Hələ müzakirəyə keçməmişik, bir dəqiqə. Bu qanun layihəsinə iki komitədə də baxılıb. Birinci komitə İnsan hüquqları komitəsidir və bu gün İnsan hüquqları komitəsinin rəyini yenə də Bəhruz müəllim bizə təqdim edəcək. Bəhruz Məhərrəmov. Buyurun.

**B.Məhərrəmov**. Xanım sədr, komitənin rəyi müsbətdir, səsə qoyulmasını xahiş edirik.

**Sədrlik edən.** Çox sağ olun. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində də baxılmışdır. Komitənin rəyini bildirmək üçün mən komitənin sədri, Milli Məclis sədrinin birinci müavini hörmətli Əli Hüseynliyə söz verirəm. Əli müəllim, 6-cı məsələ, əslində, sizin komitənizin məsələsidir. Xahiş edirəm, 5-ci, həm də 6-cı məsələlər haqqında ümumi bir məlumat verin. Buyurun.

**Ə.Hüseynli**, *Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri.*

Çox sağ olun, hörmətli xanım sədr. 5-ci məsələ ilə bağlı Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin də rəyi müsbətdir. Çünki hörmətli Hicran xanımın dediyi kimi, konseptual baxımdan, əslində, "Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020– 2023-cü illər üçün Milli Fəaliyyət Planı"nın icrası ilə bağlıdır və qanunvericilik dəyişiklikləridir. O ki qaldı 6-cı məsələyə, hörmətli xanım sədr, burada Mülki Prosessual Məcəllədə, Cinayət-Prosessual Məcəlləsində və "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Qanunda edilən əlavə və dəyişikliklər, hörmətli Hicran xanım dediyi kimi, sırf uyğunlaşdırma xarakterlidir. Yəni anlayışlar, bir sıra məsələlər həm də orada öz əksini tapır. Bir mahiyyət baxımından dəyişiklik İnzibati Xətalar Məcəlləsindədir. O da iki məsələ ilə bağlıdır. Birincisi, tələb ondan ibarətdir ki, 158-ci maddədə məişət zorakılığının qarşısının alınması ilə bağlı qanunvericiliyin pozulması ilə bağlı sanksiyalar daha da sərtləşdirilsin.

İkincisi, qeyd olunur ki, artıq "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanunda nəzərdə tutulduğuna görə, qısamüddətli mühafizə orderinin verilməməsinə görə vəzifəli şəxslər də məsuliyyətə cəlb olunsunlar. Yəni bu inzibati xətalar mahiyyət baxımından dəyişiklikdir. Bütövlükdə isə, komitəmiz hər iki layihənin lehinədir. Təşəkkür edirəm.

**Sədrlik edən.** Əli müəllim, çox sağ olun. Hörmətli həmkarlar, 6-cı məsələyə daha iki komitədə baxılıb. Komitənin biri, Bəxtiyar müəllim, sizin komitənizdir. Elm və təhsil komitəsi. Mən sözü komitənin sədri hörmətli Bəxtiyar Əliyevə verirəm. Bəxtiyar müəllim, buyurun.

**B.Əliyev**, *Milli Məclisin Elm və təhsil komitəsinin sədri.*

Hörmətli xanım sədr, hörmətli deputatlar. Milli Məclisin Elm və təhsil komitəsində qanun layihəsi geniş müzakirə edilmişdir. Komitənin rəyi müsbətdir, komitə qanun layihəsinin lehinədir və burada Hicran xanım "Təhsil haqqında" Qanunda əlavə edilən 11.3-2-ci maddə haqqında geniş məlumat verdi. Hesab edirəm ki, bunu biz qəbul edə bilərik. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. İkinci komitə, Hicran xanım, sizin komitədir. Əslində, Siz, ümumiyyətcə, məlumat verdiniz.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Bəli. Çox sağ olun. Yəni biz elə də eşitdik, Sizin müsbət rəy verdiyinizi. Hörmətli həmkarlar, müzakirəyə keçirik. Təklif olunur, 5 dəqiqə. Hamı 5 dəqiqəyə razıdır? Düşünürəm, hamı razı olar, xüsusi ilə çox adam yazılıb. Fazil Mustafa. Buyurun.

**F.Mustafa**. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Bu qanunlarda dəyişikliklərlə bağlı hörmətli komitə sədri Hicran xanım çox ətraflı məlumat verdi və dəyişikliyin mahiyyətini aydın izah etdi. Kifayət qədər anlaşıldı ki, həqiqətən də, dövlət ailə institutunun qorunması üçün ciddi addımlar atır və qanunvericilikdə də bunun əsaslarını yaratmağa çalışır. Amma dövlətin qoruduğu ailə institutunu cəmiyyət necə, qorumaq istəyirmi? Əslində, ailənin problemi bilavasitə bizim cəmiyyətlə bağlıdır. Yarı avropalı, yarı şərqli cəmiyyətlərdə məişət zorakılığı həmişə mövcud olacaqdır. Bunun qarşısını almaq deyil, bunu necə minimuma endirmək barədə düşünməyimiz lazımdır.

Biz fəxr edirik ki, 1918-ci ildə qadınlara seçki hüququ

vermişik. Bu, bizim həm də çox mütərəqqi bir brendimizdir. Amma biz gerçəklikdə bu günə qədər də Azərbaycan qadınına bir çox hallarda – ixtisas seçmə, məktəb seçmə, hətta həyat yoldaşı seçimi hüququnu belə verməmişik. Yəni bu reallıqları biz görməliyik və məişət zorakılığının da mənbəyinə bu aspektdən baxmalıyıq. Hansı isə bir qız uşağının, istedadlı uşağın xaricdə gedib təhsil alması üçün valideynin iradəsi əsas rol oynayır, icazə vermədisə, demək, o, Azərbaycanda qalmalı və burada da oxumalıdır. Bu baxımdan da, əslində, məişət zorakılığının iki əsas fundamental səbəbi var. Bu, birinci, normal təhsil, təlim görməmiş insandır.

İkinci isə, psixi, fiziki və başqa xüsusiyyətli xəstəlik simptomlarını daşıyan, narkotik və alkoqol aludəçisi olan insandır. Yəni bu iki xüsusiyyətin daşıyıcısı olan insanın cəmiyyətdə sayının çoxalması məişət zorakılığının da analoji olaraq artmasının əsas səbəblərindən biridir. Bu baxımdan da biz qanunvericilikdə mütləq dəyişikliklər edirik. Yəni burada vəkillər tərəfindən, demək, onların pulsuz, dövlət hesabına müdafiə olunması çox mütərəqqi bir dəyişiklikdir. Onlara müəyyən, qısamüddətli və uzunmüddətli orderin verilməsi çox müsbət dəyişikliklərdir. Bunlar hamısı dövlət tərəfindən atılan profilaktik addımlardır. Amma biz burada məktəblə bağlı qeyd edirik ki, dərsdənkənar məşğələlərdə, filan-filan istiqamətdə təbliğat aparılsın. Bizdə dərsdənkənar məşğələ var? Bizdə məktəb alayarımçıq da olsa, təhsil yeridir, amma təlim anlayışı məktəbdən uzaq düşübdür. Məktəbdə hansı isə bir uşağın formalaşması potensialı var, imkanları yoxdur. Yəni bunun da səbəbi var. Təbii ki, dövlət tərəfindən böyük işlər görülür, ən gözəl məktəblər yaradılıb, hətta son 30 ildə Azərbaycanda yaradılan məktəblərə baxanda insanın

ürəyi açılır. Amma biz əgər görürüksə ki, Bakının ortasında bir sinifdə minimum 35–40 uşaq oxuyursa, o sinifdə normal dərs keçməyə, təlim verməyə, ümumiyyətlə, imkan yoxdur, ayrı-ayrı uşağı yetişdirməyə imkan yoxdur. Burada bu cür, bir az qeyri-real müddəaların salınması baxımından deyirəm ki, bu qanunu biz daha da korrektləşdirmək barədə düşünməliyik.

Bir də bayaq mən narkomaniya ilə bağlı qeyd elədim. İstisnasız olaraq, Azərbaycanın bütün rayonlarında narkotik aludəçiləri üçün reabilitasiya mərkəzi açılmalıdır. Məişət zorakılığının əsas səbəblərindən biri də narkomaniya ilə, alkoqolla bağlıdır. Yəni içib gəlir, döyür. Yəni mədəni ölkələrdə yaxşı təhsil almış insan içəndə də gedib adamı döymür. Amma burada o xüsusiyyətlər kifayət qədər geniş yayılıb. Bu baxımdan, hesab edirəm ki, bu məsələyə, həqiqətən, ciddi diqqət yetirməliyik. Çünki ailə institutunun dağılmasının əsas səbəblərindən biri məişət zorakılığı ilə bağlıdır. Biz sığınacaq yaradırıq, mentalitetimiz imkan vermir ki... Bakıda başa düşdük, indi Əhmədlidə olanı Yasamalda tanımırlar, gedib sığınacaqda qala bilir, ancaq hansı rayonda qadın gedib sığınacaqda qala biləcəkdir? O rayonda o, adını, hansısa bir nüfuzunu qoruya biləcəkmi? Bunlar real məsələlər deyil. Biz qoruyucu mexanizmləri bir az real məzmunlu mexanizmlərə çevirməyi bacarmalıyıq. Bütövlükdə, mən qanun layihəsini dəstəkləyirəm. Bu istiqamətdə daha böyük işlərin görülməsini, daha ciddi addımların atılmasını da vacib hesab edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Nigar Arpadarai. Buyurun.

**N.Arpadarai.** Hörmətli xanım sədr, hörmətli həmkarlar. Mən də, təbii ki, bu qanun layihəsini dəstəkləyirəm. Çünki məişət zorakılığı mövzusu çox ciddi bir

mövzudur və bu bizim cəmiyyətdə olan bir mövzudur. Təəssüf, bizdə belə bir stereotip var ki, ailədə baş verənlər ailədə qalmalıdır, ailədən kənara çıxa bilməz. Təbii ki, bizim Azərbaycan ailəsində bu mənada müdriklik var və məntiqi anlamaq olur. Amma onun əks tərəfi də odur ki, bu hallarda, məişət zorakılığı olan hallarda zərər çəkmiş insanlar müraciət etmirlər və elə ailələr var, illərdir, orada məişət zorakılığı halları olur və hələ də onlar müraciət etmirlər. Məhz "ayıbdır" anlayışına görə. Ona görə bu stereotipi artıq dəyişmək lazımdır.

Amma eyni zamanda, mən onu da qeyd eləməliyəm ki, məişət zorakılığı mövzusu tək bizdə olan mövzu deyil. Yəni deyə bilərəm, Avropada, ən liberal ölkələrdə, ən liberal Qərb ölkələrində məişət zorakılığı bizdən də çoxdur. Yəni statistikanı araşdırsanız, çox ciddi rəqəmləri görəcəksiniz. Ona görə bu mənada qanun layihəsini və təklif olunan dəyişiklikləri dəstəkləyirik. Çünki bu layihə qanunun təsir dairəsinin genişləndirilməsini nəzərdə tutur. Bu dəyişikliklərlə zorakılıqla bağlı halların gizli, diqqətdən kənar qalması və cəzasız qalması çətinləşir və biz Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən təqdim olunan statistikaya baxsaq, – biz bir müddət öncə artıq o hesabata da baxmışdıq, – 2021-ci illə müqayisədə 2022-ci ildə bu rəqəmlər azalır. Yəni azalma müşahidə olunur. Biz ümid etmək istərdik ki, bu, real azalmadır. Çünki, təəssüf ki, burada real rəqəmləri hələ də bilmirik. Çünki belə məsələlərdə real olaraq müraciət edənlər az olur.

Təbii ki, bu qanun bütün problemləri həll etməyəcək və bu qanun da mütəmadi olaraq baxılmalı olan qanunlardandır. Amma yenə də bu, istənilən halda çox ciddi bir addımdır və biz bunu dəstəkləməliyik. Bunun üçün, mə-

sələnin real olaraq həlli üçün maarifləndirmə işi aparılmalıdır. Savadlılıq səviyyəsinin artırılması olmalıdır və hər bir istiqamətdə iş aparılmalıdır ki, həm polis, həm digər hüquq mühafizə orqanları, həm də aidiyyəti qurumlar düzgün reaksiya verə bilsinlər. Ona görə istənilən halda qanun layihəsini biz dəstəkləyirik və lehinə səs verəcəyəm.

Hörmətli xanım sədr, mən fürsətdən istifadə edərək bu həmrəylik günü və yeni il münasibəti ilə cənab Prezident İlham Əliyev başda olmaqla, bütün Azərbaycan xalqını və Siz başda olmaqla, bütün deputat həmkarlarımı təbrik eləmək istəyirəm. Çünki biz bu il, doğrudan da, həmrəy olduq və bu həmrəylik bizi qalibiyyətə gətirən əsas amillərdən oldu. Ona görə bu bayram bizim üçün çox xüsusi bir bayramdır. Hər kəsin bayramı mübarək olsun! Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Təklif var, səsə qoyaq. Hamı razıdır?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Mən qanun layihələrini bir-bir səsə qoyacağam. 5-ci məsələni birinci səsə qoyuram. Xahiş edirəm, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.25 dəq.) |
|---|---|
| Lehinə | 83 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 83 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, 5-ci məsələdə olan qanun layihəsi birinci oxunuşda qəbul olundu.

İndi isə mən 6-cı məsələni – Mülki Prosessual Məcəllədə, digər iki məcəllədə və iki qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.26 dəq.) |
|---|---|
| Lehinə | 84 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 85 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu qanun layihəsi də birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, bildiyiniz kimi, hər il Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü ərəfəsində Milli Məclis soydaşlarımıza və həmvətənlərimizə müraciət edir və gündəliyin sonuncu, 7-ci məsələsi də məhz Milli Məclisin Müraciəti ilə bağlıdır. Müraciətin mətni hazırdır və onu səsləndirmək üçün mən həmkarımız hörmətli Nurlan Həsənova söz verirəm. Nurlan müəllim, buyurun.

**N.Həsənov**. Dünya azərbaycanlılarının həmrəyliyi günü münasibəti ilə Azərbaycan Respublikası Milli Məclisinin Müraciəti.

Əziz soydaşlarımız, dəyərli həmvətənlərimiz!

Böyük və qüdrətli Azərbaycan xalqının övladlarının söz, əqidə və əməl birliyinə nail olmaq arzusunu və əzmini təcəssüm etdirən həmrəylik günü dünyanın çoxsaylı ölkələrində əziz bayram kimi böyük ruh yüksəkliyi ilə qeyd edilir.

Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 32 il öncə

başlanmış milli-mənəvi bütövləşmə hərəkatı xalqımızın tarixi köklərə bağlılığından və milli yüksəliş amalından güc almışdır. Dövlət müstəqilliyimizlə yaşıd olan bu proses sonrakı dövrdə daha da genişləndikcə dünya azərbaycanlıları ümummilli qayələrimizin gerçəkləşməsi naminə azərbaycançılıq ideyası əsasında sıx birləşməyin əhəmiyyətini dərindən dərk etmişlər. Azərbaycan icmaları və diaspor təşkilatları inkişaf edib möhkəmlənir, soydaşlarımızın və həmvətənlərimizin siyasi, iqtisadi, sosial və mədəni hüquqlarının müdafiəsi işində yaxından iştirak edir, tarixi vətənlə əlaqələrini gücləndirirlər.

Bəşər sivilizasiyasına dəyərli töhfələr vermiş Azərbaycan xalqı həm sayına, həm də intellektual potensialına görə dünyanın böyük millətləri ilə bir sırada dayanır. Ulu Şərqin bir sıra qüdrətli dövlətləri xalqımızın istedad və zəkasının gücü ilə qurulmuşdur.

Bugünkü müstəqil Azərbaycan dövləti xalqımızın ən böyük tarixi nailiyyətlərindən biridir. Hər bir soydaşımız bilir ki, ona arxa duran, hüquqlarını, şərəfini, nüfuzunu qorumağa hazır olan milli dövləti vardır. Odur ki, Asiyada, Avropada, Amerikada və digər qitələrdə məskən salmış soydaşlarımız Vətəndə baş verən ictimai-siyasi prosesləri diqqətlə izləyir, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın Cənubi Qafqaz bölgəsinin lider dövlətinə çevrilməsi, geniş bir bölgədə söz sahibi olması, həyatın bütün sahələrində heyrətamiz uğurlar qazanması ilə fəxr edirlər. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə qəhrəman Silahlı Qüvvələrimizin bu ilin sentyabr ayında Qarabağda həyata keçirdiyi bir günlük antiterror tədbirləri nəticəsində dövlətimizin ərazi bütövlüyünün və suverenliyinin tam bərpa edilməsi hər bir azərbaycanlının qəlbini qürur hissi ilə doldurur.

Əziz soydaşlarımız, dəyərli həmvətənlərimiz!

Azərbaycan dövləti dünya azərbaycanlılarının birlik və həmrəyliyinin möhkəmləndirilməsinə ümdə əhəmiyyət verir. Xalqımızın mütəşəkkil qüvvəyə çevrilməsinə yönələn tədbirlər mütəmadi şəkildə davam etdirilir. Tarixin gərdişi ilə Azərbaycan Respublikasının hüdudlarından kənarda yaşayan soydaşlarımıza qayğı göstərilməsi, onların milli kimliyinin, hüquq və mənafelərinin, təhlükəsizliyinin qorunmasına dəstək verilməsi dövlət siyasətinin ayrılmaz tərkib hissəsini təşkil edir.

Bu gün biz böyük imkanlar vəd edən yeni bir dövrün astanasındayıq. Xalqımızın bir çox nəsillərinin arzuladığı gələcəyin qurulması üçün hər bir azərbaycanlı öz səylərini əsirgəməməlidir.

Azərbaycanın bütün potensialının üzə çıxarılaraq dünyaya daha yaxından tanıdılması, xalqımızın qibtə ediləcək qədim adət-ənənələrinin, gözəl dilinin, zəngin mədəniyyətinin yaşadılması və təbliğ edilməsi sahəsində görüləsi işlərimiz çoxdur. Soydaşlarımızın və həmvətənlərimizin bir vəzifəsi də yaşadıqları ölkələrin ictimai-siyasi həyatına inteqrasiya etməklə bərabər, milli özgünlüyümüzü uca tutmaq, milli hüquqlarımızı qorumaq, hər sahədə bir-birinə dəstək olmaqdır. Azərbaycan xalqının varlığı və gələcəyi, milli dövlətçiliyimizin əbədi davam etməsi dünya azərbaycanlılarının birliyindən və mütəşəkkilliyindən çox asılıdır.

Əziz soydaşlarımız, dəyərli həmvətənlərimiz!

Sizi milli amallarımızın gerçəkləşməsi, xalqımızın mənafelərinin qorunması naminə birliyə çağırırıq. Dünya azərbaycanlılarının həmrəyliyi günü münasibəti ilə hamınızı ürəkdən təbrik edir, hər birinizə möhkəm can sağlığı, ailə səadəti, doğma Azərbaycanımıza işıqlı gələcək arzulayırıq!

Hörmətlə, Azərbaycan Respublikasının Milli Məclisi.*(Alqışlar.)*

**Sədrlik edən.** Çox sağ olun, Nurlan müəllim. Hörmətli həmkarlar, necə baxırsınız? Müraciəti səsə qoya bilərik?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Çox sağ olun. Mən səsə qoyuram, buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.31 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, Müraciət qəbul edildi.

Hörmətli həmkarlar, bu gün payız sessiyasının son iclasıdır və biz həm sessiyaya, həm də ilə yekun vururuq. İcazənizlə, mən sessiya və il ərzində görülmüş işlər haqqında sizə qısa məlumat verim.

Öncə onu söyləyim ki, indiyə qədər olduğu kimi, Milli Məclisin fəaliyyəti Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin altıncı çağırış Milli Məclisin birinci iclasında verdiyi tövsiyələr əsasında qurulmuşdur.

Milli Məclisin Konstitusiya ilə nəzərdə tutulan səlahiyyətləri tam yerinə yetirilmişdir. Payız sessiyasında parlamentin 16 iclası olmuş, 100 qanun və qərar layihəsinə baxılmışdır. Ümumiyyətlə, 2023-cü ildə isə Milli Məclisin 39 plenar iclası keçirilmiş, 268 qanun və 27 qərar qəbul edilmişdir.

Hörmətli deputatlar, başa çatan ilin ən önəmli hadisələri sırasında xalqımızın Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin 100 illik yubileyi münasibəti ilə Milli Məclisin mayın 16-da və iyunun 14-də keçirilən xüsusi iclasları qeyd edilməlidir. Ulu Öndərin Azərbaycan xalqı və dövləti qarşısında xidmətlərinin, dünya siyasət sənətinə verdiyi töhfələrin ölkəmizdə və beynəlxalq aləmdə nə qədər yüksək qiymətləndirildiyi bir daha nümayiş olunmuşdur. Onu da deyim ki, bu iclaslar Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin sərəncamı ilə ölkəmizdə keçirilən "Heydər Əliyev İli" çərçivəsində parlament səviyyəsində təşkil edilən ən irimiqyaslı tədbirlər olmuşdur.

Ulu Öndərin xatirəsinə həsr edilən digər tədbirlər də baş tutmuşdur. O cümlədən, oktyabrın 13-də Milli Məclisdə "Heydər Əliyev – 100: Müasir Azərbaycan – sosial rifah və sosial ədalət dövləti" mövzusunda elmi-praktik konfrans keçirilmiş, noyabrın 19-da Milli Məclis deputatlarının və Parlament Aparatı əməkdaşlarının Böyük Qafqaz sıra dağlarının "Heydər Əliyev zirvəsi"nə yürüşü təşkil edilmişdir.

Hörmətli həmkarlar, ötən dövrün ən əlamətdar hadisələrindən biri də İlham Heydər oğlu Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsinin 20-ci ildönümü ilə əlaqədar Milli Məclisin xüsusi iclası olmuşdur. İclasda Ulu Öndər Heydər Əliyevin inkişaf strategiyasını layiqincə davam etdirən möhtərəm cənab İlham Əliyevin Azərbaycanı qüdrətli dünya dövlətinə çevirməyə yönələn fəaliyyətindən minnətdarlıq duyğuları ilə danışılmışdır.

Hörmətli deputatlar, hər dəfə biz Milli Məclisin fəaliyyətinə yekun vurarkən bu fəaliyyətin uğurlarına şərait

yaradan amillər sırasında hakimiyyətin müxtəlif qolları arasında səmərəli əməkdaşlıq əlaqələrini hökmən qeyd edirik. Bununla əlaqədar, Milli Məclis ilə Prezident Administrasiyasının müvafiq şöbələri arasında mütəmadi xarakter daşıyan iş birliyinin əhəmiyyəti xüsusi vurğulanmalıdır. Eyni zamanda, mən parlamentlə hökumət arasında konstruktiv əməkdaşlığa da diqqəti cəlb etmək istəyirəm. Yola saldığımız il ərzində hökumətin müxtəlif strukturlarının, o cümlədən nazirliklərinin və dövlət komitələrinin nümayəndələri Milli Məclisin və komitələrin iclaslarına dəvət olunmuş, qanun layihələrinin müzakirəsi zamanı onların rəyləri dinlənilmiş, eyni zamanda, deputatların bir sıra mülahizə və təklifləri də icra orqanları tərəfindən nəzərə alınmışdır.

Hörmətli həmkarlar, qanunvericilik fəaliyyətinin səmərəsini artırmaq, ictimai fikir üçün aktual olan məsələləri müzakirə etmək məqsədi ilə lazım gəldikdə ictimai dinləmələr keçirilməsi praktikası da davam etdirilmişdir. Qeyd edim ki, il ərzində Milli Məclisdə 15 dinləmə keçirilmişdir. İki dinləmə Ulu Öndər Heydər Əliyevin dövlətimizin gənclər siyasətinin formalaşmasına, eləcə də demokratiyanın, özünüidarənin və regionların inkişafına verdiyi töhfələrə, iki dinləmə qanun layihələrinə, beş dinləmə Qərbi azərbaycanlıların tarixi və mədəni irsi, Qərbi Azərbaycana qayıdışın hüquqi aspektləri ilə bağlı məsələlərə, altı dinləmə isə Azərbaycan cəmiyyətini düşündürən digər məsələlərə həsr edilmişdir.

Hörmətli deputatlar, qanunvericilik və qanunyaratma sahəsində görülən işlərlə yanaşı, Milli Məclis, eləcə də parlamentin komitələri, xüsusən Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi bəzi beynəlxalq qurum və xarici dövlətlərin Azərbaycanı gözdən salmağa,

onun suverenliyinə qəsd etməyə yönələn hərəkətlərinə etiraz əlaməti olaraq bəyanatlar qəbul etmişlər. Yeri gəlmişkən, qeyd edim ki, bu qəbildən olan müxtəlif məsələlərlə bağlı Milli Məclis sədrinin adından xarici dövlətlərin parlament sədrlərinə və beynəlxalq parlament təşkilatlarının rəhbərlərinə, yüzlərlə ünvana müraciətlər göndərilmişdir.

Hörmətli həmkarlar, Milli Məclis bu il də nəzarət funksiyasını səmərəli surətdə həyata keçirmişdir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin, Hesablama Palatasının, İnsan hüquqları üzrə müvəkkilin, bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın, İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun, gender bərabərliyinin təmin edilməsinə nəzarəti həyata keçirən icra hakimiyyəti orqanının hesabat, məruzə və məlumatları dinlənilmişdir.

Hörmətli deputatlar, bu bir il ərzində Milli Məclis deputatlarının seçki dairələrində işinə xüsusi diqqət yetirilmişdir. Millət vəkilləri öz seçiciləri ilə müntəzəm görüşlər keçirmiş, onları düşündürən məsələləri Milli Məclisin iclaslarında, eləcə də digər hakimiyyət orqanları qarşısında qaldırmışdır.

Hörmətli həmkarlar, Milli Məclisdə vətəndaşların qəbulu və müraciətlərinə baxılması sahəsində də lazımi tədbirlər həyata keçirilmişdir. Qeyd edim ki, il ərzində Milli Məclisin rəhbərliyi, komitə sədrləri, Aparatın rəhbəri və şöbə müdirləri, işlər müdiri tərəfindən 4 minə qədər vətəndaş qəbul edilmiş, parlamentdə 20 mindən çox vətəndaş müraciətinə baxılmışdır.

Hörmətli deputatlar, ötən dövrdə Milli Məclisin beynəlxalq əlaqələrinin inkişafı sahəsində də zəruri tədbirlər görülmüşdür. Nümayəndə heyətlərimiz üzv olduğumuz

bütün beynəlxalq parlament təşkilatlarının fəaliyyətində, həmişə olduğu kimi, yaxından iştirak etmişlər. Ümumiyyətlə, il ərzində 104 deputatımız 61 ölkəyə 495 səfər həyata keçirmişdir. Milli Məclis sədrinin 13 ölkəyə rəsmi və 10 ölkəyə 12 işgüzar səfəri olmuşdur. Həm deputatların, həm də Milli Məclis sədrinin səfərlərində dövlətimizin xarici siyasətinin parlament ölçüsünü təmin etmək üçün parlament diplomatiyasının imkanlarından istifadə edilmişdir. Həmçinin, hörmətli həmkarlar, deputatlarımız Türkiyədə keçirilən Prezident və parlament seçkilərini, Qazaxıstan, Özbəkistan, Bolqarıstan, Serbiya, Polşa və Kambocada keçirilən parlament seçkilərini müşahidə etmişlər.

Hörmətli həmkarlar, ötən dövrdə 68 ölkənin və 18 beynəlxalq təşkilatın 199 nümayəndə heyəti, ümumən 688 nəfər xarici qonaq Milli Məclisdə olmuşdur. Milli Məclisin sədri 24 ölkənin parlament sədrləri və sədr müavinləri, 5 beynəlxalq parlament təşkilatının rəhbərləri, 8 ölkənin icra hakimiyyəti orqanlarının nümayəndələri, 9 dövlətin Azərbaycandakı səfirləri ilə görüşlər keçirmişdir.

Hörmətli deputatlar, parlamentin beynəlxalq əlaqələrinin inkişafına yönələn tədbirlərdən biri də 6 ölkənin parlamenti və parlament qurumu ilə əməkdaşlıq haqqında sənədlərin imzalanması olmuşdur. Belə ki, Türkiyə Böyük Millət Məclisi və Rusiya Federasiyası Federal Məclisinin Dövlət Duması ilə iş birliyi haqqında sazişlər bağlanmış, Misir Senatı, Serbiya Milli Assambleyası, Gürcüstan Parlamentinin Mədəniyyət komitəsi, Türkiyə Böyük Millət Məclisinin Qadınlar və kişilər üçün bərabər imkanların təmin edilməsi komissiyası ilə Milli Məclis və ya onun müvafiq komitələri arasında anlaşma memorandumları və əməkdaşlıq protokolları da imzalanmışdır.

Onu da deyim ki, sədri olduğum Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi ilə İslam Əməkdaşlığı Təşkilatının Parlament İttifaqı, Ərəb Parlamenti, Türkdilli Dövlətlərin Parlament Assambleyası, ASEAN Parlamentlərarası Assambleyası arasında əməkdaşlığa dair anlaşma memorandumları da imzalanmışdır.

Hörmətli həmkarlar, beynəlxalq təşkilatların xətti ilə 2 böyük tədbirə evsahibliyi edilmişdir. Bu tədbirlər Asiya Parlament Assambleyasının Sosial və mədəni məsələlər daimi komitəsinin iclası, eləcə də Milli Məclisin və ATƏT-in Parlament Assambleyasının birgə təşkilatçılığı ilə təşkil edilən "Yaşıl iqtisadiyyat, nəqliyyat əlaqələndirilməsi və dayanıqlı inkişaf vasitəsi ilə təhlükəsizlik və sabitliyin təşviqində milli parlamentlərin rolu" mövzusunda konfrans olmuşdur. Onu da qeyd edim ki, Milli Məclis bir tədbiri də Bəhreynin Manama şəhərində keçirmişdir. Bu, Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin İkinci Konfransı idi. Bu, sırf Milli Məclisin təşkil etdiyi və keçirdiyi tədbir idi.

Bundan əlavə, Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin, Qoşulmama Hərəkatı Gənclər Təşkilatının və Bakı Təşəbbüs Qrupunun birgə təşkilatçılığı ilə Bakıda "Dekolonizasiya Dialoqları: miras, çağırışlar və nailiyyətlər" mövzusunda beynəlxalq konfrans keçirilmişdir.

Beləliklə, hörmətli deputatlar, Milli Məclis payız sessiyasını və 2023-cü ili uğurla başa çatdırır. Bununla əlaqədar və səmərəli işə görə mən sizin hamınıza çox böyük təşəkkür edirəm.

Hörmətli həmkarlar, bilirsiniz ki, qarşıdan bizim gözəl bayramlarımız gəlir. Sabah xalqımız Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü, daha sonra yeni ili qeyd edəcəkdir.

Təklif edirəm ki, möhtərəm Prezidentimiz İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya Milli Məclis adından təbrik məktubları ünvanlayaq. Azərbaycan dövlətinin bu günü və sabahı naminə dəyərli fəaliyyətlərində onlara yeni böyük uğurlar arzulayaq! *(Alqışlar.)*

Hörmətli həmkarlar, mən bayramlar münasibəti ilə sizi səmimi qəlbdən təbrik edirəm! Hamınıza can sağlığı, uzun ömür və hər birinizə işlərinizdə uğurlar arzulayıram. Həmçinin mən burada olmayan, ancaq bizi həmişə müşahidə edən media nümayəndələrini də ürəkdən təbrik edirəm.

İndi isə, hörmətli həmkarlar, Milli Məclisin payız sessiyasını bağlı elan edirəm.

*(Azərbaycan Respublikasının Dövlət Himni səslənir.)*

# EDİLMƏMİŞ ÇIXIŞLARIN MƏTNLƏRİ

## ***30 dekabr 2023-cü il***

**A.Əliyev.** 2023-cü il ölkəmiz üçün olduqca tarixi uğurlarla yadda qaldı. Bu il tariximizə uzun illərdən sonra ərazi bütövlüyümüzün bərpası və suverenliyimizin bərqərar olunması ilə yadda qaldı. Cari ilin 19 sentyabr tarixində başlayan və 23 saat davam edən lokal antiterror tədbirləri zamanı ordumuz yüksək məharət və döyüş qabiliyyəti göstərərək ərazi bütövlüyümüzü bərpa etdi. Dövlət başçısının bayrağımızı Xankəndi şəhərində dalğalandırması ilə suverenliyimizin bərqərar olunması bir daha dünyaya nümayiş etdirildi.

2023-cü il həm də ölkəmizdə dövlət başçısının rəhbərliyi ilə aparılan geniş miqyaslı abadlıq-quruculuq işləri ilə yadda qaldı. İşğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış konsepsiyası əsasında uzun illər yurd həsrəti çəkmiş məcburi köçkünlər artıq öz evlərinə dönüblər. Qayıdış prosesi uğurla davam edir və növbəti illərdə də bu proses uğurla davam edəcəkdir.

Əhalinin sosial rifahının yaxşılaşdırılması, məşğulluq məsələləri bu il də dövlət siyasətinin əsas istiqamətlərindən biri olaraq qaldı. Sosial qayğıya ehtiyacı olan şəxslərə, xüsusi ilə şəhid ailələri və qazilərə mənzillər verildi, onlar nəqliyyat vasitələri ilə təmin olundular.

Təbii ki, 2023-cü ilin ölkəmizdə Ümummilli Lider Heydər Əliyevin 100 illiyi ilə əlaqədar “Heydər Əliyev İli” elan olunması həm Azərbaycanda, həm də xarici ölkələrdə bir sıra tədbirlərin keçirilməsi ilə yadda qaldı. Ulu Öndərin xatirəsinə həsr olunmuş Milli Məclisin xüsusi iclası keçirildi, dünyanın bir çox parlamentariləri bu tədbirlərə dəvət olundu.

İlin sonunda isə ölkəmizin BMT-nin İqlim Dəyişikliyi

üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına – COP29-a evsahibliyi etməsi haqqını qazanması hər birimizi sevindirən xəbər oldu. COP29-un Azərbaycanda keçirilməsini təşkilata üzv olan ölkələr dəstəkləmiş və Azərbaycanın namizədliyi yekdil qərar əsasında qəbul olunmuşdur. Konfransın keçirilməsi üçün Azərbaycanın namizədliyinin dəstəklənməsi həm də ölkəmizin dünyadakı artan nüfuzunun əyani təzahürüdür.

Azərbaycanın Qoşulmama Hərəkatı kimi 120-dən artıq ölkəni özündə birləşdirən beynəlxalq bir təşkilata uğurla rəhbərlik etməsi, məhz təşkilata üzv dövlətlərin birgə qərarı ilə Azərbaycanın sədrliyinin 1 il daha uzadılması ölkəmizin beynəlxalq aləmdə qazandığı nüfuzu göstərir.

Gələn ilin dövlət büdcəsində Böyük Qayıdış konsepsiyası və əhalinin rifahının daha da yaxşılaşdırılması prioritet təşkil edən məsələ olaraq qalmaqdadır. 2024-cü ildə bizi Prezident seçkiləri gözləyir. Əminəm ki, xalqımız bir daha öz liderini dəstəkləyəcək və cənab İlham Əliyevi təkrar ölkəmizin Prezidenti olaraq seçəcəkdir.

Əziz həmvətənlər, sizi 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və yeni il münasibətilə səmimi qəlbdən təbrik edir, 2024-cü ilin xalqımıza, dövlətimizə düşərli olmasını arzulayıram.

**C.Məmmədov.** Azərbaycan xalqı daha bir zəfər ilini arxada qoyur. 2023-cü il bir çox mühüm tarixi hadisə və anlarla yadda qaldı. Azərbaycan bir çox mötəbər tədbirlərə evsahibliyi etdi. Eyni zamanda, beynəlxalq müstəvidə bir çox mühüm ideyaların təşəbbüskarı oldu. Bu gün artıq Azərbaycan müxtəlif beynəlxalq və mötəbər tədbirlərin keçirildiyi bir məkana çevrilib.

Bu dönəmdə həyata keçirilən uğurlu daxili və xarici siyasət nəticəsində müstəqilliyimiz, dövlətçiliyimiz daha

da gücləndi, ölkəmizin nüfuzu, ona olan etimad daha da artdı.

Hər birimizə məlum olduğu kimi, 2023-cü ili Prezident İlham Əliyev "Heydər Əliyev İli" elan etmişdi. Bu il Azərbaycanın bütün bölgələrində hər zaman olduğu kimi, Ulu Öndər Heydər Əliyevin əziz xatirəsi böyük ehtiram və qürurla anıldı. Bu il ölkəmizin bütün bölgələrində yubiley tədbirləri onun adına layiq formada keçirildi.

2023-cü il həm də torpaqlarımızın tamamilə işğaldan azad olunması, konstitusion quruluşun bütün ərazilərimizdə təmin olunması ilə yadda qaldı. Ötən il bu vaxtlar Azərbaycanın qeyri-hökumət təşkilatları Şuşa–Laçın yolunda etiraz aksiyası keçirirdilər. Zaman-zaman bu aksiyaların gərəksizliyi barədə bəzi antimilli qüvvələr fikirlər səsləndirirdilər. Bu gün biz Qarabağın hər yerində, hər bölgəsində varıq. Həqiqətən də, xalqımız daha bir qürurlu il yaşadı.

Bu gün Ulu Öndər Heydər Əliyevin, eləcə də Azərbaycanı azad, müstəqil, xoşbəxt görmək istəyənlərin də ruhu şaddır. Bu gün Azərbaycan tarixdə heç zaman olmadığı qədər güclü və müstəqildir.

Təəssüflə qeyd etmək lazımdır ki, cəbhədə müharibə bitsə də, informasiya müharibəsi bitməyib və amansız formada davam edir. Bu mübarizədə uduzmamaq üçün daha çox çalışmalıyıq.

Bütün bunlar həm də onu göstərir ki, qarşımızda hələ çox vəzifələr var. Qələbəmizi və dövlətçiliyimizi daha da möhkəmləndirmək, Ermənistanla sülh müqaviləsinin imzalanmasına nail olmaq. Azərbaycan bütün məqsədlərinə nail olduğu kimi, bu məqsədinə də mütləq çatacaq.

**M.Həsənov**. Sizlərin hər birinizi və sizin şəxsinizdə bütün xalqımızı Dünya Azərbaycanlılarının Həmrəyliyi

Günü və təqvim ilinin yekunlaşması münasibəti ilə təbrik edir, şəxsi həyatınızda  və peşəkar fəaliyyətinizdə uğurlar arzulayıram.

2023-cü il xalqımız və dövlətimiz üçün olduqca uğurlu olmuş, tariximizə böyük qələbələrlə daxil olmuşdur. 2023-cü il Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi ilə əlamətdardır. 2023-cü ildə möhtərəm cənab Prezidentimizin siyasi hakimiyyətə gəlməsinin 20 illiyini qeyd etdik. 2023-cü ildə işğal altında olan bütün torpaqlarımızda müqəddəs bayrağımızın dalğalanmasının şahidi olduq. Bu baxımdan biz özümüzü şərəfli nəslin nümayəndələri hesab edə bilərik.

Əldə etdiyimiz qələbə və uğurların əsasında xalq–prezident həmrəyliyi durur. Bu gün milli birliyimiz tariximizin heç bir dövründə olmadığı qədər möhkəm, davamlı və sarsılmazdır. Bu həmrəyliyimiz gələcəkdə də davam edəcək, növbəti təzahürünü fevral ayının 7-də göstərəcəkdir. Xalqımız iradəsini ortaya qoyaraq müzəffər Ali Baş Komandan cənab İlham Heydər oğlu Əliyevə etimad göstərərək növbəti 7 il üçün də dövlətimizin rəhbərliyini ona həvalə edəcəkdir.

Bu gün inkişafımız üçün yenilməz siyasi iradə, xalqımızın vətən, dövlət sevgisi, yurdsevər gəncliyimiz, qalib ordumuz vardır və bütün bunlar növbəti onilliklər və yüzilliklər ərzində bizə imkan verəcəkdir ki, dövlətimizin müstəqilliyini qoruyaq və bizdən sonrakı nəsillər bugünkü imkanlar və zəminlər əsasında dövlətçiliyimizi davam etdirsinlər.

Hörmətli sədr, hörmətli həmkarlar, hörmətli media nümayəndələri, bir daha sizləri Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və qarşıdan gələn yeni təqvim ili münasibəti ilə ürəkdən təbrik edirəm.

**N.Səfərov**. Azərbaycanın beynəlxalq əlaqələri tarixində ilk dəfə olaraq fransız diplomatlarının “persona non qrata” elan edilməsi iki mühüm kontekstdə – hüquqi və siyasi baxımdan dəyərləndirilə bilər.

İlk növbədə qeyd etmək lazımdır ki, ölkəmiz tərəfindən atılan bu addım dövlətlərarası münasibətlərin hüquqi bünövrəsini təşkil edən, həm Azərbaycanın, həm də Fransanın iştirakçısı olduğu “Diplomatik əlaqələr haqqında” 1961-ci il 18 aprel tarixli Vyana Konvensiyasının müddəalarına tamamilə uyğundur.

Diplomatik nümayəndələrin funksiyalarını, vəzifələrini və imtiyazlarını müəyyən edən bu beynəlxalq müqavilənin 9-cu maddəsinə əsasən, qəbul edən dövlət istənilən vaxt öz qərarını əsaslandırmadan akkreditə edən dövlətin nümayəndəliyinin başçısını və ya diplomatik personalın üzvlərindən hər hansı birini “persona non qrata” elan edə bilər. Bu halda akkreditə edən dövlət müvafiq olaraq, həmin şəxsi geri çağırmalı və ya onun nümayəndəlikdəki funksiyalarını dayandırmalıdır.

Diplomatik agentlərin statusu və imtiyazları ilə bir araya sığmayan fəaliyyət beynəlxalq hüquq normalarına uyğun olaraq, onların barəsində fövqəladə tədbirlərin həyata keçirilməsinə əsas verir. Bu baxımdan dövlətimizin atdığı addımlar beynəlxalq hüquq normaları çərçivəsindədir və hamılıqla tanınan hüquqi prinsiplərin aliliyinə əsaslanır.

Məsələnin ikinci konteksti siyasi xarakter daşıyır. Otuz ilə yaxın bir müddətdə ATƏT-in Minsk Qrupunun həmsədri olaraq fəaliyyət qabiliyyətsizliyi sərgiləyən və Ermənistan–Azərbaycan münaqişəsinə selektiv, qeyri-obyektiv münasibət bəsləyən Fransa İkinci Qarabağ müharibəsi və ondan sonrakı dövrdə birmənalı olaraq işğalçı dövlətin

tərəfini tutmuşdur. Fransız deputatların, prezidentliyə namizəd Valeri Pekresin, keçmiş xarici işlər naziri Mişel Barnyenin, Fransa Senatında "Respublikaçılar" fraksiyasının sədri Bruno Retayyonun və başqalarının əvvəllər işğal altında olan ərazilərimizə mütəmadi səfərləri, Fransa Milli Assambleyasının hər iki palatası tərəfindən qondarma "Dağlıq Qarabağ Respublikası"nı tanımağa çağıran qətnamələrin qəbul edilməsi, münaqişə bitdikdən sonra Fransa tərəfindən Ermənistanın sürətlə silahlandırılması – bütün bunlar ikitərəfli münasibətlərin kəskin pisləşməsinə gətirib çıxarmış və diplomatik statusla bir araya sığmayan fəaliyyətə rəvac vermişdir.

Yekun olaraq qeyd etmək istərdim, Azərbaycan dövləti milli maraqlarımıza uyğun gəlməyən, milli təhlükəsizliyə təhdid yaradan hər bir cəhdin qarşısını almağa qadirdir və heç kəsdə şübhə olmasın ki, bu istiqamətdə qətiyyətli addımlar istənilən zaman atıla bilər.

# MÜNDƏRİCAT


26 dekabr 2023-cü il ............................................................. 3

30 dekabr 2023-cü il ........................................................... 51

Edilməmiş çıxışların mətnləri............................................... 111

Altıncı çağırış

# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİ İCLASLARININ

# PROTOKOLLARI
# VƏ
# STENOQRAMLARI

On dördüncü sessiya
Payız

59-cu cild

26 – 30 dekabr 2023-cü il

Buraxılışına məsul
***H. Babayev***

Azərbaycan Respublikasi Milli Məclisinin mətbəəsi.
Bakı, Azad Mirzəyev küçəsi, 235.
Format 60x84 1/16. Çap vərəqi  30, 5. Sifariş 47. Tiraj 150.